# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*H.Əliyev*

22 aprel 2017-ci il №14(8730) www.muallim.edu.az **Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı** muallim@edu.gov.az


# Ali təhsil müəssisələri strateji seçim qarşısında

## Milli təhsil sistemimizdə biliyə, innovasiyaya əsaslanan universitetlər yer almalıdır



Bizim üçün dəyişməyən bir ənənə var: hər ailə çalışır ki, övladının diplomu olsun. Ancaq bu bir həqiqətdir ki, diplomlu olmaq heç də təhsilli, ixtisaslı kadr olmaq demək deyil. Hələ də ixtisas, təhsil deyil, diplom arxasınca qaçmağın nəticəsidir ki, ölkə ali təhsil müəssisələrində özünə yer tapa bilməyəndə son çarə olaraq xarici ölkələrə üz tutanların sayı ilbəil artır. Artıq problemin kökündən həll edilməsinin vaxtı çatıb. Bunu ölkədə təhsil siyasətini həyata keçirən qurumun – Təhsil Nazirliyinin son illərdə həyata keçirdiyi strategiya da təsdiq edir. İndi nəinki bu axının qarşısını almağın, onun istiqamətini tərsinə çevirməyin vaxtıdır. Bəs, bunu necə edəcəyik?

**Azərbaycanda bir ali təhsil müəssisəsi...**

Azərbaycanda təhsil müəssisələri sadəcə diplom deyil, ixtisas, təcrübə, təhsil verə bilmək üçün tələb olunan bir sıra şərtləri ödəməlidir. Lakin görünən mənzərə odur ki, yerli və beynəlxalq təcrübə arasında bu qədər ciddi fərqlər varkən axının istiqamətini dəyişmək elə də asan olmayacaq.

*Ali təhsil müəssisələri* – orta təhsil bazası əsasında təsərrüfat, elm və mədəniyyətin ayrı-ayrı sahələri üçün, yəni müxtəlif ixtisaslar (ixtisaslaşmalar) üzrə ali təhsilli mütəxəssislər hazırlayır. Cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla aparılan bu proses Nazirlər Kabinetinin təsdiq etdiyi *"Ali təhsil pilləsinin dövlət standartı"* ilə tənzimlənir.

⇨Ardı səh.4

# 100 faizlik nəticə

Aprelin 16-dan Ağdam, Füzuli, Bərdə, Tərtər, Beyləqan, Laçın, Kəlbəcər, Xocavənd və Cəbrayıl rayonlarının dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin diaqnostik qiymətləndirilməsinə başlanılıb. Aprelin 21-dək davam edən qiymətləndirmədə 10 min nəfərdən çox müəllim iştirak edib.

Diaqnostik qiymətləndirmədə müəllimlərdən 100 faizlik nəticə göstərənlər də olub. Onlardan biri akademik Zərifə Əliyeva adına Bərdə şəhər texniki fənlər təmayüllü məktəb-liseyin ingilis dili müəllimi Xuraman Həsənovadır.

Xuraman Həsənova imtahana təlim kurslarında öyrədilənlər və təcrübədə əldə etdiklərini yenidən təkrarlamaqla hazırlaşıb. O, öz ixtisası üzərində o qədər də diqqətlə dayanmayıb. Çünki ixtisasdan 100 % nəticə əldə edəcəyinə əmin olub: "60 bal mənim hədəfim idi. Məqsədim var idi ki, 60 balı toplayacağam və bu həvəsimin arxasında isə biliyimə olan inamım dayanırdı. Bu baldan 1 bal belə aşağı toplayacağımı ağlıma belə gətirmirdim. İmtahan zalına özümdən tam əmin şəkildə daxil oldum, imtahan müddətində sualları tək-tək səbrlə oxudum və cavablandırdım. Verilən vaxtdan səmərəli istifadə etdim. İmtahanın bitməsinə 20 dəqiqə qalmış "İmtahanı bitir" komandasını seçdim və şəxsiyyət vəsiqəmin seriya nömrəsini yazdım və topladığım balı – 60 bal sözünü monitorun ekranında gördükdə yerimdən sevinclə sıçradım".

⇨Ardı səh.2

# "Ən yaxşı dərs" layihəsinə start verilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində "Ən yaxşı dərs" layihəsinə start verilib. Layihənin əsas məqsədi təhsildə uğurlu nəticələr əldə etmiş qabaqcıl müəllimlərin təcrübəsinin həmkarları ilə bölüşməsini təmin etməkdən ibarətdir. Təcrübə mübadiləsi, bütün fənlərin tədris səviyyəsinin nümayiş etdirilməsi, dərsin planlaşdırılması, qiymətləndirilməsi və bu istiqamətdə müzakirələrin aparılması da layihənin əsas komponentlərindəndir.

Layihə çərçivəsində dərslər I-XI siniflərdə bütün fənlər üzrə təşkil olunur. Dinlənilən dərslər müəllimin müxtəlif innovativ üsul və vasitələrdən çevik və məqsədyönlü istifadəsi, dərsin bütün mərhələlərində şagirdlərin fəal iştirakının təmin edilməsi, müəllim tərəfindən motivasiya, tədris materialının şagirdin hazırlıq səviyyəsinə uyğunlaşdırılması, "Ən yaxşı dərs" üçün seçilmiş mövzunun proqrama uyğunluğu və s. kimi meyarlar üzrə qiymətləndirilir. Dərslər dinlənildikdən sonra təhlil və müzakirə edilir. Uğurlu nəticələr əldə etmiş məktəblərin və fənn müəllimlərinin qabaqcıl təcrübəsinin təbliği istiqamətində keçirilən "Ən yaxşı dərs" layihəsi bütün məktəblərdə eyni vaxtda start götürür.

Qeyd edək ki, "Ən yaxşı dərs" layihəsi mayın 26-dək davam edəcək.

# Azərbaycanlı doktorant ABŞ Milli Elm Fondunun mükafatına layiq görülüb

Texas A&M Universitetinin tətbiqi iqtisadiyyat fakültəsində doktorantura təhsili alan Samir Hüseynov Amerikanın Milli Elm Fondu tərəfindən tədqiqat mükafatına layiq görülüb. 42,6 min dollar həcmində olan bu mükafat Samir Hüseynova qurduğu nəzəri-iqtisadi davranış modelini universitetin İnsan Davranışları Laboratoriyasında sınaqdan keçirmək və yeni elmi nailiyyətlər əldə etmək imkanı verəcək.

AZƏRTAC xəbər verir ki, Milli Elm Fondu ABŞ federal hökuməti tərəfindən maliyyələşdirilir və hər il elmi inkişaf etdirəcək, əhalinin rifahını yüksəldəcək və sosial siyasət qərarlarını daha effektiv edəcək elmi araşdırmalara qrant şəklində mükafat verərək elm adamlarını dəstəkləyir. Fondun qrant mükafatları alimlər arasında olduqca nüfuza sahibdir və bir neçə mərhələdən ibarət olan bu mükafat referilərin rəyi və komissiyaların qərarları nəticəsində ən yüksək perspektivli elmi işlərə verilir. Samir Hüseynov Fondun "Qərarvermə, risk və idarəetmə" proqramı üzrə mükafatına layiq görülüb. O, son 5 ildə bu mükafata layiq görülən 10-cu, Texas ştatından isə ilk doktorantdır.

2007-ci ildə Amerikada qəbul olunan qanuna görə, bütün restoranlar menyularında təqdim olunan yeməklərin kalorisi ilə bağlı məlumat verməlidirlər. Bu qanunun əsas məqsədi insanları yüksək kalorili qidalardan çəkindirmək, əhalini az kalori istehlak etməyə sövq etmək və kökəlmənin qarşısını almaqdan ibarətdir. Amma qanunun tətbiqi gözlənilən nəticəni vermədi və əhalinin kalori istehlakında azalma müşahidə olunmadı. Samir Hüseynovun qurduğu nəzəri-davranış modelinə görə, yüksək kalorinin təqdim edildiyi mühitdə (restoranlarda və s.) insan beyni daha ləziz görünən, çox kalorili və sağlam olmayan qidaların pozitiv xüsusiyyətlərini önə çəkir, neqativ xüsusiyyətlərini isə görməzdən gəlir və bu yolla qeyri-sağlam qidalanmaya səbəb olur. S.Hüseynovun qurduğu model insanın emosiyalarını, beyin dalğalarını və göz hərəkətlərini də ölçməyi və bu yolla qida seçiminin neyro əsaslarını da araşdırmağı planlaşdırır.

Samir Hüseynov Bakıdakı 1 saylı fizika-riyaziyyat təmayüllü liseydə oxuyub, Prezident təqaüdçüsü olub, İqtisad Universitetinin xüsusi istedadlar qrupunda təhsilini bitirdikdən sonra Macarıstanda Mərkəzi Avropa Universitetində magistratura təhsili alıb. O, hazırda xaricdə təhsil üzrə 2007-2015-ci illər üzrə Dövlət Proqramı çərçivəsində Texas A&M Universitetində doktorantura təhsili alır.

# Yalnız ingilis dilində

## Danışıq Klubları xarici dildə ünsiyyət komplekslərini aradan qaldıracaq



"Danışıq klubları şagirdlərin nitq inkişafını sürətləndirəcək". Bu fikirləri Bakıdakı 20 nömrəli məktəb-liseydə ingilis dilində Danışıq Klubunun açılışı zamanı Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nümayəndəsi Səkinə Ağalarova səsləndirib. O bildirib ki, BŞTİ-nin tabeliyində olan 60 ümumi təhsil müəssisəsində ingilis dilində Danışıq Klubları fəaliyyətə başlayıb. İctimai əsaslarla məktəb daxilində fəaliyyət göstərəcək bu klubların yaradılmasında məqsəd müxtəlif yaş qruplarından olan şagirdlərin məktəbdə əldə etdikləri xarici dil biliklərini praktiki danışıq məşğələləri vasitəsilə daha da möhkəmləndirmək, məktəblilərin ingilis dilində fikirlərini düzgün və səlis ifadə etməsinə dəstək vermək, ünsiyyət vərdişlərini təkmilləşdirmək və xarici dildə ünsiyyət komplekslərini aradan qaldırmaqdan ibarətdir. Klubların səmərəli fəaliyyəti və ümumi təhsil məktəblərinə lazım olan dəstəyin göstərilməsi üçün paytaxtdakı pilot məktəblərin ingilis dili müəllimləri Bakı Şəhəri üzrə Təhsil İdarəsi və ABŞ-ın ölkəmizdəki səfirliyinin birgə əməkdaşlığı istiqamətində həyata keçirilən "Ümumi təhsil məktəblərində ingilis dilində Danışıq Klublarının yaradılması" layihəsi çərçivəsində təlimlərə cəlb olunub.

Səkinə Ağalarovanın sözlərinə görə, hazırda fəaliyyətdə olan Danışıq Klublarına təlimləri müvəffəqiyyətlə tamamlamış dil müəllimləri koordinatorluq edir: "Nəzərə çatdırım ki, aprel ayının əvvəllərindən başlayaraq paytaxtın bir neçə ümumtəhsil müəssisəsində bu klublar açılıb. Düşünürəm ki, belə klublar gələcəkdə digər məktəblərdə də fəaliyyət göstərəcək.

⇨Ardı səh.11

## Bu sayımızda


**SABAH qruplarına tələbə qəbulu elan olunub** ⇨səh.2

**UNEC-də ixrac üzrə mütəxəssislər hazırlanacaq** ⇨səh.3

**Z nəsli şagirdlər və biz** ⇨səh.5

**Art Onq Djumsai: "Təhsildə ümumbəşəri dəyərlər dünyamızı xilas edəcək"** ⇨səh.10

**Məşədiəlifağa Haqverdiyev: "Qazandığım hər bir qələbə inamımı daha da artırır"** ⇨səh.14

## RƏSMİ XRONİKA




- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinovu qəbul edib.
- Dövlət başçısı İlham Əliyev aprelin 20-də Sumqayıt şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev aprelin 19-da Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Dövlət başçısı İlham Əliyev aprelin 18-də Yevlax şəhərində çoxmənzilli yaşayış binasının tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Bolqarıstan Respublikasının sabiq Prezidenti Rosen Plevneliyevi qəbul edib.
- Aprelin 17-də Prezident İlham Əliyev Yevlaxda Aran Regional İnkişaf Mərkəzinin təqdimat mərasimində iştirak edib. Həmin gün dövlət başçısı İlham Əliyevin sədrliyi ilə Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsi keçirilib. Ölkə rəhbəri müşavirədə giriş və yekun nitqləri söyləyib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 16-17 aprel 2017-ci il tarixlərində Yevlax rayonunda səfərdə olub. Dövlət başçısı səfəri çərçivəsində aprelin 16-da bir sıra obyektlərin açılışında iştirak edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana Türkiyə Respublikasının Konstitusiyasına dəyişikliyi nəzərdə tutan ümumxalq səsverməsinin - referendumun müvəffəqiyyətlə başa çatması münasibətilə təbrik məktubu göndərib.
- Azərbaycan Prezidenti İlham Əliyev aprelin 14-də Bakıda keçirilən Qafqazşünasların Birinci Beynəlxalq Forumunun iştirakçılarına təbrik məktubu göndərib.

## Leyla Əliyevanın iştirakı ilə uşaqlar üçün əyləncə proqramı təşkil edilib

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə valideyn himayəsindən məhrum və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün növbəti tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Bakının 1, 2 və 3 saylı uşaq evlərinin sakinləri, eləcə də daun sindromlu uşaqlar bu dəfə asudə vaxtlarında sevimli “Smurfiki” animasiya filmini izləyiblər.

“CinemaPlus”da təşkil olunan nümayiş zamanı Leyla Əliyeva uşaqlarla görüşüb, onlarla birgə foto çəkdirib.

Filmi maraqla qarşılayan uşaqlara həmçinin “Smurfiki” filminə aid müxtəlif hədiyyələr verilib.

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mütəmadi olaraq valideyn himayəsindən məhrum, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla görüşür, onların təlim-tərbiyəsi ilə maraqlanır, uşaqlar və yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili üçün keçirilən müxtəlif tədbirlərdə və proqramlarda onlarla birgə olur.

## Bədii yaradıcılıq festivalının II Respublika mərhələsi üzrə seçimlər başa çatıb

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbə və şagirdləri arasında bədii yaradıcılıq festivalının II Respublika mərhələsi üzrə seçimlər başa çatıb. Seçimlər Bakı, Lənkəran və Gəncə şəhərlərində aparılıb.

Respublika mərhələsinin nəticələri elan olunduqdan sonra qaliblərin iştirakı ilə konsert proqramı keçiriləcək. Konsertdə incəsənətin müxtəlif janrları üzrə özfəaliyyət kollektivləri, dərnək və yaradıcılıq studiyalarında fəaliyyət göstərən ifaçılar, müğənnilər, rəqqaslar, bədii qiraətçilər, musiqiçilər çıxış edəcəklər.

Hər il ənənəvi olaraq təşkil edilən ali məktəb tələbələrinin bədii yaradıcılıq festivalının keçirilməsində məqsəd tələbələri milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə və milli adət-ənənələrimizə hörmət ruhunda tərbiyə etmək, eyni zamanda incəsənət sahəsindəki istedadlarını üzə çıxarmaq, inkişaf etdirməkdən ibarətdir.

Seçimlər xalq artistləri, əməkdar mədəniyyət və incəsənət xadimlərindən ibarət münsiflər heyəti tərəfindən aparılıb.

Müxtəlif nominasiyalar üzrə keçirilən festivalın qalibləri Təhsil Nazirliyinin və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin diplom və hədiyyələri ilə təltif olunacaqlar.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru ilə görüşüb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva aprelin 18-də İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçko ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Pyotr Qlıboçkonu salamlayan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti ilə qurulan əməkdaşlıqdan, bu təhsil ocağının Bakıdakı filialının fəaliyyətindən danışdı, filialın yaradılması ilə bağlı layihənin çox uğurlu olduğunu dedi.

Son illərdə ölkəmizin səhiyyə sistemində mühüm işlərin görüldüyünü, bu sahədə böyük nailiyyətlərin əldə olunduğunu vurğulayan Azərbaycanın Birinci vitse-prezidenti bildirdi ki, indi əsas vəzifə səhiyyə sistemində çalışanların peşəkarlığını daha da artırmaqdır. Mehriban Əliyeva bu baxımdan İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının fəaliyyətinin əhəmiyyətinə toxundu və burada təhsil alan tələbələrin gələcəkdə Azərbaycanın səhiyyə sisteminə töhfələr verəcəyinə əminliyini ifadə etdi.

“Təhsil və səhiyyə bütün ölkələrdə prioritet sahələrdir”, - deyən Azərbaycanın Birinci vitse-prezidenti ölkəmizdə bu sahələrə göstərilən dövlət qayğısını vurğuladı. Bu gün Azərbaycanda dünyanın aparıcı ali təhsil ocaqlarının filiallarının fəaliyyət göstərdiyini qeyd edən Mehriban Əliyeva İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti ilə əməkdaşlığı genişləndirmək üçün yaxşı perspektivlərin olduğunu bildirdi.

Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçko Azərbaycanın Birinci vitse-prezidenti ilə görüşməkdən məmnun olduğunu vurğuladı, bu ali təhsil ocağının Bakı filialının fəaliyyətinə verdiyi qiymətə görə minnətdarlığını bildirdi. Universitetin nüfuzlu professor və müəllim heyətinin Bakıdakı filialda tələbələrə dərs keçdiyini deyən Pyotr Qlıboçko filialda olduğunu, tələbələrlə görüşdüyünü və onların burada təhsil almaqdan məmnun qaldıqlarını diqqətə çatdırdı. Rektor bildirdi ki, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının çox müasir maddi-texniki bazası var. Pyotr Qlıboçko filialda III kursdan VI kursadək təhsil alan tələbələrin universitetdə strukturlaşmış imtahan verəcəklərini və bunun tələbələrin peşəkarlığının artırılması üçün böyük əhəmiyyət daşıdığını qeyd etdi.

Sonda qonaq Birinci vitse-prezident xanım Mehriban Əliyevaya xatirə hədiyyəsi təqdim etdi.

# SABAH qruplarına tələbə qəbulu elan olunub

## Bu il 748 savadlı, bacarıqlı, hazırlıqlı məzun mütəxəssis kimi əmək fəaliyyətinə başlayacaq

**Yusif ƏLİYEV**

SABAH qruplarına 2017-2018-ci tədris ili üçün tələbə qəbulu üzrə müsabiqə elan edilib.

Müsabiqədə Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisələrindən müəyyən edilmiş ixtisaslar üzrə I kursda əyani formada təhsil alan, I tədris ilinin I semestrinin nəticələrinə görə akademik borcu olmayan və orta müvəffəqiyyət göstəricisi 61-dən yüksək olan Azərbaycan vətəndaşları iştirak edə bilərlər.

Müsabiqənin 1-ci mərhələsində iştirak etmək üçün elektron ərizə doldurulmalıdır.

Qəbul üçün müraciət etmək istəyən tələbələrə elektron ərizə doldurmazdan əvvəl müvafiq “Təlimat”la və “SABAH qruplarına tələbələrin qəbulu Qaydaları” ilə tanış olmaq tövsiyə edilir.

Elektron ərizəni doldurmaq üçün http://sabah.edu.az/az/qeydiyyat/ saytına müraciət olunmalıdır.

Qeydiyyat üçün son tarix Bakı Mühəndislik Universiteti, Sumqayıt Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti, Mingəçevir Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Azərbaycan Milli Konservatoriyası üzrə aprelin 27-si, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Bakı Musiqi Akademiyası, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti üzrə isə mayın 7-dir.

Qeyd edək ki, SABAH qrupları Təhsil Nazirliyinin təşəbbüsü ilə 2014-2015-ci tədris ilində yaradılıb. Hənin il üçmərhələli müsabiqədən keçmiş 7 ali məktəb üzrə 688 tələbə bu qruplara qəbul olunub. Layihənin əsas məqsədi ali təhsil sahəsində davamlı, uzunmüddətli, hərtərəfli və əhatəli keyfiyyət dəyişikliklərinə nail olmaq üçün zəruri mühitin yaradılması, Azərbaycan gənclərinin fərdi və peşəkar inkişafına dəstək olmaq, dünyanın aparıcı universitetləri ilə əməkdaşlıq layihələri, elmi-tədqiqat, təcrübə və tələbə mübadilələrinin genişləndirilmsi və əmək bazarının artan tələblərinə uyğun olaraq savadlı, bacarıqlı və hazırlıqlı mütəxəssislərin yetişdirilməsidir.

Hazırda SABAH qruplarında 11 baza ali məktəbində 45 ixtisas üzrə 2300 tələbə təhsil alır. Onlarla müsabiqə yolu ilə seçilmiş müəllimlər tədris aparır. SABAH qruplarında təhsil alan tələbələrə SABAH təqaüdü verilir. 50 manat məbləğində olan bu təqaüdü ilk semestrdə bütün tələbələr alır. Növbəti semestrlərdə isə təqaüdçülər akademik göstəricilərə əsasən müəyyənləşdirilir və onlar 50 manat (həvəsləndirici) və 70 manat (əlaçı) məbləğində təqaüdlə təmin olunurlar. Ehtiyac duyan, xüsusən də regionlardan olan tələbələr pulsuz yataqxana ilə təmin olunurlar. Yataqxanada, həmçinin, gündə 3 dəfə pulsuz yemək verilir.

Bu il SABAH-ın ilk buraxılışı olacaq. 748 savadlı, bacarıqlı, hazırlıqlı məzun mütəxəssis kimi əmək fəaliyyətinə başlayacaq. İlk SABAH məzunlarının gələcək peşəkar inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və bu sahədə tələbələrə dəstək verilməsi məqsədilə SABAH Karyera Akademiyası yaradılıb. Akademiya proqramı peşəkar karyera, magistratura təhsili, sahibkarlıq, elmi araşdırma olmaqla 4 istiqaməti əhatə edir. Akademiya çərçivəsində bu il məzun olacaq SABAH qrupları tələbələrinin uğurlu karyera başlanğıcına və sahibkarlıq sahəsində fəaliyyətlərinə dəstək məqsədi ilə Qubada SABAH Karyera Qış Məktəbi layihəsi reallaşdırılıb, SABAH İnnovasiya Forumu keçirilib.

# 100 faizlik nəticə

## Diaqnostik qiymətləndirmədə 60 bal toplayanlar

⇦ Əvvəli səh.1

**Jalə MƏMMƏDLİ**



Xuraman HƏSƏNOVA



Şəhla ƏSGƏROVA



Mahmud MUSAYEV

Xuraman Həsənovanın fikrincə, diaqnostik qiymətləndirmədə müəllimlərin bilik və bacarıqlarının yoxlanılması onların peşəkar inkişafına dəstək olmaq və təhsilin keyfiyyətini yüksəltmək üçün çox əhəmiyyətlidir: “Müəllimlər fənnin məzmunu ilə bağlı biliklərini yeniləyir, müasir pedaqoji yanaşmaların tətbiqi yollarını öyrənir. Diaqnostik qiymətləndirmə yeni dərc olunmuş dərsliklərdəki yeniliklərlə tanış olmaq üçün müəllimlərdə məsuliyyət hissi oyadır”.

Bərdə şəhər R.N.Musayev adına İnteqrasiya təlimli internat tipli gimnaziyanın ingilis dili müəllimi Şəhla Əsgərova da maksimuma nail olandır: “Yaşlı nəslin nümayəndəsi olmağıma baxmayaraq, gecə-gündüz işləməyi, öz üzərimdə çalışmağı çox sevirəm. Nazirlik tərəfindən fəxri fərman almışdım. Bu mənim məsuliyyətimi daha da artırırdı. Mənim arzum idi ki, maksimum bal toplayım. Bunu qarşıma bir məqsəd qoymuşdum. Mən həyatımı kitaba bağlamışam. İmtahanın sonunda görəndə ki, 60 bal toplamışam, sevincimdən ağladım”.

Şəhla Əsgərova diaqnostik qiymətləndirmənin çox mükəmməl təşkil edildiyini deyir: “Diaqnostik qiymətləndirmə hər bir müəllim üçün vacibdir, önəmlidir. Hesab edirəm ki, kurikulumu yaxşı mənimsəməyən müəllim şagirdlərə mükəmməl təhsil verə bilməz. Diaqnostik qiymətləndirmə ərəfəsində bunu daha yaxşı mənimsəmiş olduq”.

Cəbrayıl şəhər 8 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi Mahmud Musayev də imtahana ciddi hazırlaşıb və 100 faizlik nəticə göstərib: “İstər kitablardan, istər internet resurslarından müxtəlif test nümunələrini oxuyurdum. Kurikulumun əsasları, müasir təlim metodları ilə maraqlanırdım. Diaqnostik qiymətləndirmə hər bir müəllim üçün bir fürsətdir. Bizim müəllimlərimizin hər biri imtahanda fəallıq göstərirdilər. Müəllim hər zaman öz üzərində işləməlidir”.

# Təhsil naziri Yardımlı şəhərində vətəndaşları qəbul edib

Aprelin 17-də təhsil naziri Mikayıl Cabbarov Yardımlı şəhərindəki Heydər Əliyev Mərkəzində Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı və Cəlilabad rayon sakinlərini qəbul edib.

Qəbuldan əvvəl təhsil naziri Mikayıl Cabbarov və Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2017-ci ilin aprel ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı və Cəlilabad rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Qəbulda vətəndaşlar əsasən, müəllimlərin işə qəbulu və ya iş yerinin bir məktəbdən, həmçinin bir rayondan digərinə dəyişdirilməsi, gənc müəllimlər üçün həvəsləndirmə tədbirlərinin tətbiqi, təhsil haqqından azad olunma, müəllim əməyinin qiymətləndirilməsi və digər məsələlərlə əlaqədar müraciət ediblər.

Qəbulda vətəndaşların müraciəti dinlənilib, əksər məsələlər yerindəcə həllini tapıb. Bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib.

## Professor Nərgiz Paşayeva "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı"na layiq görülüb

Azərbaycan Milli Elmlər Akademiyası rəyasət heyətinin aprelin 19-da keçirilmiş iclasında "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" müsabiqəsinin nəticələri elan edilib.

AZƏRTAC xəbər verir ki, müsabiqənin nəticələrinə əsasən, müstəqillik illərində Azərbaycanda elm və təhsil sahəsində həyata keçirilmiş mühüm beynəlxalq layihə olan Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin yaradılması və səmərəli fəaliyyətinin təmin edilməsindəki müstəsna xidmətlərinə görə AMEA-nın müxbir üzvü Nərgiz Paşayeva "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı"na layiq görülüb.

Həmçinin Azərbaycanın mədəni və tarixi irsinin dünya miqyasında elmi əsaslarla öyrənilməsinə verdiyi xüsusi dəstəyə görə Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin İngiltərə tərəfdən rəhbəri, professor Robert Hoyland "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı"na layiq görülüb.

Mükafatlar AMEA-nın aprelin 28-də keçiriləcək ümumi yığıncağında sahiblərinə təqdim olunacaq.

# UNEC-də ixrac üzrə mütəxəssislər hazırlanacaq

## Prezidentin göstərişlərinin həyata keçirilməsi istiqamətində ilk addımların atılmasına başlanıb

**Yusif ƏLİYEV**

Kadr hazırlığını daim dəyişən bazarın tələblərinə uyğunlaşdırmaq ali təhsilin qarşısında hər zaman prioritet məsələ kimi durur. Ölkəmizdə qeyri-neft sektorunda inkişaf getdiyi, dövlət başçısının rəhbərliyi altında bu istiqamətdə məqsədyönlü addımlar atıldığı hazırkı şəraitdə isə bu məsələ xüsusilə aktuallıq kəsb edir. Qeyri-neft sektoru inkişaf etdikcə, istehsal artdıqca adekvat olaraq ixrac potensialı da yüksəlir və məhsulun reallaşdırılması üçün müvafiq bazarların axtarışı zərurətə çevrilir. Bütün bunlar isə qeyri-neft sektorunda, xüsusən də ixrac sahəsində çalışacaq mütəxəssislərin daha çevik şəkildə hazırlanmasını gündəmə gətirir. Məsələnin aktuallığı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə aprelin 17-də Yevlaxda keçirilən qeyri-neft ixracatçılarının respublika müşavirəsində də xüsusi vurğulanıb.

Prezident İlham Əliyev müşavirədəki yekun nitqində qeyri-neft sektoru üçün kadr hazırlığı məsələsinə toxunaraq bu işə xüsusi diqqət göstərilməsi tapşırığını verib. "Biz ixrac üzrə mütəxəssislər hazırlamalıyıq" -deyən dövlət başçısı həm bu sahədə mütəxəssislər qıtlığına bir növ mesaj verib, həm də bu işə başlamağı bir vəzifə olaraq qarşıya qoyub. Prezident vurğulayıb ki, "Ümumiyyətlə, kadr hazırlığı indi qarşımızda duran ən vacib məsələlərdən biridir. Çünki ölkə inkişaf edir, yeni müəssisələr yaradılır və bu müəssisələrdə fəaliyyət göstərən kadrlar hazırlıqlı olmalıdır". Xüsusilə ixracyönümlü müəssisələrdə hazırlıqlı kadrların təliminin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdıran ölkə rəhbəri müvafiq dövlət orqanlarının bu işdə fəallıq göstərməli olduğunu bildirib.

Qeyd edək ki, dövlət başçısının bu göstərişlərinin həyata keçirilməsi üçün artıq ilk addımların atılmasına başlanıb. Belə ki, bu günlərdə ölkəmizdə ən böyük iqtisadyönümlü kadrlar hazırlığını həyata keçirən Azərbaycan Dövlət İqtisad Universitetində müşavirədən irəli gələn məsələlərə həsr olunmuş toplantı keçirilib. Toplantıda dövlət başçısının müşavirədə kadr hazırlığı ilə bağlı verdiyi tapşırıqların icrası istiqamətində görüləcək işlər barədə geniş müzakirə aparılıb.

Qeyri-neft sektorunun inkişafının ölkə iqtisadiyyatına verəcəyi faydalardan danışan rektor, professor Ədalət Muradov bu sahədə dövlət strategiyasına, Azərbaycan Prezidenti İlham Əliyevin qarşıya qoyduğu hədəflərə və ixracyönümlü müəssisələrin sahibkarlarına universitet səviyyəsində dəstəyin göstəriləcəyini vurğulayıb.

Müzakirələrdə alimlər qeyri-neft ixracının stimullaşdırılmasına dair mövqelərini bildiriblər, UNEC-də ixrac üzrə mütəxəssislərin hazırlanmasına dair təkliflər irəli sürülüb və təhlil edilib. Toplantı iştirakçıları qeyri-neft məhsullarının ixracı istiqamətində fəaliyyətləri özündə cəmləşdirəcək mərkəzin yaradılması təklifini müsbət dəyərləndiriblər. Ticarət və gömrük işinin təşkili kafedrasının nəzdində fəaliyyət göstərəcək mərkəzin əsas işi ölkədə neftdənkənar sahələrin inkişaf etdirilməsi, ixrac potensialının artırılmasına dəstək verəcək təkliflərin irəli sürülməsi olacaq.

İqtisadiyyatın bu sahəsi üçün kadr hazırlığını təmin etmək məqsədilə universitetdə ixracyönümlü tədris planlarına yer ayrılması da toplantıda xüsusi qeyd edilib. İxracatçılara universitetin metodiki dəstək göstərməsinin əhəmiyyəti vurğulanıb və bu istiqamətdə əməkdaşlıq prinsiplərinin hazırlanması nəzərdə tutulub. İxrac mövzusunda tədqiqatların aparılması, dissertasiya işlərində bu mövzulara diqqətin artırılması təklifi də müsbət dəyərləndirilib. Magistratura Mərkəzində, UNEC Biznes Məktəbində, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzində bu sahə üzrə mütəxəssislərin hazırlanması, bunun üçün yeni ixtisasların yaradılması, İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunda genişmiqyaslı tədqiqatların aparılması, ixracatçı şirkətlərə dəstək məqsədilə beynəlxalq bazarların araşdırılması işinin təşkili ilə bağlı qərarlar verilib. Rektorun göstərişi ilə ixracatçılara dəstək işinə xarici bazarların araşdırılmasında həmin ölkələrin nüfuzlu ali məktəblərinin məzunu olan UNEC müəllimlərinin, eyni zamanda ikili diplom proqramları əsasında xarici universitetlərdə tədrisini davam etdirən tələbələrin də cəlb edilməsi nəzərdə tutulub.

Tədbirdə habelə ixracatçı şirkətlərin nümayəndələrinin universitetə dəvət edilərək onlarla "dəyirmi masa"ların keçirilməsi də qərara alınıb.

# Elektron imza Elektron hökumətin vacib atributu kimi

**Şakir CƏFƏROV**

Aprelin 18-də Azərbaycan Texniki Universitetində "Elektron imza İnformasiya Cəmiyyətinin (Elektron hökumətin) vacib atributudur: Elektron imza tətbiqinin üstünlükləri və aktual problemləri" mövzusunda Respublika elmi-praktik konfransı keçirilib. İştirakçılar əvvəlcə ulu öndər Heydər Əliyevin universitetdəki büstü önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.

Konfransı giriş sözü ilə açıq elan edən AzTU-nun rektor əvəzi Xalıq Yahudov bildirib ki, "Elektron imza İnformasiya Cəmiyyətinin (Elektron hökumətin) vacib atributudur: Elektron imza tətbiqinin üstünlükləri və aktual problemləri" mövzusunda elmi toplantı Azərbaycanda ilk dəfədir ki, reallaşdırılıb. Rektor əvəzi ulu öndərin dövlətçilik və güclü Azərbaycan modelinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinə və bunun bariz nümunəsi olaraq bu gün ölkədə "Asan imza" brendinin geniş vüsət aldığına diqqət çəkib. Qeyd edib ki, "Asan imza"dan istifadə insanlara vaxt itkisinin qarşısını almaqla yanaşı məmur-vətəndaş əlaqəsinin kəsilməsi yolu ilə neqativ halların aradan qaldırılmasına da geniş imkan yaradır. Bu baxımdan elektron imzanı informasiya cəmiyyətinin ən vacib atributu adlandıran Xalıq Yahudov bu sahədə olan çətinliklərin aradan qaldırılmasında konfransın böyük əhəmiyyət kəsb etdiyini qreyd edib.

Konfransın plenar iclasının çıxışçısı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin şöbə müdiri İsbəndiyar Əliyev "Azərbaycanda elektron hökumət: mövcud vəziyyət və inkişaf perspektivləri" adlı məruzəsində bu sahədə tərəqqi üçün konkret hədəflərin müəyyən olunmasının vacibliyinə diqqət çəkib.

Təhsil Nazirliyinin sektor müdiri Gültəkin Hüseynova, Dövlət Gömrük Komitəsinin idarə rəisi, Layihələrin idarə edilməsi Assosiasiyasının prezidenti, general-mayor İqbal Babayev və "Multimediya" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz də çıxışlarında "Elektron hökumət"in qısa zamanda böyük nailiyyətlər qazandığını qeyd ediblər.

Ertəsi gün konfransın işi bölmə iclaslarında davam etdirilib. Ölkədə Elektron hökumətə olan dövlət qayğısı və qısa zaman ərzində bu sahədə peşəkar kadrların yetişməsi, elmi potensialın yüksək səviyyəyə çatdırılması bölmə iclaslarında məruzəçilərin aktiv çıxışları ilə özünü göstərib.

Konfrans çərçivəsində bir araya gələn elm adamları gələcəkdə "Açıq hökumət"in qurulması üçün artıq bazanın formalaşdırıldığını və bunun üçün vacib olan prosedurların nəzəri və təcrübi cəhətdən tətbiqinə başlanılması məsələsini də müzakirə ediblər.

# Təhsil nazirinin müavini Moskvada səfərdə olub



Təhsil nazirinin müavini Firudin Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti Moskvada işgüzar səfərdə olub.

Təhsil nazirinin müavini Firudin Qurbanov Rusiya Federasiyasının təhsil və elm nazirinin müavini Pavel Zenkoviçlə görüşüb, təhsil sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Səfər çərçivəsində nümayəndə heyəti Beynəlxalq Təhsil Salonunu gəzərək təhsil sahəsində aparıcı texnologiyaların və təcrübələrin nümayiş edildiyi stendlərlə tanış olub. Salonu ziyarət zamanı nazir müavini Firudin Qurbanov YUNESKO-nun Baş direktorunun təhsil üzrə müavini Qian Tanqla işçi görüş keçirib.

Sərgi çərçivəsində Azərbaycan Texnologiya Universiteti ilə Rusiya Xalqlar Dostluğu Universitetinin birgə təşkil etdiyi stendə də baxış keçirilib.

Nümayəndə heyəti həmçinin, Azərbaycan diasporasının Rusiyadakı nümayəndələri ilə görüşüb. Görüşdə Azərbaycan Texnologiya Universiteti ilə Rusiya Xalqlar Dostluğu Universitetinin əməkdaşlığının əsas məqsədləri və bundan yaranan yeni imkanlar barəsində məlumat verilib.

# Birinci Fransa-Azərbaycan İş və Karyera Sərgisi keçirilib

Aprelin 15-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) nəzdində fəaliyyət göstərən Fransa-Azərbaycan Universitetində (UFAZ) Birinci Fransa-Azərbaycan İş və Karyera sərgisi keçirilib.

Fransanın ölkəmizdəki səfirliyinin, Azərbaycandakı Fransız İnstitutunun, "Campus Fransa Azərbaycan"ın təşkilatçılığı və UFAZ-ın dəstəyi ilə keçirilən sərgidə Fransa və Azərbaycandan 16 şirkət iştirak edib.

Sərgidən öncə keçirilən mətbuat konfransında Fransanın Azərbaycandakı səfiri Orelia Buşez çıxış edərək tədbirin iki ölkə arasında əlaqələrə böyük töhfə verəcəyini bildirib. ADNSU-nun nəzdində yaradılan Fransa-Azərbaycan Universiteti (UFAZ) haqqında danışan xanım səfir burada 141 tələbənin təhsil aldığını və gələcəkdə bu rəqəmin 300-ə çatdırılacağını deyib.

Fransada təhsil alan azərbaycanlı tələbələrin hazırda yüksək vəzifələrdə çalışdığını qeyd edən Orelia Buşez sərginin Fransa şirkətləri ilə azərbaycanlı məzunlar arasında bir ünsiyyət vasitəsinə çevriləcəyini vurğulayıb.

UFAZ-ı iki ölkə arasındakı münasibətlərin nəticəsi kimi qiymətləndirən ADNSU-nun rektoru, professor Mustafa Babanlı bu layihənin həyata keçirilməsində əməyi keçən hər kəsə öz minnətdarlığını bildirib. Fransa universitetlərinin məzunu olan azərbaycanlı tələbələrin 94%-nin işlə təmin olunmasını Fransadakı yüksək təhsil sistemi ilə əlaqələndirən rektor M.Babanlı UFAZ tələbələrinin də gələcəkdə işlə təmin olunmasında heç bir problemin olmayacağına inandığını bildirib. Fransa universitetlərinin məzunlarının UFAZ tələbələri ilə mütəmadi görüşlərinin keçirilməsini təklif edən rektor, professor Mustafa Babanlı bunun gənclərə böyük stimul verəcəyini söyləyib.

Rektor M.Babanlı artıq bir çox xarici ali məktəbin UFAZ-la yaxından maraqlandığını və bu təcrübəni öz universitetlərində tətbiq etmək istədiklərini dilə gətirib.

"Total" şirkətinin prezidenti Döni Lömarşal UFAZ layihəsinin daha böyük uğurlar qazanacağına inandığını bildirib. Təmsil etdiyi şirkətin dünyanın 130 ölkəsində fəaliyyət göstərdiyini qeyd edən Döni Lömarşal "Total"ın təhsilə böyük önəm verdiyini və tələbələrə təqaüd proqramları təklif etdiyini deyib. "Total" şirkətinin indiyədək 44 azərbaycanlı tələbəni Fransaya təhsil almağa göndərdiyini deyən Döni Lömarşal Fransa universitetləri məzunlarının əksəriyyətinin hazırda müxtəlif böyük şirkətlərdə çalışdıqlarını bildirib.

Birinci Fransa-Azərbaycan İş və Karyera sərgisinin önəmini qeyd edən Fransa-Azərbaycan Ticarət və Sənaye Palatasının direktoru Nərminə Səfərova, "Cointeg" şirkətinin direktoru Ramin Məmmədov rəhbərlik etdikləri qurumlar haqqında məlumat verib, bu cür tədbirlərin Fransa-Azərbaycan əlaqələrinə böyük töhfə verəcəyini diqqətə çatdırıblar.

# Fizikaya müasir baxış

Bakı Dövlət Universitetində "Fizikaya müasir baxış" adlı beynəlxalq elmi konfrans öz işinə başlayıb. Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Rusiyanın Birləşmiş Nüvə Tədqiqatları İnstitutu, Avstriyanın STAR-NET -Nüvə texologiyaları sahəsində təhsil və mütəxəssislərin hazırlığı Regional şəbəkəsi və Roma Sapienza Universitetinin birgə təşkilatçılığı ilə keçirilən konfransın plenar iclasını BDU-nun rektoru, akademik Abel Məhərrəmov açaraq onun işinə uğurlar arzulayıb. Bildirib ki, respublika ali təhsil müəssisələri və elmi təşkilatlarının nümayəndələri ilə yanaşı Rusiya, İtaliya, Yaponiya, Polşa, Türkiyə, Pakistan, İran, Braziliya, Gürcüstan və digər ölkələrin qabaqcıl universitetlərinin, elmi-tədqiqat institutları alimlərinin də iştirak etdiyi konfrans işini bölmə iclaslarında davam etdirəcək və maraqlı stend məruzələr təqdim ediləcək.

Rusiyanın Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktor müavini Aleksandır Ruzayev, Ankara Universiteti fizika fakültəsinin dekanı, professor İman Əsgərzadə, Yaponiyanın Hirosima Universitetinin professoru Tomohiro İnagaki, Polşanın Lyublin Universitetinin professoru Miroslav Kulik, Ali Attestasiya Komissiyasının sədr əvəzi, AMEA-nın müxbir üzvü Vəli Hüseynov, Pakistanın Komsats İnstitutunun professoru Arşad Salim Bhathi də çıxış edərək konfransın işinə uğurlar arzulayıblar.

Sonra konfrans işini Nanotexnologiyalar və materialşünaslıq, Optonano elektronika, Nəzəri, riyazi və yüksək enerjilər fizikası, Bioloji və tibbi fizika, Kondensləşmiş mühitlər fizikası, Astrofizika bölmələrində davam etdirib. İki gün davam edəcək konfransda 130-dək məruzə dinləniləcək.

Qeyd edək ki, konfransın nəticələrinə görə Azərbaycan və rus dillərində olan məqalələr "Bakı Dövlət Universitetinin xəbərləri" və Bakı Mühəndislik Universitetinin elmi jurnallarında çap olunacaq. İngilis dilində olan və məzmununa görə xüsusi fərqlənən bir sıra məqalələrin Thomson Reuters agentliyinin siyahısına daxil olan indekslənən jurnallarda çap olunması da nəzərdə tutulub.

## Beynəlxalq təhlükəsizliyə dair yeni dərslik




Aprelin 20-də Azərbaycan Dillər Universitetində (ADU) universitetin beynəlxalq münasibətlər kafedrasının müəlliflər kollektivi tərəfindən hazırlanan “Beynəlxalq təhlükəsizlik” adlı dərsliyin təqdimetmə mərasimi keçirilib.

Öncə çıxış edən regionşünaslıq və beynəlxalq münasibətlər fakültəsinin dekanı, kitabın elmi redaktoru, dosent Samir Həmidov dünyanın aparıcı universitetlərinin təcrübəsindən yararlanaraq hazırlanan kitab haqqında qonaqlara məlumat verib. O, Azərbaycanda və regionda ilk dəfə olaraq beynəlxalq təhlükəsizliyin ümumi-nəzəri və regional problemlərinin kompleks şəkildə, sistemli olaraq dərindən təhlil edildiyini və öyrənildiyini diqqətə çatdırıb. Beynəlxalq təhlükəsizliklə bağlı bütün məlumatların kitabda əks olunduğunu deyən S.Həmidov istifadə olunmuş anlayış və terminlərin tam olaraq izah edildiyini qeyd edib. O, milli maraqların əsas götürüldüyü dərsliyin üz qabığı ilə məzmununun bir-birini tamamladığını söyləyib.

ADU-nun rektoru vəzifəsini icra edən professor Əfqan Abdullayev kitab yazmağın vacibliyini vurğulayaraq bu təqdimatın ən gözəl təqdimetmə mərasimi olduğunu bildirib. Son 10 ildə kitab nəşrinə görə İnkişaf Etməkdə Olan Ölkələrin (İEOÖ) İnkişaf Etmiş Ölkələrdən (İEÖ) ön sırada qərar tutduğunu diqqətə çatdıran professor kitab nəşrinə diqqət ayırmağın əhəmiyyətindən söz açıb.

Milli Məclisin deputatı, professor Elman Nəsirov kitabın ərsəyə gəlməsinin professor Ə.Abdullayevin birbaşa dəstəyinin nəticəsi olduğunu diqqətə çatdırıb. O, kitabın adının dəqiqliklə seçildiyini bildirib. Millət vəkili ictimai-siyasi sabitlik, təhlükəsizlik və davamlı inkişafın bir-biri ilə sıx əlaqədə olduğunu söyləyib. Professor təhlükəsizliklə bağlı məlumatları kompleks şəkildə özündə əks etdirən kitabın həm tələbələr, həm də müəllimlər üçün faydalı olacağına əminliyini ifadə edib.

Milli Məclisin deputatı Fazil Mustafa universiteti elm ocağına çevirməyin vacibliyini söyləyib, kitabın ərsəyə gəlməsində əməyi keçən hər kəsə təşəkkürünü bildirib və uğurlar arzulayıb.

AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı Musa Qasımlı ADU-da daim demokratik mühitin hökm sürdüyünü diqqətə çatdırıb. O, beynəlxalq təhlükəsizliklə bağlı nəşr olunmuş kitabın digər kafedralara da örnək olacağını və onlara stimul verəcəyini sözlərinə əlavə edib.

Milli Məclisin deputatı Sahib Alıyev çıxışında böyük və kiçik dövlətlər arasında təhlükəsizliklə bağlı yanaşmalarda müxtəlif fərqlərin olduğunu vurğulayıb. Bu mövzuda ana dilində yazılan kitablara ehtiyac duyulduğunu söyləyən S.Alıyev dərsliyin yazılmasını təqdirəlayiq hal kimi qiymətləndirib.

ADU-nun İctimai Nəzarət Şurasının sədri, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev yeniliklərə daima dəstək verdiyi üçün professor Ə.Abdullayevə təşəkkür edib. O, kitabın dizayn və struktur baxımından da fərqləndiyini diqqətə çatdırıb, dərsliyin tələbələrin biliklərini dərinləşdirəcəyinə inamını ifadə edib.

ADU-nun İctimai Nəzarət Şurasının üzvü, təhsil eksperti, “XXI əsr” Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev elektron resurslardan əldə olunan məlumatdan daha çox kitablardan bilik əldə etməyin üstünlüyünü deyib, “Beynəlxalq təhlükəsizlik” adlı dərsliyin seçilən kitablar sırasında olacağını vurğulayıb.

ADU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Jalə Qəribova kitabın tələbələrə biliyi yeni formatda təqdimetmə xüsusiyyətinə malik olduğunu xatırladaraq onun əhəmiyyətlilik dərəcəsindən söz açıb.

## Xalqımızın daş yaddaşı: memarlıq abidələri

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) “Azərbaycan memarlıq irsinin qorunması və istifadəsi” mövzusunda elmi-praktik konfrans keçirilib. Konfrans iştirakçıları əvvəlcə universitetin foyesində memarlıq abidələrimizə həsr olunmuş fotosərgi ilə tanış olublar. Qeyd edək ki, sərgidə hazırda işğal altında olan rayonlarımızda erməni vandalizminin qurbanı olan memarlıq abidələrimizin fotoşəkilləri də yer alıb.

AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova iştirakçıları salamlayıb, konfransın işində onlara uğurlar arzulayıb. G.Məmmədova tədbirdə iştirak edən Milan Politexnik Universitetinin nümayəndələrini konfransda görməkdən şad olduğunu deyib, universitetlər arasında əməkdaşlıqdan söz açıb.

Rektor konfransın mövzusunun aktuallığını və əhəmiyyətini də diqqətə çatdırıb. O bildirib ki, Azərbaycanın zəngin abidələr irsi var və onlar üzərində aparılan tədqiqatlar, yazılan çoxsaylı məqalələr, kitablar mövzunun aktual olduğunu bir daha sübut edir. “Bu bir reallıqdır ki, abidələr münaqişələr, müharibələr nəticəsində ağır fəsadlara uğrayır, dağılır, sıradan çıxır. Hazırda Azərbaycanın işğal altında olan torpaqlarında memarlıq abidələri məhv edilir, erməni qəsbkarları qədim alban abidələrinin üzərində erməniləşdirmə siyasəti həyata keçirirlər. Bu da tariximizə çox böyük zərbə vurur”.

AzMİU-nun memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının müdiri, memarlıq doktoru Səbinə Hacıyeva “Qarabağ memarlığının inciləri- Xudavəng və Gəncəsər” mövzusunda məruzə edərək, Xudavəng və Gəncəsər abidələrinin tarixindən, bugünkü real vəziyyətindən söz açıb. Qeyd edilib ki, işğal altında olan hər iki alban abidəsinin ermənilər tərəfindən 1997-2007-ci illərdə restavrasiya və konservasiyası aparılan zaman alban abidələrinə xas xüsusiyyətlər dəyişdirilib və məhv edilib.

Milan Politexnik Universitetinin dosenti, memarlıq üzrə fəlsəfə doktoru Nora Lombardini İtaliyada abidələrin bərpası istiqamətində, tarixi və müasir binalarda aparılan restavrasiya və konservasiya işlərindən söz açıb, tələbə memarların bu işlərə cəlb edilməsinin əhəmiyyətini vurğulayıb.

“İrimiqyaslı infrastruktur layihələri zamanı arxeoloji abidələrin qorunması” mövzusunda məruzə edən AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Qoşqar Qoşqarlı tikinti işləri zamanı abidələrin qorunmasının vacibliyinə diqqət çəkib.

Konfransda “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunun direktoru, tarix üzrə fəlsəfə doktoru Məlahət Fərəcova, “Azərbərpa” Elmi-Tədqiqat Layihə İnstitutunun direktoru Telman Kərimli, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdirləri, tarix üzrə fəlsəfə doktoru Təvəkkül Əliyev, Səfər Aşurov və başqaları maraqlı məruzələrlə çıxış ediblər.

# Ali təhsil müəssisələri strateji seçim qarşısında

## Milli təhsil sistemimizdə biliyə, innovasiyaya əsaslanan universitetlər yer almalıdır

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Həmin standarta görə ali təhsil müəssisəsi təhsilalanlarda müasir tələblərə və şəraitə uyğunlaşmağı, rəqabət qabiliyyətli olmağı, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərməyi, ünsiyyət yaratmağı formalaşdırmalıdır. Ali təhsil alan öz üzərinə məsuliyyət götürə bilməli, kollegial qərarların qəbulunda, demokratik təsisatların fəaliyyətində və inkişafında iştirak etmək keyfiyyətlərinə malik müstəqil, yaradıcı şəxsiyyət və vətəndaş olmalıdır. Təhsilalanların fasiləsiz təhsil almasını, daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə yiyələnməsini, cəmiyyətin tələbatının daha səmərəli ödənilməsini, şəxsiyyət kimi inkişaf etməsini və ömür boyu təhsilin hamı üçün açıq və bərabərimkanlı olmasını təmin etməlidir. Ali təhsil müəssisəsi cəmiyyətin yüksək səviyyəli və rəqabətqabiliyyətli kadr potensialına tələbatının ödənilməsi üçün real zəmin yaratmalıdır. Ən əsası, təhsil müəssisəsində tədris prosesinin təhsilalanların və təhsilverənlərin insan ləyaqətinə hörmət etməsi əsasında qurulması təmin edilməli və təhsilalana qarşı hər hansı fiziki və psixoloji zorakılığa yol verilməməlidir.

Ölkə ali təhsil müəssisələri arasında bu tələblərə cavab verənlər olsa da, beynəlxalq standartlara uyğun bir təhsil ocağına çevrilmək üçün bunlar kifayət etmir. Nədən başlamaq lazımdır ki, həmin standartlara cavab verən səviyyəyə çataq?

### ... öz hüdudlarını aşmalıdır

Təhsil naziri Mikayıl Cabbarovun fikrincə, bu məsələdə, ilk növbədə, ali məktəb rəhbərlərinin üzərinə böyük iş düşür. Universitetlər öz coğrafi hüdudlarını aşmalı, tanınmış, nüfuzlu brendə malik ali təhsil müəssisəsi olaraq digər ölkələrin bazarlarında fəaliyyətini genişləndirməlidirlər. Bu məqsədlə artıq ilk addım atanlar da var. Azərbaycan Dövlət İqtisad Universiteti özünün UNEC brendini yaradıb və ictimaiyyətə təqdim edib. Bundan sonra qalır həmin brendlə dünya bazarında təmsil olunmaq. Bu da müxtəlif formalarda ola bilər. Distant təhsil proqramları həyata keçirə, başqa ölkələrdə filial aça bilərlər. Hətta birgə universitetlərin yaradılması da mümkün variantlardandır.

### ... və beynəlxalq bazara çıxışda ilk əngəl

Ancaq bu prosesə başlamadan öncə milli təhsil müəssisələrində bir sıra amillərə diqqət yetirilməlidir.

Hər bir ali təhsil müəssisəsinin uğurlu fəaliyyəti üçün ən əsas amillər daxili mühit, idarəetmə və insan kapitalının keyfiyyətidir ki, bunlar olmadan dünya bazarına nə çıxmaq, nə də uğur qazanmaq mümkündür. Təbii ki, burada professor-müəllim heyəti, tələbələrin bilik səviyyəsi, bundan da vacib şərt motivasiya, zəngin maddi-texniki bazadır.

Ancaq təəssüf ki, elə ilk sadalamada bir əngəl ortaya çıxır. Belə ki, beynəlxalq standartlara uyğun təhsil müəssisələri ilə milli ali təhsil sisteminə daxil olan ali təhsil müəssisələri arasındakı fərq ilk növbədə formalaşmış mühitdədir. Köhnə ənənələrdən, vərdişlərdən və qaydalardan imtina etməyin vaxtı çatsa da, bu məsələdə ciddi dəyişiklik nəzərə çarpmır. Mane olan səbəblər arasında dəyişmək istəməyən universitet rəhbərləri faktoru diqqət çəkir. Onlar köhnə qaydada idarə etmək, vərdiş etdikləri vəziyyətə davam etmək istəyirlər.

Təhsil üzrə ekspert, professor Əjdər Ağayev hesab edir ki, Azərbaycanda təhsil müəssisələri hazırladıqları kadrların elmi səviyyəsi ilə heç bir inkişaf etmiş ölkədən geri qalmır. Ancaq əksəriyyətində təhsil üçün sosial mühit yetərli deyil. Səbəbi çox sadədir: “Məsələn, Bakı Mühəndislik Universitetində mövcud olan güvən və şəffaflığa əsaslanan mühiti bir çox universitet formalaşdıra bilmir. Çünki bunun üçün tətbiq etdikləri metodika yanlışdır. Cəza, qadağa və başqa yanlış üsullarla sağlam mühit yaratmaq olmaz. Qəyyumluğu tamamilə aradan qaldırmadan, tələbələrin özünə deyil, yaxınlarına güvənməsinin və formal qiymətlərə üstünlük verməsinin qarşısını almadan həmin sağlam mühiti formalaşdırmaq mümkün olmayacaq”.

### Kadr rəqabətədavamlı...

Azərbaycan təhsil sisteminin əsas məqsədlərindən biri yetişdirilən kadrların əmək bazarında rəqabətliliyinin artırılmasıdır. Ali təhsil sistemində həyata keçirilən siyasət son illərə qədər bu reallığı ya tanımır, ya da ali təhsil siyasətində kifayət qədər əks etdirmirdi. Lakin son illərdə bir çox məsələdə olduğu kimi, burada da istiqamət dəyişib. Artıq ali təhsil müəssisələrinin güclü rəqabət imkanına malik, müasir idarəetmə prinsipinə əsaslanan fəaliyyətinə diqqət artırılıb. Bu məsələdə hər hansı səhv istiqamət məqsəddən uzaqlaşmaq demək olar. Ona görə də ali məktəb rəhbərləri əsaslanmalı olduqları prinsipləri düzgün müəyyənləşdirməlidir.

Təhsil naziri Mikayıl Cabbarov güclü rəqabət imkanlarını ali təhsil ocaqlarını xarakterizə edən başlıca şərt hesab edir: “Ali təhsil müəssisəsini seçərkən hər kəs özünün peşəkar inkişafını, gələcəyini, karyera uğurunu ön plana çəkir. Hər tələbədən təhsil alacağı ali məktəbi seçərkən ümummilli və dövlət maraqları prizmasından yanaşacağını gözləmək səhv gözlənti olar. Bu da o deməkdir ki, ali təhsil sistemindəki milli universitetlərimiz öz strateji məqsədlərini müəyyənləşdirərkən bu böyük mənzərəni nəzərə almalı, strateji seçimlərini buna uyğunlaşdırmalıdır. Fəaliyyətdə olan hər hansı ali məktəb müasir idarəetmə prinsiplərinə əsaslanmalı, milli ali təhsil sisteminin uzunmüddətli qorunub saxlanması başlıca meyar kimi qeyd edilməlidir”.

### ... təhsil əlçatan olmalıdır

Azərbaycan təhsilində daha bir reallıq. Xaricdən gələn tələbələrin böyük bir faizi ingilis dili səviyyəsinə görə tələbə adı qazanaraq Azərbaycana gəlir. Elə təhsil almaq üçün ölkəmizdən xaricə kimin gedəcəyinə qərar verərkən də namizədlərin ingilis dilindən səviyyəsinə böyük önəm verilir. Maraqlıdır ki, bu böyük reallığa baxmayaraq, indiyədək ingilis dilini peşəkar səviyyədə bilən şagirdin milli ali təhsilə çıxışı məhz ümumi imtahanın nəticəsindən asılı olub. Təbii ki, milli ali təhsil sisteminə daxil olan ali təhsil müəssisələrində özünə yer tapa bilməyənlər çarəni xaricdə, daha əlçatan ali məktəblərdə axtarıblar. Beləliklə, qəbul imtahanlarında uğur qazanmayanlar təhsilini ən yaxşı halda başqa ölkələrdə davam etdirib. Bu da xarici ölkələrə tələbə axınına təkan verən başlıca səbəblərdən biri olub.

Göründüyü kimi, bir sərt qayda həm ali təhsilin kütləviləşməsinə mane olub, həm də əlçatanlığına. Ziyan çəkən isə məhz ali təhsil sistemimizdir. Yəni bu qaydanın tətbiqi nəticəsində kifayət qədər yüksək, o cümlədən xarici dil, bir az fərqli təhsil prizmasında düşüncə üslubuna malik olan, problemlərin həlli, daha kreativ düşüncə keyfiyyətlərini özündə əxz edən abituriyentlər faktiki olaraq ali təhsildən təcrid edilib.

Lakin bu istiqamətdə bir sıra islahatlar həyata keçirilməyə başlanıb. Bu cür faktları nəzərə alan Təhsil Nazirliyinin həyata keçirdiyi islahatdan sonra ingilis dilini peşəkar səviyyədə, yaxud tədris dili kimi bilən abituriyentlərə SAT, TOEFL, İELTS imtahanları ilə ali təhsil sisteminə giriş imkanı yaradılıb.

Bir çox universitetin kontekstində bir sıra ixtisaslarda qəbul üçün zəruri olan minimal bal qaldırılıb. Beləliklə, bir tərəfdən təhsilin əlçatanlığını artırmaq, digər tərəfdən isə daha iddialı, yüksək bilik səviyyəsi tələb edən ixtisaslar üçün zəruri olan tələbləri qaldırmaq siyasəti həyata keçirilib. Məsələn, 3 il bundan əvvəl kənd təsərrüfatı ixtisasları 150 bala endirilib və bu islahat özünü doğruldub. Odur ki, növbəti tədris ilindən başlayaraq, bu ixtisasların sayı genişləndiriləcək.

**5 ildir ki, nostrifikasiya üçün müraciət edənlərin sayı davamlı olaraq artır. Həmin kontingentin tərkibinin analizləri göstərib ki, onların 85 faizi qəbul imtahanlarında uğursuz nəticə göstərib milli ali təhsil sistemindəki təhsil müəssisələrinə qəbul olunmayanlardır.**

Ali təhsilin əlçatanlığını təmin etmək məqsədi ilə həyata keçirilən islahatlarla bağlı nazir Mikayıl Cabbarov bu fikirdədir ki, əlçatanlılıq daha vacibdir: “Məsələn, dizayn ixtisasında başqa meyarları, keyfiyyətləri görmək istəyirik. Eyni zamanda mühəndislik, fizika, riyaziyyat və bir sıra digər ixtisaslarda tələb olunan minimal balı qaldırırıq, gələcəkdə də bu belə davam edəcək. Bundan başqa, tələbəyə SAT, TOEFL, İELTS nəticələrini bizim ali təhsil sisteminə qəbul olunmaq üçün mümkün imtahan kimi seçmək imkanı veririk”.

Ali təhsilin kütləviləşməsi, prosesin daha əlçatanlığı ali məktəblərə indiyədək olmayan sayda məzun qəbul olunmasıdır. Yəni indiki təhsil siyasətində universitetlərə daha çox tələbənin cəlb edilməsi, təhsilin hamı üçün əlçatan olması daha məqsədəuyğun hesab edilir. Bununla razılaşmayanlar olsa da qloballaşan ali təhsil məkanının şərtləri bunu diqtə etməkdədir. Belə ki, dünyanın istənilən ölkəsinin universitetlərinin məzunu olmaq ildən-ilə asanlaşır. Aydındır ki, belə bir şəraitdə tələbələrin, gənclərin nüfuzlu ali təhsil ocaqlarını qoyub Azərbaycan təhsil müəssisələrini seçəcəyini gözləmək indiki halda mümkün deyil. Bunu deməyə, ilk növbədə, mövcud vəziyyətin təhlilləri göstərir. Məsələn, 5 ildir ki, nostrifikasiya üçün müraciət edənlərin sayı davamlı olaraq artır. Həmin kontingentin tərkibinin analizləri göstərib ki, onların 85 faizi qəbul imtahanlarında uğursuz nəticə göstərib milli ali təhsil sistemindəki təhsil müəssisələrinə qəbul olunmayanlardır.

Təhsil naziri məhz bunları nəzərə alaraq ali təhsil müəssisələrinin rəhbərləri qarşısında qəti tələb qoyur: “Universitetlər strateji seçim edərkən bu böyük mənzərəni göz önündə tutmalıdır. Xüsusən, dünya miqyasında tanınan təhsil ocaqlarına qəbulun əlçatan olması və ötən illərlə müqayisədə asanlaşması hər bir universitetdən öz keyfiyyətini artırmağı, fəaliyyət strategiyasını bu reallığa uyğun qurmağı tələb edir. Əks halda, ölkədə fəaliyyət göstərən ali məktəblərin sayının artıb-azalmasından asılı olmayaraq, gənclərin seçim üstünlüyü verdiyi təhsil ocaqlarının sayı azalacaq”.

Ancaq milli ali təhsil sistemlərinin uzun müddət rəqabət qabiliyyətinin qorunub saxlanılması yalnız kütləvi ali təhsilin təqdim edilməsi ilə məhdudlaşmamalıdır. Biliyə, elmə, innovasiyaya əsaslanan, milli ali təhsil sisteminin tərkibində fəaliyyət göstərən ali təhsil müəssisələrinin mövcudluğu zəruridir.

### İnnovasiya və iqtisadi artım mərkəzlərinə transformasiya

İnnovasiya və iqtisadi artım mərkəzlərinə transformasiya bilik iqtisadiyyatının mövcudluğundan irəli gələn məsələdir. Ali təhsil müəssisəsini xarakterizə edən əsas amillərdən biri də məhz budur.

İnkişaf etmiş ölkələrin çoxunda ali təhsil xidmətləri göstərmək həmin ali məktəbin maliyyə imkanlarının genişlənməsinə səbəb olur. Ümumiyyətlə, müasir dövrdə sabit maliyyə resurslarının olması universitetlərin davamlı inkişafını təmin edən ən vacib amillərdəndir. Ölkəmizdə ali məktəblərin əsas maliyyə mənbəyi təhsil ödənişləri olsa da, layihələrlə gəlirini artıran universitetlərin sayı ilbəil artır. Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti hər il layihələrdən gəlir götürür. Məsələn, Bakı Dövlət Universitetində Nano texnologiyaları, biologiya, mikrobiologiya üzrə laboratoriyalar qurulub. Həmin maddi bazanı universitet layihələrlə təmin edib.

Məlumdur ki, ixtisaslı kadrların hazırlanması, bazara hədəflənən elmi tədqiqat və işləmələrin həyata keçirilməsi üçün təhsil müəssisələrinin maliyyə imkanları davamlı olmalıdır. Bir çox inkişaf etmiş ölkələrin universitetləri öz elmi-innovativ fəaliyyəti, layihələrin yerinə yetirilməsi, konsaltinq, mühəndis və müxtəlif növ təhsil xidmətləri hesabına maliyyələşir. Məsələn, Almaniyada təhsil müəssisələri böyükhəcmli layihələrdə, elmi-innovativ fəaliyyətdə iştirak edir. İstehsalatdakı problemlərin həllində, böyük maliyyə imkanlarına və nüfuza malik olan firma və şirkətlərin elan etdiyi irihəcmli qrant layihələrini həyata keçirir. Bu və başqa yollarla sabit maliyyə resurslarını formalaşdırırlar.

Gəncədə Aqrar Universitetin fəaliyyətindən misal çəkən professor Əjdər Ağayevin fikrincə, kənd təsərrüfatı üzrə mütəxəssislər hazırlayan belə ali təhsil müəssisəsinin özünün çox böyük ferması və ya kənd təsərrüfatı məhsullarının becərildiyi böyük təsərrüfat sahəsi olmalıdır ki, həm öyrətsin, həm də qazanc götürsün: “Ərzurum Atatürk Universitetinin ərazisində piyada gəzmək mümkün deyil. Orada müəllimlər üçün kənd təsərrüfatı məhsulları satan xüsusi mağazalar var ki, satışa çıxarılanlar universitetin öz təsərrüfatlarının məhsuludur. Həmin ali məktəb nəzdində elmi-tədqiqat institutları fəaliyyət göstərir və onların da ayrı-ayrı regionlarda qurulmuş təcrübə sahələri var. Yaxud, sözügedən universitetin tibb fakültəsi fəaliyyət göstərir. Həmin fakültənin tələbələri universitetə aid xəstəxanalarda, klinikada təcrübə keçir”.

Azərbaycanda da bu təcrübənin tətbiqinə başlanıb. Ancaq nəticədən danışmaq, deyəsən, bu tezliklə mümkün olmayacaq: “Universitetlərin nəzdində müəyyən sahələr üzrə institutlar fəaliyyət göstərməlidir. Tutaq ki, Pedaqoji Universitetin uşaq bağçası, orta ixtisas təhsili müəssisəsi, ixtisasartırma üzrə institutu, müasir təlim texnologiyaları üzrə mərkəzi olmalıdır. Bizdə buna doğru gedilir”.

### Çağırışlarla resursların uyğunlaşdırılması

Görünən odur ki, əvvəlcə müasir universitetin standartlarına qapılar açılmalı, sözügedən dəyişikliklərə nail olmaq üçün ardıcıl islahatlar aparılmalıdır. Müasir Azərbaycan təhsil müəssisəsinin yeni modeli ən yaxşı təcrübələrə, sağlam ənənələrə əsaslanmalıdır. Qarşımızda duran çağırışlarla mövcud imkanlarımız, resurslar uyğunlaşdırılmalıdır.

# Bakı Mühəndislik Universitetinin 2 tələbəsi magistratura imtahanında yüksək nəticə göstərib

Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov magistratura imtahanının I mərhələsində yüksək nəticə göstərən tələbələrlə görüşüb. Rektor çıxışında ulu öndər Heydər Əliyevin təhsilə diqqət və qayğısından söz açıb. Ulu öndər deyirdi: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır". Rektor görüşdə tələbələrin uğurlarına sevindiyini dilə gətirib. Onlara magistr imtahanının ikinci turunda da yüksək nəticələr göstərməyi arzulayıb.



Görüşdə iştirak edən universitetin prorektorları və dekanları da tələbələri təbrik ediblər.

Qeyd edək ki, Bakı Mühəndislik Universitetinin tələbəsi Qalib Sarayev magistratura imtahanının I mərhələsində mümkün 100 baldan 99 bal toplayıb. Balakən şəhəri Humanitar və texniki təmayüllü liseyi qızıl medalla bitirib, 667 balla ali məktəbə daxil olub.

Yaşar Nəsibov Şəki şəhər Nizami Gəncəvi adına 7 nömrəli tam orta məktəbi qızıl medalla bitirib, 679 balla ali məktəbə qəbul olub. 5 il ərzində Prezident təqaüdü alıb.

Görüşdə söz alan Qalib Sarayev və Yaşar Nəsibov rektora təşəkkürlərini bildiriblər.

Sonda rektor tərəfindən tələbələrə təşəkkürnamə təqdim olunub.

## UNEC Siegen Universiteti ilə Yaz məktəbinə start verib

UNEC-də "EE-KEY-AZ Sahibkarlıq təhsili: Azərbaycanda iş yerlərinin yaradılması və məşğulluğun əsas amili kimi" layihəsi çərçivəsində təşkil olunan Yaz Məktəbinə start verilib. Dörd gün davam edən Yaz məktəbi "Sahibkarlıq və kiçik və orta müəssisələr: Biznesin əsasları" mövzusunda olacaq.

Yaz Məktəbinin açılışında UNEC-in Beynəlxalq əlaqələr departamentinin rəhbəri Anar Kazımov müsabiqədən uğurla keçən magistrləri təbrik edərək onlara uğurlar arzulayıb. Bildirib ki, UNEC-in 12 və Siegen Universitetinin 10 magistrinin qatıldığı Yaz məktəbinə Siegen Universitetinin professoru Petra Muqun (Petra Moog) rəhbərlik edəcək. Azərbaycanın biznes qurumlarının rəhbər və mütəxəssisləri iştirakçılarla öz təcrübələrini bölüşəcək, ölkə iqtisadiyyatındakı son tendensiyalar haqqında mühazirələr oxuyacaqlar. Yaz məktəbi ərzində iştirakçıları ölkənin istehsal müəssisələrinin fəaliyyəti ilə tanış etmək məqsədilə ekskursiyalar təşkil olunacaq.

Sonda magistrlər hazırladıqları biznes planların nəticələrinə əsasən qiymətləndiriləcəklər və kreditlər əldə edəcəklər.

Qeyd: UNEC ilə Almaniyanın Siegen Universiteti ilə birgə hazırladığı layihə DAAD tərəfindən maliyyələşdirilməsi üçün qəbul olunub. Layihənin 4 il ərzində həyata keçirilməsi və bir neçə istiqamətlər üzrə fəaliyyət planı nəzərdə tutulub. Yaz məktəbi aprelin 17-dən 21-dək keçirilib.

## BANM və Heriot-Vatt Universiteti arasında birgə magistr proqramı

Bakı Ali Neft Məktəbi (BANM) Böyük Britaniyanın Heriot-Vatt Universiteti ilə birgə "Neft-qaz mühəndisliyi" ixtisasının "Yatağın qiymətləndirilməsi və idarə olunması" ixtisaslaşması, "Kimya mühəndisliyi" ixtisasının isə "Neft və qaz texnologiyası" ixtisaslaşması üzrə magistratura səviyyəsinə 2017/2018-ci tədris ili qəbul elan edib.

Dövlət İmtahan Mərkəzinin qəbulla bağlı keçirəcəyi müsabiqədə BANM-in müvafiq ixtisaslarının məzunları, digər ali məktəblərdə müvafiq ixtisaslar üzrə ingilis dilində təhsil almış bakalavrlar və xarici ölkələrin universitetlərinin müvafiq ixtisaslarını bitirmiş mütəxəssislər iştirak edə bilərlər.

Dövlət İmtahan Mərkəzinin ali məktəbdə sözügedən ixtisas üzrə bakalavriat səviyyəsində tədris edilən peşə və ixtisas fənlərinin məzmunu əsasında tərtib olunmuş proqram üzrə təşkil edəcəyi test imtahanlarının nəticələri əsasında ixtisaslara ümumi 21 bakalavrın qəbulu nəzərdə tutulub.

Təhsil ingilis dilində aparılacaq, magistr dərəcəsi alan məzunlara Bakı Ali Neft Məktəbinin və Böyük Britaniyanın Heriot-Vatt Universitetinin diplomları veriləcək. Təhsil ödənişsiz əsaslarla dövlət sifarişi çərçivəsində həyata keçiriləcək. Təhsil müddəti 1,5 ildir.

# Gəncə Dövlət Universiteti orta məktəblərlə əməkdaşlığı genişləndirir

Gəncə Dövlət Universitetində orta təhsil müəssisələri ilə əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi ilə əlaqədar işçi qrupu yaradılıb.

İşçi qrupu mart ayında universitetin baza məktəbləri olan Gəncə şəhər Mir Cəlal Paşayev adına 39 və Mehdi Mehdizadə adına 4 nömrəli tam orta məktəblərdə həmin tədris ocaqlarının pedaqoji kollektivləri və XI sinif şagirdlərinin iştirakı ilə tədbir keçirib. Daha sonra işçi qrupu Gəncə şəhərinin 1, 2, 5, 6, 8, 12, 14, 16, 17, 22, 23, 27, 31, 32, 38, 41 və 43 nömrəli tam orta məktəblərində görüşlər təşkil edib.

Tədbirlərdə işçi qrupunun üzvləri, dosentlər M.Məmmədov, C.Qarayev, M.Rəhimov, C.Bağırzadə, Tələbə həmkarlar təşkilatının sədri P.Adıgözəlov, Tələbə gənclər təşkilatının sədri O.Məmmədov, universitetin ictimaiyyətçi tələbələri fəal iştirak ediblər. İşçi qrupunun üzvləri çıxışlarında universitetin yaranma tarixi və burada fəaliyyət göstərən fakültə və ixtisaslar haqqında ətraflı məlumat veriblər.



Qeyd olunub ki, Qərb regionu üzrə ilk dəfə olaraq İELTS imtahanları GDU-da təşkil edilir. Universitet tərəfindən ardıcıl olaraq orta məktəb şagirdləri üçün fənn olimpiadaları, ekskursiyalar, müxtəlif xarakterli tədbirlər həyata keçirilir.

Tədbirlərin keçirildiyi bütün ümumtəhsil məktəblərində universitetin həyatını əks etdirən videomateriallar nümayiş etdirilib, bukletlər, suvenirlər şagirdlərə hədiyyə olunub.

Qeyd edək ki, İstanbul Universitetinin YÖS imtahanları bu il ilk dəfə Gəncə şəhərində GDU-da təşkil edilir. İmtahandan uğurlu nəticələr əldə edən abituriyentlər İstanbul Universitetində təhsil almaq imkanı əldə edir. Həmçinin imtahanların nəticələri Türkiyə Respublikasının 110 universiteti tərəfindən tanınır.

Keçirilən görüşlər yuxarı sinif şagirdlərinə müsbət təsir göstərib. Çıxış edən şagirdlər belə bir görüş üçün minnətdarlıq ediblər və gələcəkdə ali təhsil almaq üçün Gəncə Dövlət Universitetini seçəcəklərini bildiriblər.

Hazırda universitetin işçi qrupu Gəncə Şəhər Təhsil İdarəsi ilə əməkdaşlığa əsasən digər orta məktəblərdə də tədbirlərin keçirilməsini planlaşdırır.

# Lənkəran Dövlət Humanitar Kollecinin tələbəsi regional olimpiadada I yeri tutub

Lənkəran Dövlət Universitetinin təşkilatçılığı ilə 15-16 aprel 2017-ci il tarixlərində "Regional fizika və riyaziyyat" fənn olimpiadası keçirilib. Bölgə gənclərinin dəqiq elmlərə olan həvəs və marağını artırmaq, ölkə üçün potensial riyaziyyatçı kadrlar yetişdirmək işinə yardımçı olmaq, istedadlı gənclərin riyazi qabiliyyətlərini üzə çıxarmaq məqsədi daşıyan olimpiadanın açılışında LDU-nun rektoru vəzifəsini icra edən riyaziyyat üzrə elmlər doktoru, professor Natiq İbrahimov çıxış edərək bilik yarışmasına qatılan gənclərə uğurlar arzulayıb. Lənkəran Dövlət Humanitar Kollecinin direktoru, dosent Ruslan Həmidov ilk dəfə təşkil olunan regional olimpiadanın kollec tələbələri üçün əhəmiyyətindən danışıb, olimpiadanın yüksək səviyyədə təşkilinə görə rektor vəzifəsini icra edən professor Natiq İbrahimova və təşkilat komitəsinə minnətdarlığını bildirib.

Sonra olimpiadaya start verilib. Qeyd edək ki, olimpiada 3 istiqamətdə - orta məktəb şagirdləri, orta ixtisas məktəbi və ali məktəb tələbələri arasında fizika və riyaziyyat fənləri üzrə keçirilib. Bilik yarışmasına region üzrə 130-dan çox şagird və tələbə qatılıb. Onlardan 79 nəfəri LDU-nun tələbəsi, 9 nəfəri Lənkəran Dövlət Humanitar Kollecinin, 4 nəfəri Masallı Dövlət Regional Kollecinin , 4 nəfəri Astara Pedaqoji Kollecinin tələbələri, 43 nəfər isə regionun orta məktəblərinin şagirdləri idi. Lənkəran Dövlət Humanitar Kollecinin tələbəsi Gülnar Ağayeva riyaziyyat fənni üzrə 1-ci yerə, Kürsümxanım Əkbərzadə və Firuzə Qasımlı fizika fənni üzrə 2 və 3-cü yerlərə uyğun layiq görülüblər. Olimpiada qaliblərinin mükafatlandırılması mərasimdə LDU-nun rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov qalib tələbələri təbrik edib, onlara uğurlar arzulayıb. Belə olimpiadaların müxtəlif fənlər üzrə mütəmadi keçirilməsinin vacibliyini qeyd edən professor Natiq İbrahimov ölkənin inkişafının bugünkü gəncliyin səviyyəsindən, zamanla ayaqlaşa bilmək qabiliyyətindən asılı olduğunu diqqətə çatdırıb. Sonra olimpiada qalibləri mükafatlandırılıb. Ən yaxşı nəticə göstərən iki qalibə kubok, fəxri fərman və xatirə hədiyyələri təqdim olunub. Biliyi ilə fərqlənənlərin mükafatı isə fəxri fərmanlar və xatirə hədiyyələri olub.

**Cəmil QULİYEV,**
*LDHK-nın müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru*

# Z nəsli şagirdlər və biz



**Vəfa YAQUBLU,**
*Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktor əvəzi, əməkdar müəllim*

Sosioloqlar müəllim peşəsini "insan - insan" interaksiyasında olan peşələr qrupuna daxil edir. Yəni, müəllimin iş "obyekti" insandır. Qızılın xassələrini bilməyən şəxsdən yaxşı zərgər olmadığı kimi insanın (bizim halda - uşağın) xüsusiyyətlərini bilməyən insandan da yaxşı müəllim alınmayacaq. Lakin bu gün uşaq psixologiyasını bilmək uğurlu müəllim olmaq üçün kifayət etmir. "Nəsillər nəzəriyyəsi"nin qənaətlərinə də baxmaq maraqlı olar.

1991-ci ildə Uilyam Ştraus və Nil Houvun elmi ictimaiyyətə təqdim etdikləri "Nəsillər nəzəriyyəsi"nə görə son yüzillikdə nəsillər çox sürətlə (20-25 illik intervalla) bir-birini əvəz edir. Eyni zaman kəsiyində (maksimum 30 il qəbul edilir) anadan olmuş, şüur paradiqması və sosial-texnoloji vərdişləri ilə əvvəlki nəsillərdən fərqlənən insanlar qrupunu "nəsil" termini ilə adlandırırlar. Hər yeni nəsil özünəməxsusluqları ilə əvvəlki nəsli təəccübləndirir. Məsələn, şərti olaraq X (iks) nəsli adlandırılan 1965-1979-cu illərdə doğulanlar siyasi indifferentliyi, istənilən hakimiyyətdən narazılığı, yüksək boşanma əmsalı ilə tanınırdılar. Həmin dövrdə karyera perspektivi dərin akademik biliklər və intellektual bacarıqlar tələb etməyə başlamışdı. Y (iqrek) nəsli (hərdən onları millenial-lar da adlandırırlar) 1980-2000-ci illərdə anadan olanlardır. Y nəslinin nümayəndələri əsasən daha yüksək texnoloji bilik və bacarıqları, yeniliyə və öyrənməyə açıqlığı ilə fərqlənir. Və nəhayət, Z (zet) nəsli: 2000-ci ildən bəri anadan olanlar. Alimlərin fikrincə, tarixdə ilk dəfə insanlar öz əcdadlarından bu dərəcədə köklü şəkildə fərqlənir. Z nəslini müxtəlif adlarla çağırırlar: senteniallar, "ev quşları", "yeni sükut nəsli", "MənMənMən" nəsli, rəqəmsal insanlar. Onlar fəal şəkildə elektron alətlərdən istifadə edirlər. Bizim (X və Y nəsillərinin) innovasiya adlandırdıqlarımız onlar üçün adi reallıqdır. Bu insanlar, sözün əsl mənasında, ilk rəqəmsal insanlardır. Onlar qloballaşma və postmodernizm dövründə dünyaya göz açan nəsildir. Z nəsli təbiət elmləri və texnologiyalar ilə maraqlanır. Ehtimal olunur ki, onlar daha çox mühəndislik, biomühəndislik, robotlaşdırma və habelə incəsənətlə məşğul olacaqlar.

2000-ci ildə doğulan uşaqlar bu il XI sinifdə oxuyurlar. Deməli, bu gün bütün şagirdlərimiz yalnız Z nəslinin nümayəndələridir. Onların valideynləri və müəllimləri isə X və Y nəslidir. Çoxbilmiş alimlər maraqlı bir bənzətmədən istifadə edirlər: Z nəslinin valideynlərini "rəqəmsal immiqrantlar" adlandırırlar (axı onlar uşaq olanda bu cür texnoloji alətlər yox idi). Qəribədir, elə deyilmi - bu rəqəmsal dünyanın tamhüquqlu "vətəndaşları" olan Z-lərə "immiqrantlar" (X və Y-lər) rəqəmsal dünyada uğurlu olmağı öyrətməyə çalışır.

Bugünkü şagirdlər internet dövründə dünyaya gələn ilk nəsildir. Elektron vasitələr olmayan dünyanı onlar çox çətinliklə təsəvvür edirlər. Onlar hər addımda elektron əlavələrdən ustalıqla istifadə edirlər. Z nəsli dünyanı virtual və real olmaqla iki hissəyə bölmür. Onların aləmində hər iki dünya tam harmoniyadadır. Multikultural mühitdə yaşayan bu nəslin nümayəndəsi həmsöhbətinin kimliyi ilə (harda doğulub, hansı görünüşdədir) maraqlanmır. Deyirlər, bu, ən dözümlü və sülhsevər nəsil olacaq.

Lakin Z nəslinin mənfi cəhəti konsentrasiya bacarığının zəif olmasıdır. Onlarda bir obyekt üzərində konsentrasiyanın orta göstəricisi 8 saniyədir. Böyükhəcmli informasiyanı qavramaqda çətinlik çəkirlər. İnformasiya onlara hissə-hissə, kiçik porsiyalarla verilərdə stress yaratmır. Mətn simgələr, şəkillər, simvollarla zəngin olanda daha rahat həzm edirlər. Z nəsli uşaqları arasında diqqət qıtlığı sindromu və hiperaktivlik (DDSH) geniş yayılıb. Bu səbəbdən Z nəsli oxumaq deyil, baxmağı üstün tutur. Şagirdlər minimum vaxt ərzində maksimum informasiya almağa çalışırlar.

Bəs onlar niyə belə diqqətsizdirlər? Bizdən kütdürlərmi? Xeyr. Z nəsli texnologiyalarla çiyin-çiyinə böyüyüb - hiperlinklərlə keçid edərək öyrənmək onlar üçün daha münasibdir. Digər tərəfdən onlar qlobal fikirləşməyə meyillidirlər. Üç toxunuşla dünyanın dörd bir tərəfindən istənilən informasiyanı ala bilirlər. Z nəsli kəşflər etmək, tədqiqat aparmaq, layihə hazırlamaq həvəskarıdır.

Düzdür, Z nəsli diqqətini cəmləməkdə çətinlik çəkir, amma qərar qəbul etməkdə surətlidir. Eyni suala da dönə-dönə qayıtmağı sevmirlər. Göz ilə görməyi üstün tuturlar. İnformasiyanın hansı qanunlarla yaşadığını bu yeniyetmələr gözəl duyur. Bu sizə boş şey kimi görünə bilər, amma unutmayaq ki, informasiyanı idarə edən situasiyanı idarə edir.

**Eyni suala da dönə-dönə qayıtmağı sevmirlər. Göz ilə görməyi üstün tuturlar. İnformasiyanın hansı qanunlarla yaşadığını bu yeniyetmələr gözəl duyur. Bu sizə boş şey kimi görünə bilər, amma unutmayaq ki, informasiyanı idarə edən situasiyanı idarə edir.**

Bu yazıda çatdırmaq istədiyimiz əsas fikir budur ki, Z nəsli X və Y nəslindən pis və ya küt deyil, o, sadəcə FƏRQLİDİR. Bəs bu fərqli nəsillə necə işləyək? Bir neçə tövsiyəmizi diqqətinizə təqdim edirik.

Əvvələ, hər bir informasiyanı bacardıqca **vizuallaşdırmaq** lazımdır. Əyanilik əsas şərtdir. Kiçik və böyük qan dövranı barədə necə ustalıqla danışsanız da, 2 dəqiqəlik videoçarx daha səmərəli olacaq. Yaxud, hər hansı bir məsələ barədə şagirdlərin fikrini öyrənmək istəyirsinizsə, hərdən onlardan pantomima göstərməyi, "donmuş səhnə" qurmağı və s. xahiş edin. Şagirdlərin həvəslə prosesə qoşulması, kollektiv düşüncələrinin məhsulu sizi təəccübləndirəcək.

İkincisi, hər şeyi tez etmək lazımdır. Dərs bizim alışdığımızdan **daha sürətli və canlı** olmalıdır. Müəllimin monoton nitqi və ağır-ağır var-gəli Z nəslini təbdən çıxardan məqamlardır. Sinfə girəndə sözləri uzadaraq "Salam, u-şaq-lar" deyən müəllim həmin dəqiqə uşaqları "itirir". Uşaqlar onu anlamırsa, aramla danışan müəllim daha da ləng izaha keçməkdənsə, əksinə, nitq sürətini artırmalıdır. Yoxlayın, mütləq alınacaq. Çünki Z nəsli sürətli informasiyanı daha yaxşı anlayır. (Uşaqlar üçün cizgi filmlərinə fikir verin: orada hadisələr bir-birini necə də sürətlə əvəz edir. Amma cizgi filmini seyr edən uşaq demək olar ki, hər şeyi anlayır).

Üçüncüsü, Z nəsli əsasən praqmatiklərdir. Hər hansı bir mövzunu öyrənərkən əvvəl **"Bu bizə nə üçün lazımdır?"** sualını qabardın, uşaqların diqqətini çəkəndən sonra nəzəri hissələri anladın.

Dördüncüsü, dərsdə elektron məzmundan yerində istifadə edin. Uşaqları da **elektron resurslar** yaratmaq işinə cəlb edə bilərsiniz. Onlar sizə məmnuniyyətlə kömək edəcəklər. Uşaqlara onlardan öyrənməyə hazır olduğunuzu nümayiş etdirin, onların səriştələrinə hörmətlə yanaşın. Ömürboyu öyrənmə yanaşmasını şəxsi nümunənizlə təbliğ edin.

Beşincisi, siz də fərqli olmağa çalışın. Heç kimi təqlid etməyin. Özünüz kimi olmaqla yanaşı, boz kütlədən **fərqlənin**. Z nəsli (elə əvvəlki nəsillər kimi) parlaq ulduzlara doğru can atır.

# Tailandlı alim ADPU-da mənəvi-əxlaqi dəyərlərin təhsilə tətbiqi mövzusunda təlim keçib





Tailand Texnoloji Elmi-Tədqiqat İnstitutunun direktoru, NASA-nın əməkdaşı, tanınmış pedaqoq, professor Art Onq Djumsai aprelin 17-18-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) “Mənəvi-əxlaqi dəyərlərin təhsilə tətbiqi” mövzusunda ikigünlük beynəlxalq təlim keçirib. ADPU-nun, Azərbaycan Dövlət Pedaqoji Kollecinin (ADPK) və Respublika Humanist Pedaqogika Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan beynəlxalq təlimlərdə Universitetin rəhbərliyi, professor-müəllim heyəti, Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əliyev, kollecin rəhbərliyi və müəllimləri, filialların direktorları və müəllimləri, ümumi təhsil məktəblərinin direktorları və mütəxəssisləri, təhsil ekspertləri, əməkdar elm xadimi, professor Şahlar Əsgərov, fəlsəfə doktoru Etibar Əliyev, Sankt-Peterburqdakı Ümuminsan Dəyərləri İnstitutunun filial direktoru Valeriy Voşinin iştirak ediblər.

Tədbirdə ADPU-nun rektoru, professor Cəfər Cəfərov bildirib ki, ADPU-da təhsilin məzmununun yenilənməsi və tədrisin keyfiyyətinin yüksəldilməsi, professor-müəllim heyətinin seçiminin başlanılması, idarəetmənin optimallaşdırılması, müasir idarəetmə infrastrukturun yaradılması üçün islahatlar həyata keçirilir. Universitetin fəaliyyətinin əsas istiqamətlərindən biri də qabaqcıl beynəlxalq təcrübənin öyrənilib tətbiq edilməsidir. Bu baxımdan məşhur pedaqoq, professor Art Onq Djumsainin ADPU-da keçirdiyi təlimlər mühüm əhəmiyyət kəsb edir. Bu təlimlər ölkə pedaqoqlarının mənəvi-əxlaqi zəmində inkişafına və ümumbəşəri dəyərlərin təhsilə inteqrasiyasına yeni impuls verəcək.

Rektor, professor Art Onq Djumsainin fəaliyyəti barədə məlumat verib. Çıxışının sonunda Cəfər Cəfərov cənab Art Onq Djumsaiyə və təlimin təşkilatçılarına təşəkkür edib.

Professor Art Onq Djumsai çıxış edərək real həyat hadisələri və konkret faktlar, eləcə də öz təcrübəsi əsasında ümumbəşəri dəyərlərin təhsilə inteqrasiyası, rəhbərlik etdiyi məktəbin şagirdlərinin mənəvi-əxlaqi keyfiyyətlərinin inkişafına yönəldilmiş fəaliyyəti barədə məlumat verib. Alim qeyd edib ki, müasir təhsil bilik verir, lakin biz bütün insanlara dünyada yaşamağa imkan verən təhsilə ehtiyac duyuruq. Buna görə uşağın xarakterinin formalaşması başlıca şərtdir. Alimin fikrincə, səbrli və tam səmimi olan, uşağı ürəkdən sevən, fədakar müəllim onun xarakterinin formalaşmasında böyük rol oynayır. Öz məktəbinin alternativ enerji mənbələrindən istifadə edilməsi sahəsində qazandığı nailiyyətlərdən danışan Art Onq Djumsai qeyd edib ki, məktəbin fəaliyyət prinsipləri “Gələcəyin enerjisi” şüarı ilə keçiriləcək “EKSPO-2017” sərgisinin fəlsəfəsinə uyğundur və dünya ictimaiyyəti üçün aktual olan alternativ enerji mənbəyi mövzusunu işıqlandıracaqdır. Humanist alim təlim iştirakçılarını ümumi dünyamızın sülh, əmin-amanlıq şəraitində yaşaması, inkişafı və xoşbəxtliyi naminə həmrəy olmağa, birgə fəaliyyət göstərməyə çağırıb.

Sankt-Peterburqdakı Ümuminsan Dəyərləri İnstitutunun filial direktoru Valeriy Voşinin çıxış edərək beynəlxalq təlimin təşkilinə görə ADPU-nun rəhbərliyinə təşəkkür edib.

Beynəlxalq təlimlər zamanı iştirakçıların çoxsaylı sualları cavablandırılıb, maraqlı fikir mübadiləsi aparılıb.

# Azərbaycançılıq ideyasının əsası: milli-mədəni kimlik

Aprelin 17-də Bakı Slavyan Universitetində BSU-nun, Böyük Britaniyanın Kembric və Almaniyanın Berlin-Humboldt universitetlərinin birgə təşkilatçılığı ilə “Post-sovet Azərbaycanında milli-mədəni kimlik” mövzusunda elmi konfransı keçirilib.

Konfransın açılışında çıxış edən BSU-nun rektoru, professor Nurlana Əliyeva Azərbaycanın müstəqillik dönəmində mənəvi dəyərləri bərpa etmək, milli-mədəni kimlik sahəsində mövcud problemləri aradan qaldırmaq istiqamətində ciddi işlər görüldüyünü diqqətə çatdırıb. Rektor müstəqil Azərbaycan Respublikasının qurucusu ümummilli lider Heydər Əliyevin dövlətçilik siyasətinin əsasında məhz milli-mənəvi dəyərlərin dayandığını, azərbaycançılıq ideyasının əsas götürüldüyünü qeyd edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həmin ənənələri daha da inkişaf etdirdiyi, məhz dövlət başçısının sərəncamları ilə milli-mədəni kimlik məsələsinin dövlətçilik siyasətinin tərkib hissəsinə çevrildiyi qeyd edilib.

BSU-nun professoru Rəhilə Qeybullayeva konfransın xüsusi layihə üzrə baş tutduğunu və onun növbəti mərhələlərinin də olacağını bildirib. O, konfransda müzakirə olunacaq mövzuların rəngarəng olduğunu, burada dini dəyərlərdən tutmuş musiqiyədək bir çox mövzuların araşdırıldığını qeyd edib.

AMEA-nın humanitar bölməsinin rəhbəri, M.Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli çıxışında konfransın əhəmiyyətini vurğulayıb. O, milli-mədəni kimlik məsələsinin müstəqillik dövründə formalaşmış azərbaycançılıq ideyasının əsasını təşkil etdiyini bildirib. Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı Azərbaycanda milli-mədəni kimlik məsələsinin tarixinə ekskurs edərək, onun zaman-zaman dəyişildiyini qeyd edib. O, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi azərbaycançılıq ideologiyasında milli-mədəni kimliyin xüsusi önəmi barədə məlumat verib.

Daha sonra Berlin-Humboldt Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri Yeva-Maria Aux və Kembric Universitetinin professoru Çarlz Melvil çıxış ediblər. Qonaqlar belə bir ciddi mövzunun gündəmə gətirilməsinə görə universitet rəhbərliyinə öz minnətdarlıqlarını bildiriblər.

İki gün davam edən konfransın bölmə iclaslarında “Milli kimliklərin dəyişməsi dövrü”, “Yeni milli-mədəni kimliklərin formalaşması dövrü” mövzuları müzakirə edilib, “Post-sovet Azərbaycanında tarixi normativlər və mədəniyyət quruculuğu” məsələsi ətrafında diskussiyalar aparılıb.

# “Məktəblinin dostu”ndan yeni təşəbbüs

“Məktəblinin dostu” və “ASAN könüllüləri” təşkilatının “Mədəniyyət carçısı” layihəsinin birgə təşəbbüsü ilə Cəlil Məmmədquluzadənin “Poçt qutusu” əsəri səhnələşdirilib. Paytaxtdakı 194 nömrəli tam orta məktəb şagirdlərinin iştirakı ilə səhnələşdirilən tamaşanı ümumilikdə 400-ə yaxın şagird və valideyn izləyib.

Qeyd edək ki, “Məktəblinin dostu” seçilmiş gənclər fəaliyyətə başladıqları ilk gündən interaktiv olaraq şagirdlərin təlim-tərbiyəsi və intellektual inkişafının təmin edilməsi istiqamətində müxtəlif tədbir və yarışlar keçirmək təşəbbüsü ilə çıxış edirlər.

Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə həyata keçirdiyi “Məktəblinin dostu” pilot layihəsinin əsas məqsədi müəllim və şagirdlər üçün təhlükəsiz mühit yaratmaq, fövqəladə hal baş verdikdə ilk tibbi və psixoloji yardım göstərmək, mütəmadi olaraq şagird, valideyn, təlim-tərbiyə müəssisələrinin kollektivi ilə maarifləndirmə və diaqnostik işlərin aparılmasını əhatə edir. Bununla yanaşı, “Məktəblinin dostu” seçilmiş şəxslər hər bir yaş mərhələsində uşaqların hərtərəfli şəxsi keyfiyyətlərinin və intellektual inkişafının təmin edilməsi, onlarda özünütərbiyə və özünüinkişaf bacarığının formalaşdırılmasında iştirak edirlər. Hazırda Bakı şəhəri üzrə 30 ümumi təhsil müəssisəsini əhatə edən “Məktəblinin dostu” pilot layihəsi üzrə 112 nəfər əməkdaş çalışır.

# 183 nömrəli tam orta məktəb 80 yaşında

**Sifai SƏFƏROVA**




Bakının Xəzər rayonundakı 183 nömrəli tam orta məktəbin 80 illik yubileyi keçirilib. Yubiley tədbirində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ), Xəzər Rayon İcra Hakimiyyətinin nümayəndələri, Milli Məclisin deputatları, rayon ictimaiyyətinin təmsilçiləri, məktəbin məzunları iştirak ediblər.

Öncə təhsil ocağının həyətində şagirdlər “Azərbaycan” mahnısı əsasında fləşmob nümayiş etdiriblər, mahnı və rəqslər ifa ediblər. Sonra isə məktəbin gənc idmançılarının çıxışları qonaqlarda xoş ovqat yaradıb. Bədii kompozisiya nümunələri başa çatdıqdan sonra qonaqlar təhsil ocağının yubileyinə həsr edilmiş sərgi ilə tanış olublar.

Məktəbin direktoru Rəhilə Abbasova rəhbərlik etdiyi təhsil ocağının keçdiyi inkişaf yolundan bəhs edib. 1937-ci ildən fəaliyyət göstərən məktəbdə hazırda 1114 şagirdin təlim-tərbiyəsi ilə 62 müəllim məşğul olur. Bu günədək ümumilikdə məktəbin 3542 məzunu olub. Əvvəlcə 430 yerlik ilk korpusla yeddiillik məktəb kimi fəaliyyətə başlayan bu təhsil ocağı 1974-cü ildə tikilmiş 630 yerlik ikinci korpusla fəaliyyətini uğurla davam etdirib. Direktor bildirib ki, ölkəmizdə təhsil sisteminin inkişafı yeni mərhələyə qədəm qoyub. Modern təhsil ocaqlarının inşası, Avropa standartlarına uyğun avadanlıqlarla təminatı milli təhsilimizin mahiyyətcə inkişafına təkan verib.

Rəhbərlik etdiyi məktəbin bir sıra layihələrdə fəal iştirakını, hər il məzunların yüksək balla müxtəlif ali təhsil müəssisələrinə qəbul olunduqlarını diqqətə çatdıran Rəhilə Abbasova bildirib ki, qazanılan uğurlarda kollektivin əməyi böyükdür.

Daha sonra Milli Məclisin deputatı Rauf Əliyev çıxışında bildirib ki, 183 nömrəli məktəb Xəzər rayonunun qabaqcıl təhsil ocaqlarındandır. Bu məktəbin məzunları arasında tanınmış insanlar çoxdur.

BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva isə paytaxt təhsilinin inkişafı istiqamətində əldə olunan uğurlardan, həyata keçirilən layihələrdən söz açıb. O, gənc nəslin inkişafı, layiqli vətəndaşlar kimi yetişdirilməsi naminə dövlətin bütün imkanlardan istifadə etdiyini vurğulayıb.

Mərasimdə daha sonra çıxış edən qonaqlar, məktəbin təqaüddə olan veteran müəllimləri təhsil müəssisəsinin kollektivini yubiley münasibətilə təbrik ediblər.

# TOPs proqramı çərçivəsində növbəti “açıq dərs”

Bakı şəhəri 138 nömrəli tam orta məktəbin inklüziv təhsil tətbiq olunan 2-ci sinfində “TOPs - fiziki tərbiyə sahəsində müasir təhsil texnologiyasının yaradılması” layihəsi çərçivəsində “açıq dərs” keçirilib. TOPs təlimlərindən keçmiş ibtidai sinif müəllimləri Gülər Abdullayeva və Səbinə Əliyeva şagirdlərə innovativ tədris vəsaiti olan TOP oyun tədris kartlarından istifadə edərək ilkin hərəki bacarıq və vərdişlər öyrədiblər.

“Açıq dərs”i Təhsil Nazirliyinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, “British Council” təşkilatının Azərbaycandakı nümayəndəliyinin, “İnkişaf Naminə İdman” İctimai Birliyinin məsul şəxsləri, müəllim və valideynlər izləyiblər.

Təhsil Nazirliyi, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, “British Council” və “İnkişaf Naminə İdman” İctimai Birliyinin tərəfdaşlığı ilə həyata keçirilən TOPs layihəsinin əsas məqsədi ümumi təhsil məktəblərinin fiziki tərbiyə və ibtidai sinif müəllimlərini fiziki tərbiyə fənni üzrə müasir təhsil texnologiyası ilə təmin etməkdir.

Hazırda layihə Bakı və Sumqayıt şəhərlərinin 72 ümumi təhsil məktəbində tətbiq edilir. 2014-cü ildən start verilən layihədən 100000 nəfərdən artıq şagird daha keyfiyyətli və maraqlı fiziki tərbiyə dərsindən, eləcə də dərsdənkənar fəaliyyətdən faydalanıb, 200-ə yaxın ibtidai sinif və 500-dən artıq fiziki tərbiyə müəllimi TOPs təlimlərində iştirak edərək sertifikatla təltif edilib.

# “Qələbəyə aparan yol”

**Şakir CƏFƏROV**



Bakıdakı Zaur Məmmədov adına 171 nömrəli tam orta məktəbdə hərbi diktor, hərbi mahnıların ifaçısı, “Vətənpərvərliyin Təbliğinə Dəstək” İctimai Birliyinin sədri, ehtiyatda olan mayor Şəmistan Əlizamanlı ilə görüş keçirildi. “Qələbəyə aparan yol” adlı tədbirdə Bakı Şəhəri üzrə Təhsil İdarəsi Təlimə Dəstək Mərkəzinin, Azərbaycan Respublikasının Təhsil İnstitutunun əməkdaşları, məktəb direktorları, valideynlər və başqa qonaqlar iştirak edirdi.

Tədbiri giriş sözü ilə məktəbin direktoru Zemfira Məsiyeva açaraq qonaqları salamladı. Dövlət himni səsləndirildi. Sonra tədbirin aparıcıları qonaq haqqında məlumat verdilər. Bildirdilər ki, Şəmistan Əlizamanlı hərbi-vətənpərvərlik mövzusunda bir çox mahnıların mahir ifaçısıdır. “Çağırır Vətən”, “Can Azərbaycan”,”Cənab leytenant”, “Sıravi Əhməd” və başqa mahnılar onun ifasında daha çox sevilir.

Tədbirdə məktəblilərin ifasında hərbi-vətənpərvərliyi tərənnüm edən şeirlər söylənildi, mahnılar oxundu və ədəbi-bədii kompozisiya nümayiş etdirildi. 5 “b”sinif çagirdi Nəzrin Quluzadənin ifasında Süleyman Rüstəmin “Ana və poçtalyon” şeiri tədbir iştirakçıları tərəfindən rəğbətlə qarşılandı.

Söz tanınmış hərbi diktor Şəmistan Əlizamanlıya verildi. O, məktəblilərlə görüşdən məmnun olduğunu qeyd etdi və tədbirin təşkilinə görə məktəbin pedaqoji kollektivinə təşəkkürünü bildirdi. Həm də özünün fəaliyyəti ilə bağlı maraqlı məqamları tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Sonda qonaq şagirdlər, müəllimlər və digər tədbir iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

# Vətənpərvərlik mövzusunda tədbir

**Niyazi RƏHİMOV**

Aprelin 18-də Bakının Xətai rayonunda yerləşən 221 nömrəli tam orta məktəbdə şagirdlərə hərbi vətənpətvərlik tərbiyəsinin aşılanması məqsədi ilə “Qələbəyə aparan yol” mövzusunda tədbir keçirilib. Tədbirdə məktəbin müəllim-şagird kollektivi ilə yanaşı KİV-nümayəndələri, valideynlər və digər şəxslər iştirak edib. Məktəbin gənclərin çağırışaqədərki hazırlıq rəhbəri Rəşad Bədəlov tərəfindən təşkil olunan tədbir 2016-cı ilin aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin işğal olunmuş torpaqlarımızın azad olunması uğrunda göstərdikləri qəhrəmanlıqlara həsr olunmuşdu.

Öncə iştirakçılar vətən uğrunda canından keçən şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Sonra aprel döyüşlərinə həsr olunan videoçarx nümayiş etdirildi. Videoçarxda ölkə Prezidenti cənab İlham Əliyevin aprel döyüşlərini və Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsini Qələbəyə aparan yolun başlanğıcı olduğu fikri bir daha vurğulandı.

Tədbirdə çıxış edən məktəbin direktoru, əməkdar müəllim Fikrət Xəlilov tədris ocağında vətənpərvərlik ruhunda keçirilən tədbirlərin əhəmiyyətindən danışdı. Ötən il baş verən aprel döyüşlərində ordumuzun gücündən, hərbiçilərimizin döyüş ruhundan bəhs etdi. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızın azad olunacağını və bu qələbənin çox yaxında olduğuna inandığını bildirdi.

Tədbirdə şagirdlərin apreldəki döyüş səhnələrini əks etdirən çıxışları, söylədikləri vətənpərvəlik ruhlu şeirləri iştirakçılar tərəfindən rəğbətlə qarşılandı.

# Şagirdlərimiz Avropa Qızlar Riyaziyyat Olimpiadasından xüsusi mükafatla qayıdıblar

**Oruc MUSTAFAYEV**

Aprelin 6-dan 12-dək İsveçrənin Sürix şəhərində keçirilən 6-cı Avropa Qızlar Riyaziyyat Olimpiadasında (EGMO-European Girls Mathematical Olympiad) azərbaycanlı şagirdlər də iştirak ediblər. Bilik yarışmasına ABŞ, Yaponiya, Hindistan, Braziliya, Rusiya, Ukrayna kimi 43 ölkədən 172 şagird qatılıb. Mötəbər bilik yarışında ikinci dəfədir ki, iştirak edən Azərbaycan məktəbliləri növbəti uğura imza atıblar. Bakıdakı İ.Əfəndiyev adına “Elitar” gimnaziyanın X sinif şagirdi Cəvahir Abbasova, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinif şagirdi Nəzrin Fərziyeva olimpiadanın xüsusi mükafatı olan “Honourable Mention” sertifikatına layiq görülüblər. Hər iki şagird Fizika, riyaziyyat və informatika təmayüllü liseyin nəzdində yaradılmış Beynəlxalq olimpiadalara hazırlıq mərkəzinin üzvüdür. Onları oxucularımızla daha yaxından tanış edirik.

## “Uğurlarıma görə müəllimlərimə təşəkkür edirəm”



*Cəvahir Abbasova:* 2001-ci il aprelin 25-də Bakı şəhərində anadan olub. 2006-cı ildə İ.Əfəndiyev adına “Elitar” gimnaziyada təhsil almağa başlayıb, X sinifdə oxuyur.

- Hələ uşaq yaşlarımdan riyaziyyata böyük həvəsim vardı. Valideynlərim də bu istedadımı inkişaf etdirmək üçün əllərindən gələni edirdilər. Riyaziyyat olimpiadalarında ilk uğurumu 8-ci sinifdə oxuyarkən qazandım. Bolqarıstanda “Sərhədsiz Riyaziyyat” Beynəlxalq Olimpiadasında iştirak etdim və gümüş medal qazandım. 9-cu sinifdə həmin olimpiadada yenidən gümüş medal aldım. Həmin il riyaziyyat olimpiadalarına hazırlıq qrupuna seçildim. 2016-cı ildə Rumıniyada keçirilən Avropa Qızlar Riyaziyyat Olimpiadasında Azərbaycanı təmsil edən ilk qız şagirdlərdən biri idim. Həmin il uğur qazana bilməsəm belə, 1 il ərzində var gücümlə çalışdım. Bu il İsveçrədə keçirilən EGMO-da iştirak etdim və həvəsləndirici sertifikatla təltif olundum. Orada olduğum müddətdə xarici ölkələrdən olan iştirakçılarla da əlaqə yaratdım və onların beynəlxalq riyaziyyat olimpiadalarına hazırlıq metodları ilə tanış oldum. EGMO-da iştirak etmək təcrübə baxımından mənim üçün çox əhəmiyyətli oldu. Qazandığım bütün uğurlarıma görə müəllimlərimə təşəkkür edirəm. Gələcək olimpiadalarda, eləcə də 2018-ci ildə keçiriləcək EGMO-da daha yaxşı nəticələr göstərmək üçün əlimdən gələni edəcək, müəllimlərimin və valideynlərimin ümidlərini doğrultmağa çalışacağam.

## “Bilik yarışmasında çox faydalı təcrübə qazandıq”



*Nəzrin Fərziyeva:* 2001-ci il mayın 12-də Bakı şəhərində anadan olub. 2007-ci ildə 162 nömrəli tam orta məktəbin birinci sinfinə gedib. Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinfində oxuyur.

- Uşaqlıqdan riyaziyyat fənninə marağım olduğu üçün VII sinifdə Fizika, riyaziyyat və informatika təmayüllü liseyə imtahan verdim. Liseyə daxil olduğum vaxtdan riyaziyyatla daha ciddi məşğul olmağa başladım. VIII sinifdə olimpiada qrupuna seçildim. IX sinifdə oxuyarkən Rumıniyada keçirilən Avropa Qızlar Riyaziyyat Olimpiadasında ilk dəfə 4 nəfərlik qrupla iştirak etdik. Nəticəmiz uğurlu olmasa da, bilik yarışmasında çox faydalı təcrübə qazandıq. Birillik ciddi hazırlığın nəticəsində bu il İsveçrədə keçirilən EGMO-da həvəsləndirici sertifikatla təltif olundum. Olimpiada çox yüksək səviyyədə təşkil olunmuşdu. Bizə stimul verən məqamlardan biri də digər ölkələrin nümayəndələri ilə olan müzakirələrimiz oldu. Hazırlıq mərhələsində bizə dəstək olan müəllimlərimizə və ailəmə təşəkkürümü bildirirəm. Önümüzdəki digər olimpiadalarda yüksək nəticələr göstərməyə və ölkəmizi daha layiqli təmsil etməyə çalışacağam.

## “Məktəblilərimizin nəticələrini uğurlu hesab etmək olar”



*Azərbaycan Respublikası Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri, riyaziyyat fənni üzrə komandamızın rəhbəri Fuad Qarayev:* - Riyaziyyat fənni üzrə keçirilən bir sıra nüfuzlu beynəlxalq müsabiqələr arasına artıq 6-cı dəfə Avropa Qızlar Riyaziyyat Olimpiadası (EGMO) da əlavə olunub. EGMO ilk dəfə 2012-ci ildə İngiltərədə keçirilib. İlk dəfə 19 ölkənin iştirak etdiyi bu olimpiadaya maraq ildən-ilə artmış və artıq 2017-ci ildə iştirakçı ölkələrin sayı 43-ə çatıb. Avropa Qızlar Riyaziyyat Olimpiadasının keçirilməsinə Beynəlxalq Riyaziyyat Olimpiadasında (İMO) olimpiada komandaları üzrə ölkə rəhbərlərinin iştirak etdiyi iclaslarda qərar verilib. Beynəlxalq riyaziyyat olimpiadalarında yüksək nailiyyətlər əldə edən şagirdlər arasında qızların da olmasına baxmayaraq, qız şagirdlərinin öz bilik və bacarıqlarını daha rahat nümayiş etdirmələrini təmin etmək məqsədilə qızlar arasında ayrıca olaraq belə bir olimpiadanın keçirilməsi qərara alınıb. Avropa Qızlar Riyaziyyat Olimpiadasında tapşırıqlar iki gün ərzində təqdim edilir. Hər gün 3 sualın həlli üçün şagirdlərə 4 saat 30 dəqiqə vaxt verilir. Şagirdlərin yazı işlərinin surəti münsiflər heyətinə, əsli isə komanda rəhbərlərinə təqdim edilir. Komanda rəhbəri şagirdlərin yazı işləri və suallar üzrə qiymətləndirmə meyarları ilə tanış olur və yazı işlərinə baxış zamanı münsiflər heyəti ilə bərabər şagirdlərə verilən balları müzakirə edir. Hər sual 7 bal ilə qiymətləndirilir. Şagirdlərin fərdi nəticələri ilə bərabər komanda hesabında ölkələrin də reytinq cədvəli açıqlanır.

Azərbaycan məktəbliləri bu olimpiadada ikinci dəfədir ki, iştirak ediblər. İki gün davam edən olimpiadada şagirdlər ümumilikdə 6 tapşırığı cavablandırmaq üçün öz bilik və bacarıqlarını nümayiş etdiriblər. Azərbaycanı riyaziyyat fənni üzrə beynəlxalq oimpiadalarda ilk təmsil edən qızlarımızın bu mötəbər bilik yarışında nailiyyət əldə etməsi təqdirəlayiqdir. Belə ki, Cəvahir Abbasova və Nəzrin Fərziyeva Fizika, riyaziyyat və informatika təmayüllü liseyin nəzdində yaradılmış Beynəlxalq olimpiadalara hazırlıq mərkəzinin dinləyiciləridir. Məktəblilərimizin nəticələrini uğurlu hesab etmək olar. Əvvəla olimpiadada tapşırıqların həll yollarını tapmaq o qədər asan olmayıb, bunun üçün xüsusi hazırlığın keçilməsi zəruridir.

### “Nəticələrimizin daha da yaxşı olacağına şübhə etmirik”

Qeyd edim ki, şagirdlərimiz beynəlxalq riyaziyyat olimpiadalarında 5 qızıl, 27 gümüş və 63 bürünc olmaqla 95 medal əldə ediblər. Lakin bu da bir həqiqətdir ki, bu nəticələr sadəcə oğlanların payına düşüb. Son iki ildir ki, Azərbaycanda qız məktəblilər beynəlxalq riyaziyyat olimpiadalarına qatılır və artıq müəyyən nəticələr əldə etməyə başlayıblar. Azərbaycan təhsilini beynəlxalq aləmdə təmsil etməyin ən vacib, əhəmiyyətli məqamlarından biri beynəlxalq fənn olimpiadalarıdır. Son illər bu sahədə aparılan məqsədyönlü işlərin sistematik olaraq davam etdirildiyi təqdirdə nəticələrimizin daha da yaxşı olacağına şübhə etmirik. Beynəlxalq fənn olimpiadalarına hazırlıq işi zaman, səbr, fədakarlıq, əzm, çalışqanlıq və istedad tələb edən sahədir. Bu səbəbdən yaxın illərdə Azərbaycan məktəblilərinin nailiyyətlərinin bugünkündən daha yaxşı olacağına heç şübhə yoxdur. İstedadlı, fənlərə marağı olan, çalışqan şagirdlərin aşkar edilməsi və onlarla nəticəyönümlü işlərin görülməsində aşağı sinif şagirdləri arasında həyata keçirilən fənn müsabiqələrinin böyük əhəmiyyət kəsb etdiyini düşünürük.

Sonda qeyd edək ki, qızlar arasında növbəti olimpiadanın 2018-ci ilin 9-15 aprel tarixlərində Florensiyada keçirilməsi qərara alınıb. Şagirdlərimizə qarşıdakı dünya bilik yarışmalarında daha yüksək zirvələri fəth etməyi arzu edirik.

# Qazaxıstanlı magistr tələbələr ADMİU-da elmi-təcrübi dərslər keçirlər

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ilə T.K.Jurqenov adına Qazaxıstan Milli İncəsənət Akademiyası arasında imzalanan əməkdaşlıq müqaviləsinə əsasən akademiyada təhsil alan I kurs magistr tələbələrinin elmi-təcrübi dərsləri davam edir.

Rəssamlıq fakültəsinin təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının müəllimi Türkan Abbasovanın rəhbərliyi ilə Kseniya Omelçenko, Samal Mamitova və Talğat Əbdildayev Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunu ziyarət ediblər. Tələbələr kompleksdə arxeoloji abidələr, yaşayış binaları, kurqanlar, sərdabələr, məscidlər və digər qədim memarlıq nümunələri ilə yaxından tanış olublar. Daha sonra tələbələr dizayn və dekorativ-tətbiqi sənət kafedrasının müdiri, əməkdar incəsənət xadimi, professor Arif Əzizovun əsərlərini, ümumi yaradıcılığını izləyə biləcəkləri “Art House” emalatxanasının qonağı olublar.

Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının müəllimi Fəxri Məmmədli də öz növbəsində tələbələrə “İncəsənət sahəsində idarəetmə” haqqında məlumat verib. Bu sahənin Azərbaycanda mövcud durumu, son illər görülən işlər və inkişaf istiqamətləri mövzusunda müzakirələr aparılıb.

Estrada sənəti kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar müəllim, dosent Məryəm Babayeva tələbə Tolğanay Pazılakına vokal sənətinin incəlikləri, caz standartları, səsin quruluşu və qorunması haqqında ətraflı məlumat verib. Daha sonra Tolğanay musiqi sənəti fakültəsinin II kurs instrumental ifaçılıq ixtisası tələbəsi Natiq Yusibov, III kurs xalq çalğı alətləri ixtisası tələbəsi Məhəmməd Məmmədli və II kurs estrada sənəti ixtisası tələbəsi Məlik Məmmədov ilə birlikdə caz üslubunda əsərlər ifa edib.

Sonda proqram çərçivəsində qazaxıstanlı tələbələr Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında xalq artisti, bəstəkar və dirijor Ə.Bədəlbəylinin “Qız qalası” baletinə tamaşa edib.

# Tələbə startapı veb proqramlaşdırmanı tədris edir



Bakı Mühəndislik Universiteti Texnoparkında fəaliyyət göstərən startaplardan biri “Coders Azerbaijan”dır. Layihə veb proqramlaşdırma sahəsi üzrə təhsil xidməti göstərir.

Universitetin iqtisadiyyat və idarəetmə fakültəsinin “Dünya iqtisadiyyatı” ixtisası üzrə 3-cü kurs tələbələri Seymur Həmidov, Pərviz Əsədzadə İKT sektorunda mövcud vəziyyəti araşdıraraq belə nəticəyə gəliblər ki, hazırda bu sahədə veb proqramlaşdırma mütəxəssislərinə ciddi ehtiyac var. Əldə etdikləri nəticəyə əmin olduqdan sonra onlar “Coders Azerbaijan” startap layihəsini qurmağa qərar veriblər. Hazırda layihənin inkişafı BMU Texnopark tərəfindən dəstəklənir və uğurla davam etdirilir.

“Coders Azerbaijan” layihəsinin əsas məqsədi veb proqramlaşdırma sahəsinə maraq göstərənlər ilə eyni sahədə məşğul olan gənc və peşəkar mütəxəssislərin əməkdaşlığını inkişaf etdirməkdir. Layihənin hazırda təqdim etdiyi tədris proqramının müddəti 5 aydır və proqram intensiv şəkildə tədris edilir. Proqramın ilk 13 həftəsində (cəmi 200 saat olmaqla) tələbələr dərs alır, qalan 7 həftə ərzində isə təcrübə keçirlər. Proqramın iştirakçıları tədris müddəti ərzində real layihələr üzərində işləməklə beynəlxalq sertifikat imtahanına hazırlaşırlar. Bununla belə, tələbələr sosial fəaliyyətlərdə iştirak edir, komanda ilə işləməyin metodlarını öyrənir, təlim və seminarlarda iştirak edərək özlərini mütəxəssis kimi inkişaf etdirirlər.

# İnternat məktəblərinin 30 məzunu aşpazlıq peşəsinə yiyələnir

Aşpaz olmaq istəyən internat məktəbləri məzunları üçün kurslara aprelin 15-də start verilib. Üç ay davam edəcək kursların əsas məqsədi gənclərin bu peşəyə dərindən yiyələnməsi və gələcəkdə iş tapmasına, karyera quraraq, müstəqil həyatda özlərinə layiqli yer tutmasına dəstək olmaqdır. Aşpazlıq kursları Sahibsiz Uşaqlara Kömək İctimai Birliyi (SUK İB) və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə “Etibarlı gələcəyin qurulması üçün birgə fəaliyyət” adlı layihə çərçivəsində reallaşdırılır.

Layihə çərçivəsində Bakının Qızıldaş qəsəbəsində yerləşən 8 nömrəli peşə liseyində təşkil olunmuş kurslara 30 nəfər gənc qız və oğlan cəlb edilib. Kursu uğurla bitirənlərə sertifikat veriləcək. Kurslarla yanaşı, gənclərə 3 ay ərzində pulsuz hüquqi və psixoloji yardım da ediləcək. Layihənin sonunda isə onların işlə təmin olunmasına kömək göstəriləcək.

Sahibsiz Uşaqlara Kömək İctimai Birliyinin sədri Məlahət Abbasovanın bildirdiyinə görə, internat məktəbin məzunları cəmiyyətin ən həssas qruplarına daxil olan insanlardandır. Təcrübə göstərir ki, bu kateqoriyadan olan insanlar arasında uğurlu həyat qura bilən çox olsa da, cinayətkarlığın, insan alverinin qurbanına çevrilənlər də az deyil. Odur ki, internat məktəblərini bitirdikdən sonra həyatda müstəqil olaraq uğurla fəaliyyət göstərməsi üçün yeniyetmə və gənclərin, ilk növbədə, bir peşəyə yiyələnməyə, karyera qurmağa ehtiyacları var. Məlahət Abbasova deyir: “Biz təşkilat nümayəndələri ilə bir neçə ay əvvəl internat məktəbində həmin gənclərlə görüşüb, söhbət etdik, arzu və istəklərini öyrəndik. Onların ən böyük qayğısı işsizlik idi. Onlara öz təklif və tövsiyələrimizi bildirərkən, bizə hər hansısa bir kursda iştirak etmək istədiklərini söylədilər. Odur ki, əmək birjasını da gözdən keçirib, Qızıldaş qəsəbəsindəki 8 nömrəli peşə liseyində internat məktəblərinin məzunları üçün aşpazlıq kurslarını təşkil etməyi qərara aldıq. Ümid edirəm ki, bu kurslarda öyrəndikləri onların həyatında müsbət mənada dönüş yaradacaq, gələcəkdə karyera qurmalarında, işlə təminatlarında da öz töhfəsini verəcək”.

Qeyd edək ki, aprelin 15-dən başlayan layihə iyulun 15-dək davam edəcək.

İSTEDAD

# On iki yaşlı Mədinənin rənglər dünyası

Sifai SƏFƏROVA

Bakı şəhəri Nizami rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində uşaq, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli və faydalı təşkili üçün hər cür şərait yaradılıb. Mərkəzin başlıca vəzifəsi dərin və hərtərəfli biliyə, xüsusi istedada və bacarığa, yüksək intellektə və mədəniyyətə malik uşaqlar yetişdirməkdən, onların yaradıcılıq potensiallarını inkişaf etdirməkdən ibarətdir. Burada 28 adda dərnək fəaliyyət göstərir. "Milli rəqs", "Bal rəqsləri", "Rəsm", "Şahmat", "Gimnastika", "Gənc aktyorlar", "Çiçəyim uşaq teatr studiyası", "Sazçalanlar", "Nağaraçalanlar" və sair dərnəklərdə məşğul olan yeniyetmə və gənc istedadlar mütəmadi olaraq beynəlxalq festival və müsabiqələrə qatılır, diplom və fəxri fərmanlara layiq görülürlər. Mərkəzdə olarkən diqqətimi daha çox rəsm dərnəyinin üzvü, 12 yaşlı Mədinə Hüseynzadənin yaradıcılığı cəlb etdi. Həmsöhbət kimi seçdiyim Mədinəyə yanaşmağım lap ürəyincə olmuşdu. Sən demə onun ürəyi dolu imiş. Cəsarətli danışığı ilə söhbətə başlayan dilli-dilavərli qız uğurları haqqında o qədər həvəslə danışırdı ki!

- 4 yaşımda olarkən mərkəzdə fəaliyyət göstərən bədii gimnastika dərnəyində məşğul olmuşam. Rəsm çəkməyi çox xoşlayıram. Yaxşı yadımdadır, "Zambaq" adlı bağçaya gedirdim. Çoxlu karandaşlarım var idi. Ancaq şəkillər çəkir, rəngli kağızlardan müxtəlif fiqurlar düzəldirdim. Bağçada müəllimim deyirdi ki, valideynlərinə de, səni rəsm dərnəyinə qoysunlar. Hər gün evə gələndə müəllimimin dediyini atama çatdırırdım. Bir də xahiş edirdim ki, mənə rəngli karandaşlar alsın, evdə də rəsmlər çəkim. Ertəsi gün atam mənim dediklərimin hamısını alıb gətirdi. Təzə-təzə rəsm çəkməyə başlayanda "Fil", "Dovşan", "Yay təsvirləri", "Dəniz", "Ağac", "Dağ" şəkillərini çəkirdim. Hər gün evə gələndə anam çəkdiyim rəsmlərə baxıb deyərdi: - Nə yaxşı çəkmisən, çox gözəldir, qızım! Bəlkə də həmin rəsmlər o qədər də yaxşı deyildi, ancaq anamın istedadıma verdiyi qiymət məni daha da ruhlandırırdı. O, çəkdiyim rəsmləri toplamaq üçün albom da ayırmışdı. Hamısını ora yığırdı və atam evə gələndə ona göstərirdi. Həmin albomda 100-ə yaxın rəsmim vardı.

### "Çoxlu uğurlara imza atdım"

- Atam da mənim yaşımda olanda rəsm həvəskarı olub. Çoxlu rəsmləri var. Hərdənbir atamın rəsmləri ilə öz rəsmlərimi müqayisə edirəm və onun rəsmlərinə üstünlük verirəm. Çünki mənim Nərmin Abdullayeva kimi rəsm müəllimim olsa da, onun müəllimi olmamışdı, sadəcə fitri istedada malik idi, necə deyərlər, özü çəkib özü də qiymət verərdi.

Uşaq bağçasında bizim çox sərt təbiətli müəllimimiz var idi. Mənə elə gəlirdi ki, bütün müəllimlər onun kimi sərt olacaq. Amma bir gün fikrim dəyişdi. Birinci dəfə mərkəzə rəsm dərnəyinə gəldiyim günü nəzərdə tuturam. Eşidəndə ki, müəllimim Nərmin xanımdır, onunla məşğul olacağam, üzünə baxanda çox sevindim, onun üzündən nur süzülürdü. Bir andaca qorxu-hürkü canımı tərk etdi. Sonra isə onun sayəsində çoxlu uğurlara imza atdım. Fürsətdən istifadə edib Nərmin müəllimimə də qazandığım bütün nailiyyətlərə görə minnətdarlığımı ifadə edirəm. İlk gündən onunla dostlaşdıq.

Ən çox firuzəyi, bənövşəyi rəngləri xoşlayıram. Yaratdığım rəsmlərin əksəriyyətində bu rənglərdən istifadə edirəm. Bəzən çəkdiyim rəsmlərə tamaşaçı kimi baxıram, anam, atam, dostlarım bəyənirlər, əgər rəsmimdən xoşum gəlmirsə, onu təzədən çəkmirəm, sadəcə çatışmayan nöqsanlarını bərpa edirəm.

### "Ən çox fantaziya janrına üstünlük verirəm"

İlk dəfə "Abşeron" rəsm qalereyasında sərgim keçiriləndə çox sevindim. "Rənglərlə arzularıma doğru" adlı rəsm sərgimdə 70-ə yaxın rəsmim nümayiş olundu. Müasir və milli üslubda işlənmiş əl işləri, kompozisiyalar, təbiət mənzərələrim sərgi iştirakçılarının xoşuna gəldi. Sevinirdim ki, sərgi başa çatdıqdan sonra kim hansı rəsmimi bəyənirdisə onu da alırdı. Həmin gün 40-a yaxın rəsm əsərim satıldı. Qazandığım pulu anama verdim. Sərgim keçiriləndə məndən çox anam həm sevinir, həm də həyəcanlanırdı. Onun üzərimdə olan əziyyətini sadalamaqla qurtaran deyil. Rəsm sərgisində anam, atam, sinif yoldaşlarım, gimnast dostlarım da iştirak edirdilər. Yeri gəlmişkən deyim ki, evdə otağım lap emalatxanaya bənzəyir. Böyük bir rəsm stolum var. 40-a yaxın bankada rənglər, 3-4 dənə politra, fırçalar, flomasterlər və s. var. Ancaq nədənsə qrafika üslubunda çəkəndə ürəyim sıxılır. Ən çox fantaziya janrına üstünlük verirəm. Bu, mənim ürəyimcədir, çünki bütün düşüncələrim bu janrda canlanır, əsrarəngiz rəsmlərə çevrilir.

## "İlk dəfə sərgim keçiriləndə çox sevindim"

### "Al-əlvan rənglərlə işləməyi daha çox xoşlayıram"

Akrel ilə daha çox işləyirəm. Gündə 4-5 saat rəsm çəkməyə vaxt ayırıram. Kətan üzərində atamın, anamın portretlərini yaratmışam və ad günlərində onlara hədiyyə etmişəm. Bilirsiniz, onlar necə sevindilər! Sanki dünyanı onlara bağışlamışdım. Dəfələrlə televiziya kanallarında dostluq, vətənpərvərlik mövzusunda çəkdiyim rəsmlərim nümayiş olunub. Azərbaycan rəssamlarından Səttar Bəhlulzadənin, Toğrul Nərimanbəyovun, Arif Hüseynovun, öz müəllimim Nərmin Abdullayevanın əsərlərinə tamaşa etməkdən doymuram. Bu günədək 9 ölkədə olmuşam. Bolqarıstanda, Macarıstanda, Almaniyada, Misirdə, Serbiyada, Türkiyədə, Gürcüstanda və sair. Mən eyni zamanda rəqslə də məşğul oluram.

### "Beynəlxalq Uşaq Festivalında 40-a yaxın rəsm əsərim nümayiş olundu"

2015-ci ildə Türkiyənin Bodrum şəhərində keçirilən "23 Nisan" Beynəlxalq Uşaq Festivalına qatılmışdım. Orada sərgi salonlarının birində mənim 40-a yaxın rəsm əsərim nümayiş olundu. "Xəyallarımın mənzərəsi", "Arzularımın qız qalası", "Qədim Bakı" və s. On gün Bodrumda qaldıq. Rəqslə məşğul olan rəfiqələrim Fatimə, Madər də bizimlə idi. Bizi türk ailələrinə bölmüşdülər. Çox mehriban bir ailədə qalırdım. İndi də həmin ailə ilə əlaqə saxlayırıq. Onlar da Bakıya gəlmək arzusundadırlar.Vaxt tapan kimi paytaxtımıza gələcəklərini söyləyirlər. Bakı haqqında onlara o qədər danışmışam ki! Ev sahibinin həyat yoldaşının da adı Mədinə idi. Mən onlarda olanda o, İstanbulda idi. Evə dönərkən gəlişimizi eşidib çox sevindi. Uşaqları da yaşıdlarım idilər. Simay adlı qızı V sinifdə oxuyurdu. Oğlunun adı isə Tolqa idi. Uşaqların atası Mətin əmi arxitektor vəzifəsində çalışırdı. O, bizi şəhərlə tanış etdi, məni iş yerinə apardı. Gəmi ilə gəzintiyə çıxdıq. Evləri dağın döşündə idi, oradan bütün şəhər görünürdü. Mətin əmi deyirdi ki, yaşadıqları evi özü tikib. Sonra Simayla voleybol yarışmasına getdik. Voleybol oynamağı bacardığım üçün mənə təklif etdilər ki, o komandaya qoşulum, mən də dedim ki, Vətənə qayıdacağam. Azərbaycan haqqında yaratdığım ən yaxşı əsərimi - "Qız Qalası"nı onlara hədiyyə etdim. Sərgimdə onlar da həvəslə iştirak edirdilər.

### "Paytaxtımız haqqında qısaca da olsa, onları məlumatlandırdım"

2016-cı ilin noyabrında Bolqarıstanda rəqs festivalı keçirilirdi. Bütün ölkələrdən uşaqlar qatılmışdılar. Mən də Azərbaycanı təmsil edirdim. Ukraynadan Yana, Belarusdan Saşa ilə dostlaşdıq. Çoxlu söhbətlər etdik. Bakımız haqqında qısaca da olsa onları məlumatlandırdım. Özümlə götürdüyüm rəsmlərimdən bir neçəsini onlara hədiyyə etdim. Qiyabi də olsa paytaxtımıza səyahət etməkdən məmnun qaldılar. Onlar da mənə şəhərləri, təhsil aldıqları məktəb haqqında danışdılar. Bolqarıstanda olarkən Varna şəhərini gəzdik.

### "Diplomla mükafatlandırıldım və medal qazandım"

Almaniyada gimnast uşaqların yarışı keçirilirdi. Orada halqa və top ilə çıxış edəcəkdim. Amma oteldən çıxanda halqanı və topu unutmuşdum. Tez taksiyə minib otelə qayıtdım və onları götürüb özümü yarışa çatdırdım. Yarış zamanı çox həyəcanlı idim. Amma nümayiş etdirdiyim çevik hərəkətlər münsiflər heyətinin xoşuna gəldi. Sadəcə orada çox ölkədən iştirakçı olduğuna görə V yerə çıxaraq diplomla mükafatlandırıldım və medal qazandım. Serbiyada isə gimnastların yarışında əvvəlcə xəbər vermişdilər ki, çıxışım səhər olacaq, sonra isə dedilər ki, yox, axşam olacaq. Bütün günümü orada keçirməli oldum. Həmin vaxt ərzində oteldə rahatca dincələ bilərdim.

### "Alman, ingilis və fransız dillərində məşğələlərə gedirəm"

Hazırda rəsm və milli rəqs dərnəklərinin üzvüyəm. Alman, ingilis və fransız dillərində məşğələlərə gedirəm. Bilirəm ki, bunlar gələcəkdə mənə lazım olacaq. Bəzən eyvandan həyətimizi seyr edirəm, görürəm ki, yaşıdlarım topla oynayırlar, mənsə həmin vaxt alman dili öyrənirəm. Kaş onlar da mənim kimi dərs hazırlayardılar, vaxtlarını səmərəli keçirəydilər. İstəyirəm ki, bütün uşaqlar istedad sahibi olsunlar. Açığını deyim ki, məktəblilərin yay tətilini sevmirəm. Çünki yay tətilində məşğul olduğum dərnəklər fəaliyyət göstərmir, mənsə məşğuliyyətsiz qala bilmirəm. Özümdən asılı olmayaraq hər şeylə maraqlanıram. Bu, mənim hobbimdir.

### "Bayram tədbirlərində iştirak edirəm"

Heydər Əliyev Fondunun "Buta" sarayında təşkil olunan Yeni il şənliklərində və Heydər Əliyev Sarayında keçirilən uşaqların bayram tədbirlərində iştirak edirəm. Beynəlxalq İnsan Hüquqları Gününə həsr edilmiş " Hüquqlarım" mövzusunda keçirilən müsabiqədə fəallıq nümayiş etdirərək şəhadətnamələr qazanmışam. 2016-cı ildə Yunanıstanda keçirilən beynəlxalq rəsm müsabiqəsində "Musiqi yollarında" rəsm əsərim III yerə layiq görülüb. Həmin ilin dekabrında isə beynəlxalq "Dostluq" adlı rəsm müsabiqəsində "Göyərçin" rəsmim nümayiş olundu, III yeri qazandım və medalla mükafatlandırıldım. Çexiyaya "Səyahət", Polşaya "Həmişə yaşıl, həmişə mavi", Yaponiyaya "Ekologiya" mövzularında rəsm əsərlərimi göndərmişəm. Misir haqqında kompozisiya yaratmışam. Bu rəsm əsərimi də Misirə göndərmişəm. Hazırda İtaliyada keçiriləcək beynəlxalq festivala hazırlaşıram. Əl işlərim orada nümayiş olunacaq. İnanıram ki, uğur qazanacağam. Bakıdakı 132-134 nömrəli təhsil kompleksinin VI sinfində oxuyuram. Arzularım çoxdur. Onları gerçəkləşdirmək üçün çox çalışmalıyam.

### "Bədii ədəbiyyat oxumaqdan zövq alıram"

Hansı mağazada maraqlı bədii ədəbiyyat görürəmsə mütləq onu alıram. A.Puşkinin, L.Tolstoyun, Y.Lermontovun əsərlərini, bir sözlə, bədii ədəbiyyat oxumaqdan zövq alıram. Bəzən oxuduğum kitabları təkrar oxuyuram. Elə bilirəm ki, oxumamışam. Oxuduqlarımın qısa məzmununu qardaşım Məhəmmədə danışıram. Onun 5 yaşı var. Amma hafizəsi güclüdür. Ona rəsm çəkməyi də öyrətmişəm. Artıq Azərbaycan və rus dillərində yazıb-oxumağı bacarır. Ona ingilis dilini də öyrədirəm. Sonra fransız dilini öyrədəcəyəm. İstəyirəm qardaşım da istedadlı olsun, nə vaxtsa bilmədiklərimi ondan soruşum.




### Mərkəzin direktoru Lalə Qətinin dəyərləndirməsi

- Mədinə çox istedadlıdır. Mərkəzimizin fəxridir, çox çalışqandır, onda yaradıcılıq potensialı çox güclüdür, yorulmaq bilmir. Xüsusi bacarığı və qabiliyyəti ilə seçilən Mədinə özünü rənglərsiz təsəvvür edə bilmir. Öz balaca dünyasına rənglərin gözü ilə baxır. Rənglərin dili ilə zəngin yaradıcılıq fəlsəfəsini ifadə edə bilir. İnamla deyə bilərəm ki, onun gələcəyi parlaqdır. Yəqin siz də onunla söhbətləşərkən bunun şahidi oldunuz. Mədinəyə yaradıcılıq uğurları arzulayıram.







# Təhsilin sağlamı...



## Məktəblərdəki sağlam təhsil sinifləri sağlam gələcək formalaşdırır

**Jalə MÜTƏLLİMOVA**

Ölkədə görmə, qamət problemli, habelə fiziki inkişafdan qalan xeyli şagird var. Fiziki inkişafdan qalanlar arasında oğlanlar xüsusilə çoxluq təşkil edir. Həmin arzuolunmaz statistika belədir:

Görmə problemləri
- İbtidai (I-IV) siniflərdə 29%
- Orta (V-IX) siniflərdə 25%
- Yuxarı (X-XI) siniflərdə 45%

Qamət problemləri
- İbtidai siniflərdə 51%
- Orta siniflərdə 52%
- Yuxarı siniflərdə 41%

Fiziki inkişafdan qalanlar (oğlanlar arasında)
- I sinifdə 19%
- V sinifdə 33%
- XI sinifdə 40%

Beləliklə, yuxarıdakı faiz göstəriciləri başqa bir statistikanı izah edir: məzunların cəmi 15 faizə qədəri yetkin həyata sağlam fərdlər kimi daxil olur.

### Zərurətdən doğan layihə

Necə edək ki, övladlarımızı yüksək intellektli insanlar kimi formalaşdırmaqla yanaşı, onları fiziki-psixoloji baxımdan da təkmil insan kimi yetişdirmək mümkün olsun?

Təhsil Nazirliyinin "Sağlam təhsil-sağlam millət" layihəsi məhz bu məqsədə hesablanıb.

Azərbaycan Tibb Universitetinin uşaq və yeniyetmələr gigiyenası kafedrasının dosenti Şəhla Balayevanın sözlərinə görə, layihə çərçivəsində respublikanın 65 şəhər və rayonunun 4500 ümumtəhsil məktəbində təhsilalanlara tibbi xidmətin səviyyəsi, tibb otaqlarının mövcud vəziyyəti araşdırılıb. Həkim və ya tibb bacılarının ümumtəhsil məktəblərinə hansı sıxlıqda təhkim olunması, habelə şagirdlərin tibbi müayinədən keçməsinin son tarixi və məqsədinə dair bütün məlumatlar toplanılıb. Səhiyyə Nazirliyindən şagirdlərin sağlamlıq vəziyyətinin siniflər üzrə dinamikası, o cümlədən məktəb yaşlarında uşaqlarda tez-tez rast gəlinən patologiyalar barədə son beş ili əhatə edən məlumatlar əldə edilib.

### Sağlam təhsil texnologiyalarının iki modeli

Layihə məktəblərdə sağlamlıq mərkəzlərinin açılması, imkansız ailələrin usaqlarının həmin mərkəzlərdə vaxtaşırı müayinədən keçirilməsi, sinif kurikulumları planlaşdırılarkən sağlam həyat tərzini təbliğ edən mövzulara genis yer verilməsi, siniflərin tərtibat və təchizatında dəyişiklik etməklə yanaşı, oturacaqlı masaların hündür masalarla əvəz edilməsini nəzərdə tutub. Bundan başqa, təlim yükünün minimuma endirilməsi, uşaqların psixoloji təzyiqlərdən qorunması da vacib sayılan məsələlərdəndir.

Məlumat üçün qeyd edək ki, sağlam təhsil texnologiyalarının iki modeli işlənib.

Sadələşdirilmiş birinci modeldə:

- Həm tibbi gigiyenik, psixoloji tövsiyə və təlimatlara, həm də üç mərhələli, həkkolma, əl işi, nitq quruculuğu əlaqələndirmə tipli inteqrativ təlim texnologiyasına əsaslanan təlim təşkl edilir;

İkinci əsas modeldə:

- Həm tibbi-gigiyenik, psixoloji tövsiyə, həm də birləşdirmə tipli, məsələn, bir gün, bir nağıl inteqrativ təlim texnologiyasına əsaslanan təlim təşkil edilir.

TN-nin Təhsilin inkişaf proqramları şöbəsinin aparıcı məsləhətçisi Afət Süleymanova deyir ki, layihə üzrə müsbət nəticələr əldə etmək üçün dörd istiqamətdə iş aparılır:
- Tibbi-gigiyenik
- Psixoloji-sosioloji
- Pedaqoji
- Gender

### Sağlam təhsil sinifdən başlayır

Sağlam təhsil layihəsində siniflər də fərqlənir. Sinfə panorama effekti verilir. Tavanında göz idmanı üçün nəzərdə tutulan şəkil, göz trenajoru işlənir. Divarlarına müxtəlif şəkilli lampalar yerləşdirilir. Uşaqların fiziki hərəkəti üçün müxtəlif qurğular quraşdırılır. Biri ayaq üstə dayanmağa, digəri oturub işləməyə imkan verən iki cür masa qoyulur. Hərəkət edə bilən xüsusi masalar 18 dərəcəlik bucaq altında düzülür.

Bir sözlə, bütün düzən uşağın göstərəcəyi fəaliyyətə uyğun qurulur. Yəni, hərəkət edə bilən masalar sinifdə görülən işə uyğun olaraq dəyişdirilə bilir. Dərs zamanı şagird 15 dəqiqə ayaq üstə, 15 dəqiqə isə oturaraq işləyir. Dərs prosesində divara yerləşdirilən müxtəlif şəkilli lampalar növbə ilə yanır. Şagirdlər yanan lampaya tərəf dönüb əl çalaraq bədənlərini hərəkət etdirir.

### Sağlam təhsil sinfində kimlər dərs deyəcək?

Bəs, sağlam təhsil sistemində kimlər dərs keçəcək? Burada dərsverənlərin səviyyəsi nəzərə alınacaqmı?

TN-nin Təhsilin inkişaf proqramları şöbəsinin aparıcı məsləhətçisi Afət Süleymanova məsələ ilə bağlı bildirib ki, sağlam təhsil sistemində pedaqoji simanın, yəni müəllimin xüsusi seçilməsi vacib məsələdir. Yəni sağlam təhsil üçün təkcə dərs proqramının və avadanlıqların lazımi səviyyədə olması yetərli deyil. Bu işdə vacib məqamlardan biri də müəllimin hazırlıq səviyyəsidir.

Odur ki, "Sağlam təhsil" layihəsi çərçivəsində hər müəllimin mənəvi-psixoloji vəziyyəti, şagirdlərlə qarşılıqlı münasibəti, emosional stabilliyi ilə bağlı metodistlərin rəytəhlili hazırlanıb. Eyni zamanda, onlar psixoloqlar tərəfindən testlərdən keçirilib və hər müəllimin psixoloji xarakteristikası işlənib hazırlanıb. Sonda müəllimlər müsahibəyə dəvət olunub.

Seçilən müəllimlər ilkin mərhələdə bir həftəlik seminarlara cəlb edilib və "Sağlam təhsil texnologiyaları" ilə təlimlər keçiblər. Sağlam təhsil sinfinin müəllimlərinə metodik dəstək verilib.

Qeyd edək ki, metodist məktəbdə dörd saat ərzində müəllimin dərsini müşahidə edir, onun pedaqoji fəaliyyətindəki üstünlük və boşluqları müəyyənləşdirir. Daha sonra həmin nöqsanların aradan qaldırılması üzrə fərdi iş aparılır. Uşaqlarını məktəbdən götürməyə gələn valideynlər layihə haqda məlumatlandırılır, onları maraqlandıran suallara cavab verilir. Metodistlər müəllimlə iş üçün ayrılmış dörd saat vaxtdan, bir saatını direktor müavini ilə birlikdə dərs müşahidəsinə sərf edir.

### Ümumi qənaət

Mütəxəssislər hesab edir ki, məktəblərdə sağlam təhsil siniflərinin açılması mövcud vəziyyəti yaxşı mənada dəyişəcək. Nəticədə təkcə ailələr və şagirdlər deyil, bütövlükdə cəmiyyət sağlam insan, vətəndaş qazanacaq.

Aprelin 18-də keçirilən "Sağlam təhsil-sağlam millət: Görülən işlər, nailiyyətlər, perspektivlər" mövzusunda praktik konfransın iştirakçıları da bu qənaətdədir.

Təhsil Nazirliyinin təşəbbüsü ilə Azərbaycan Tibb Universitetində reallaşan konfransda universitetin rektoru, professor Gəray Gəraybəyli çıxış edib. O, böyüməkdə olan nəslin sağlamlığının qorunması məsələləri və bu istiqamətdə görülən maarifçilik tədbirlərinin vacibliyini vurğulayıb. Bildirib ki, dörd il davam edən layihə çərçivəsində aparılan tədqiqatlar görülən işin uğurlu olduğunu göstərir. Rektor qeyd edib ki, XXI əsrdə təhsilalanların problemlərinin öyrənilməsi xüsusilə aktualdır. ABŞ, Avropa ölkələri, MDB və Azərbaycan alimlərinin araşdırmaları göstərir ki, hipodinamiya, səmərəsiz qidalanma, stresslər və zərərli vərdişlər uşaq və gənclərin sağlamlığında ciddi problemlər yaradır. Dünya statistikasına əsasən, bu gün məktəb məzunlarının cəmi 2-15 faizi yetkin həyata sağlam fərdlər kimi daxil olur.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov bildirib ki, Təhsil Nazirliyi tərəfindən son illər həyata keçirilən layihələr gənc nəslin təhsillə yanaşı, tərbiyəsində də böyük rol oynayır. 2014-cü ildən başlayan bu layihə bu günədək Bakı və Sumqayıtın 35 məktəbinin 116 sinfində tətbiq olunub. Bu cür layihələrin uğuru ilk növbədə ibtidai sinif müəllimlərindən asılıdır. C.Cəfərov bu istiqamətdə kadr hazırlığı haqqında da məlumat verib. Qeyd edib ki, layihənin əsas məqsədi fiziki və mənəvi sağlam, yüksək təlim və yaradıcılıq nailiyyətlərinə malik proqressiv vətəndaş yetişdirməkdən ibarətdir.

Təhsil nazirinin müşaviri Həsən Həsənli layihə barədə tədbir iştirakçılarına geniş məlumat verib.

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Bəxtiyar Əliyev isə hesab edir ki, cəmiyyətin sağlamlaşdırılması hər bir dövlətin qarşısında duran əsas məsələlərdəndir. Layihə barədə danışan Bəxtiyar Əliyev qeyd edib ki, görülən işin uğuru onun müxtəlif peşə sahiblərini bir arada toplamasından irəli gəlir. "Sağlam təhsil-sağlam millət" layihəsi sağlam gələcəyin yetişdirilməsində böyük addımdır.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Monitorinq, təhlil və İT şöbəsinin müdiri İsa Əliyev bildirib ki, layihənin tətbiqi sağlam gələcəyin formalaşmasında böyük rol oynayacaq.

Konfransda, həmçinin vurğulanıb ki, icbari tibbi sığorta sistemində uşaqlar sığorta haqqı ödəməkdən azad olacaqlar. Onlara tibb müəssisələrində göstərilən bütün tibbi xidmətlərin xərcləri Agentliyə dövlət tərəfindən ödəniləcək. Həyata keçirilən layihə də bu baxımdan böyük əhəmiyyət daşıyır.

Konfransa qonaq qismində Uşaq və yeniyetmələrin sağlamlığının mühafizəsi və gigiyenası ETİ-nun direktoru, Rusiya Federasiyası Elmlər Akademiyasının müxbir üzvü, professor V.R.Kuçma da qatılıb. O, məktəblərdə sağlamlığın təşviq olunmasının əhəmiyyətindən bəhs edib, həmçinin sağlam həyat tərzinin şagirdlərə aşılanmasının vacibliyini vurğulayıb.

Qeyd edək ki, elmi-praktik konfransda təxminən 200 nümayəndə, o cümlədən alim, müəllim və müxtəlif dövlət qurumlarının nümayəndələri, məktəb direktorları iştirak ediblər.

# Bakı İdarəetmə və Texnologiya Kollecində könüllülərlə görüş



Bakı İdarəetmə və Texnologiya Kollecinin 112 tələbəsi IV İslam Həmrəyliyi Oyunlarına könüllü qismində qatılacaq. Kollec rəhbərliyi həmin tələbələrlə görüşüb. Görüş 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar Prezident İlham Əliyevin imzaladığı sərəncamdan irəli gələn məsələlərin həlli məqsədi ilə Təhsil Nazirliyinin 27 fevral 2017-ci ildə təsdiq olunan Tədbirlər Planına uyğun olaraq keçirilib.

Kollecin direktor müavini Xalid Məcidov İslam Həmrəyliyi Oyunları barədə geniş məlumat verib. Bu yarışların İslam Həmrəyliyi İdman Federasiyası (İHİF) tərəfindən keçirilən çoxmillətli, çoxnövlü idman tədbiri olduğunu vurğulayıb.

Kollecin direktoru Varis Allahverdiyev mayın 12-22-də Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarında dünyanın 4 qitəsindəki 57 ölkədən 5 mindən artıq atletin 21 idman növü üzrə 270 dəst medal uğrunda mübarizə aparacağını tələbələrin diqqətinə çatdırıb. Bildirib ki, "Gücümüz həmrəylikdədir" şüarı altında Bakıda təşkil ediləcək oyunlara ümumilikdə 8 min könüllü cəlb edilib və onların 112 nəfəri kollecin tələbəsidir. Bunu gənclərə, tələbələrə, o cümlədən Bakı İdarəetmə və Texnologiya Kollecinin tələbələrinə göstərilən böyük etimad, inam kimi dəyərləndirən V.Allahverdiyev tələbə-könüllülərə üzərlərinə götürdükləri vəzifəyə daha məsuliyyətlə yanaşmağı, nümunəvi davranışları ilə Bakı İdarəetmə və Texnologiya Kollecinin adını ucaltmağı tövsiyə edib.

Direktor V.Allahverdiyev "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanın təbliğində və tanıdılmasında xüsusi yer tutduğunu da dilə gətirib. Qeyd edib ki, bu cür beynəlxalq əhəmiyyətli tədbirlərə Azərbaycanın ev sahibliyi etməsi iqtisadi və siyasi cəhətdən əhəmiyyətli hadisədir.

Görüşdə kollecin tələbə - könüllüləri də çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

# Zaqafqaziya Müəllimlər Seminariyasının azərbaycanlı məzunlarının pedaqoji fəaliyyətlərinə işıq salındı

**Almaz HƏSRƏT,**
*əməkdar müəllim*

Aprelin 18-də Bakı şəhərində, Nəriman Nərimanovun ev-muzeyində "Pedaqoji irs və müasir yanaşmalar" mövzusunda tədbir keçirilib. Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasının azərbaycanlı məzunlarının pedaqoji fəaliyyətlərinə həsr olunmuş tədbir Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin layihəsi çərçivəsində baş tutub. Tədbirdə təhsil tariximizə şərəfli səhifələr yazmış, yetirmələrinin sədası ölkəmizin hər bir şəhər və kəndindən gələn, təhsilimizə böyük töhfələr verən Zaqafqaziya Müəllimlər Seminariyasının azərbaycanlı məzunlarının pedaqoji fəaliyyətlərinə işıq salınıb.

Məlumdur ki, hər bir millətin tərəqqisi üçün ilk növbədə onun möhkəm təhsil bünövrəsinin olması lazımdır. Bu bünövrə Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin məzunları olub. Xalqı üçün ürəyini şama çevirən, müqəddəs amallı, əsl ziya və zəka qüdrətli, yaradıcılıq ehtiraslı həmin məzunlara xalqımızın dahi oğulları Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Cəlil Məmmədquluzadə, Rəşid bəy Əfəndiyev, Əhməd Seyidov və başqalarını misal göstərmək olar. Məktəb tariximizin bünövrəsi məhz həmin ziyalılarımızın sayəsində möhkəm qoyulduğundan bu gün o təməl üzərində öz ənənələrimizi yaşadaraq, zənginləşdirərək ucala bilirik. Bu təməli qoyanlar barədə tarixi məlumatların yeni nəslə ötürülməsində Azərbaycanımızın ən say-seçmə oğulları, maarif və mədəniyyət xadimlərinin böyük rolu olmuşdur. Onlar ölkəmizdə yüksək təhsil mühitinin formalaşmasına, xalqımız üçün dəyərli pedaqoji kadrlar hazırlanmasına öz böyük töhfələrini vermişlər.

Təbiidir ki, yüksək təhsilli, əqidəli, hazırlıqlı insanlar məhz özləri kimi dərin bilikli, yüksək peşə hazırlıqlı və vətənpərvər ruhlu müəllimlər hazırlamışlar. Belə mükəmməl pedaqoqlardan dərs almış pedaqoji elmimizin canlı əfsanəsi, elmimizin və elimizin ağsaqqalı, pedaqoji elmlər doktoru, professor, Rusiya Təhsil Akademiyasının akademiki Hüseyn Əhmədov məruzəsində Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasının və onun azərbaycanlı məzunlarının fəaliyyəti barədə fikir yoluna işıq tutdu. Hüseyn Əhmədov 130 il bundan əvvəl Gürcüstanın Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində açılan Azərbaycan şöbəsindən geniş söhbət açdı. Məlum olduğu kimi, Sovet hakimiyyətinə qədər Azərbaycanda müəllim kadrları hazırlayan xüsusi məktəb yox idi. Bütün Zaqafqaziya üzrə müəllim kadrları hazırlayan yalnız Qori seminariyası idi. H.Əhmədov seminariyanın Azərbaycan şöbəsinin 40 il sonra xalqımızın maarifpərvər ziyalısı, seminariyanın ilk məzunu və müəllimi Firidun bəy Köçərlinin ağır zəhməti nəticəsində Qazax rayonuna köçürüldüyü barədə geniş danışdı. Bildirdi ki, 40 il fəaliyyət göstərən bu tədris ocağı Azərbaycana 250-dən artıq müəllim, ictimai-siyasi, mədəniyyət xadimi, böyük şəxsiyyətlər verib. Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsini bitirən hər bir azərbaycanlının həyatını xalqımızın azadlığı və istiqlalı uğrunda şam kimi əritdiyini, onların hər birinin bir tarix, bir şəxsiyyət, ustad, işıqlı ziyalı olduğunu bildirdi. O çıxışında qeyd etdi ki, o dövrdə azərbaycanlılar üçün seminariyanın açılması heç də asan olmamışdı. Hüseyn Əhmədov bu müqəddəs pedaqoji tariximizi daim yaşatmağımızı və onun bütün məzmununu gələcək nəslə ötürülməsini davam etməyi tədbir iştirakçılarına tövsiyə etdi.

Çıxışların sonunda yekun olaraq ARTİ-nin şöbə müdiri, pedaqoji elmlər doktoru Hümeyir Əhmədov da Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin mütərəqqi fikirli məzunları və onların pedaqoji irsi barədə əlavə məlumat verdi. Seminariyanın azərbaycanlı məzunlarının ölkəmizin xalq maarifinin, məktəb-təhsil işinin yayılmasında, mədəniyyətin və ictimai-pedaqoji fikrin inkişafında mühüm tarixi xidməti və rolu olduğu haqqında maraqlı fikirlər səsləndirdi. Tarixi hadisələrin amansız soyuq üzünün təsirindən Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasının binasına düşən bombanın nəticəsində arxivin yanmasını, orada olan sənəd və materialların külə dönməsini qeyd etdi. Nəticədə çox az qisimdə arxiv materiallarına görə azərbaycanlı məzunlar barədə məlumat əldə edildiyini bildirdi. Lakin seminariyada tədrisin məzmununu əks etdirən materialların əldə olmamasını nəzərə çatdırdı. Hümeyir Əhmədov bu hadisə ilə əlaqədar olaraq çıxışında tədbir iştirakçılarına pedaqoji tariximizin, o cümlədən milli təhsil tariximizin hər bir səhifəsinə böyük hörmət və ehtiram əlaməti olaraq Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan bölməsi və Qazax Müəllimlər Seminariyasında tədris olunan fənlərin məzmunu ilə bağlı arxiv sənəd və materialların, digər əlavə tarixi mənbələrin toplanması prosesində yardımçı olmalarına çağırış etdi.

Tədbirdə institutun doktorantı, təhsil müzeyinin direktor müavini Zülfiyyə Şiriyeva, Təhsil İnstitutunun Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri, respublikanın əməkdar müəllimi Almaz Həsrət, institutun əməkdaşı Zəfər Cəfərov iştirak edirdilər.

Hörmətli həmvətənlərimiz! Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasının, Azərbaycan bölməsinin, həmçinin Qazax Müəllimlər Seminariyasının azərbaycanlı məzunlarının fəaliyyətlərini özündə əks etdirən tarixi əlyazmaları, arxiv sənədləri, materialları barədə əlinizdə olan hər hansı bir məlumat varsa, onları Təhsil İnstitutuna gətirərək, Elmi-pedaqoji kadr hazırlığı şöbəsinə təhvil verməyinizi rica edərdik. Bu addımla hər birimiz bir vətəndaş olaraq, pedaqoji irs tariximizin təməlinin əsasını qoymuş mütərəqqi təhsil fədailəri, onların aldıqları təhsilin məzmunu barədə institutumuzun arxivinin zənginləşməsinə kiçik də olsa öz töhfəmizi vermiş olardıq.

# “Təhsildə ümumbəşəri dəyərlər dünyamızı xilas edəcək”

## *Tailand Kral ailəsinin üzvü, tanınmış pedaqoq, professor Art Onq Djumsai:*
## “Yalnız cəmiyyət həyatını dəyişə bilmək gücündə olanlar müəllim ola bilər”



**Oruc MUSTAFAYEV**

Məlum olduğu kimi, Bakıda Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU), ADPU nəzdində Dövlət Pedaqoji Kolleci və Respublika Humanist Pedaqogika Mərkəzinin birgə təşkilatçılığı ilə ümumbəşəri dəyərlərin təhsilə inteqrasiyası mövzusunda növbəti ikigünlük pedaqoji seminar başa çatıb. Təhsil ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanan seminarın budəfəki müəllifi məşhur pedaqoq, Tailand Kral ailəsinin üzvü, Tailand Texnoloji Elmi-Tədqiqat İnstitutunun direktoru, NASA-nın əməkdaşı, professor Art Onq Djumsai olub. Doktor Djumsai Böyük Britaniyanın Kembric Universitetində təbiət-texnika elmləri üzrə təhsil alıb. Bir müddət elmi tədqiqatlarla məşğul olsa da sonralar pedaqogikaya meyil edib. Kembric Universitetində mühazirələr oxuyub, seminarlar keçib. Kembric Universitetinin magistr, London Kral Kollecinin doktorluq elmi dərəcələrini alıb. 1976-cı ildə NASA-nın əməkdaşı kimi Marsa uçmuş “Vikinq” modullarının yerə enməsi sisteminin hazırlanmasında iştirak edib. Raketlərin yaradılması üzrə (yağışın süni yaradılması layihəsi) Milli Elmi-Tədqiqat Şurasının ekspertidir. 1996-cı ildə Tailandda ümumbəşəri dəyərlər əsasında fəaliyyət göstərən və dünyada analoqu olmayan məktəb yaradıb, ona rəhbərlik edir. Məktəbdə 180 uşaq təhsil alır. Onlar sevgi, qarşılıqlı anlaşma və əməkdaşlıq mühitində təhsil alırlar. Konfransın sonuncu günündə professor Djumsai “Azərbaycan müəllimi” qəzetinə müsahibə verdi. Söhbətimizə doktor Djumsainin bir vaxtlar elmi tədqiqatlardan pedaqogikaya necə keçməsi ilə körpü saldıq.

- Əlbəttə ki, hər şey birdən-birə baş vermədi. Müəyyən bir keçid dövrü yaşadım. Universiteti bitirdikdən bir müddət sonra ali məktəbdə professorluq etmişəm. Universitetin mühəndislik fakültəcində çalışmışam. Elə o zaman da mən ümumbəşəri dəyərlərə əsaslanan elmi kursu tədris etməyə başlamışam. Mən belə bir qənaətə gəlmişdim ki, tələbələrim yaxşı mühəndis olmaqla yanaşı, həm də əsl, xeyirxah insan olmalıdırlar. Mən heç istəmirdim ki, onlar hansısa ixtira etsinlər və bu ixtira dünyanın məhvinə yol açsın. Arzu edirdim ki, tələbələrim elm yolunda irəliləməklə, layiqli vətəndaş olmaqla cəmiyyətin rifahı naminə xidmət göstərsinlər. Bu, nə qədər mümkündür, ona çalışırdım. İstəyirəm ki, onlar başqalarına da kömək etməklə yaxşı vətəndaş olsunlar. Buna görə də mən hələ universitetdə işləyərkən mühəndislik bilikləri verməklə yanaşı tələbələrimin şəxsiyyət kimi formalaşmasına böyük diqqət göstərirdim. Bir müddət sonra universitet auditoriyasını tərk edərək öz ideyalarımı daha geniş yaymaq məqsədilə cəmiyyət arasına çıxmağa qərar verdim. Biznesmenlərlə məşğul olmağa başladım, onlara ümumbəşəri dəyərləri öyrədirdim. Lakin biznesmenləri dəyişmək çox çətin idi *(gülür)*. Sonradan siyasətçilərlə məşğul olmağa başladım. Çünki mən parlamentin üzvü idim. Dəfələrlə parlamentdə ümumbəşəri dəyərlər mövzusunda çıxışlar etmişdim. Lakin bu dəyişiklikləri siyasətçilərə çatdırmaq çox çətin idi. Yəqin bilirsiniz, siyasətçiləri dəyişmək daha çətin işdir. Mən 3 dəfə parlamentin üzvü seçilmişəm. Eləcə də parlamentdə müvafiq komitənin sədri olmuşam. Mən istəyirdim ki, parlamentdə təmsil olunanlar da ölkənin rifahı naminə gözəl siyasətçilər olsunlar. Lakin bu mümkün deyildi. Ona görə də pedagogikaya keçdim.

**- Siz Böyük Britaniyada orta məktəbin ən yaxşı şagirdi seçilmisiniz? Buna necə nail oldunuz?**

- Həyatımın müəyyən mərhələsində başa düşdüm ki, bütün səylərim ona yönəlməlidir ki, mən yaxşı insan olmalıyam. 15 yaşım olanda həyatım tam dəyişdi, başa düşdüm ki, həyatda əsas amalım başqalarına kömək göstərməyə yönəlməlidir. Bu yaşa qədər çox nadinc idim. Başa düşdüm ki, nadinclik sonda yaxşılığa gətirib çıxarmayacaq. Mən başqalarına kömək etməliyəm ki, onlar dəyişsinlər və həyatda xoşbəxt olsunlar. Maraqlı kitablar oxuyur, dinlə maraqlanırdım. Özümü öyrənməyə, tədqiq etməyə başladım və həyatım tam dəyişdi. Daha çox gülümsəməyə başladım, pis işlərə son qoydum. Məktəbin ən yaxşı şagirdi seçildim və tezliklə Kembric Universitetinə daxil olmağa nail oldum. Bu, bilirsiniz ki, İngiltərənin ən yaxşı universitetlərindən biridir. Universitetdə oxuyarkən sakit bir yerdə oturaraq meditasiya ilə məşğul olmağa, öz fikirlərimi, düşüncələrimi, diqqətimi cəmləşdirməyə səfərbər etməyə başladım. Bir qrup tələbə yoldaşım da mənə qoşularaq məndən öyrənməyə çalışırdı. Tələbələr meditasiyanın mənasını öyrənməyə cəhd edirdilər. Onların çoxu sonradan uğurlu insanlar oldu. Çünki onlar öz ağıllarını, zəkalarını cəmləşdirməyi öyrənmişdilər. Mən Kembric Universitetində cəmi 2 il oxudum, adətən tam təhsil kursu 3 il davam edir. Mənə 2 ilə elmi dərəcə verdilər. Daha sonra elmi fəaliyyətə başlayıb namizədlik dissertasiyası üzərində işləməyə başladım. Bundan sonra bütün ölkəni gəzərək tələbələrə ümumbəşəri dəyərlər proqramını tədris etdim. Mən bir çox insana fikirlərini cəmləşdirməyin, diqqətli olmağın yollarını göstərmişəm. Həyatım dəyişdi və daha çox insana dəyərləri öyrətməyə başladım. Mənə həm də elmi işimi müdafiə etmək lazım idi. Bir dəfə universitetin həyətində sakit bir yerdə meditasiya ilə məşğul olmağa başladım. Birdən qarşımda geniş bir lövhə açıldı, mən başa düşməyə başladım ki, artıq çox şeyi başa düşür və anlayıram. Mən xüsusi aparat - mikrodalğalı gücləndirici hazırladım. O vaxt bu cür ixtiralar yox idi. Bu, hardasa tamamilə yeni bir şey idi. Bütün bunlar mənim elmi işimdə əksini tapdı. Fəlsəfə doktoru elmi dərəcəsi aldıqdan sonra Tailanda qayıtmağa qərar verdim. Çünki başa düşürdüm ki, vətənə qayıtmalı və ölkəmə kömək etməliyəm. Buna görə də Tailanda qayıtdım və müəllimliklə məşğul olmağa başladım. Baxmayaraq ki, mühəndislik ixtisası üzrə təhsil almışam, ümumbəşəri dəyərlər proqramını tədris edirəm. İstəyirəm ki, həm professorlar, həm də tələbələr xeyirxah və nəcib insanlar olsunlar. Düşünürəm ki, təhsildə ümumbəşəri dəyərlər dünyamızı xilas edəcək.

**- Ümumbəşəri dəyərlərin təhsilə inteqrasiyası nəyi ehtiva edir?**

- Bizim proqrama əsasən, ümumbəşəri dəyərlərin təhsilə inteqrasiyası 5 prinsipə - düzgün davranış, sülh, həqiqət, sevgi, qeyri-zorakılığa əsaslanır. Bütün bu dəyərlər bir-biri ilə bağlıdır. Onları bir-birindən ayırmaq olmaz. Dəyərlərin qarşılıqlı əlaqəsi var. Şagirdlərə informasiya dəyərlər şəklində verilməlidir. Tədrisə pozitivlik qatılmalıdır. Biz müəllimlər üçün ümumbəşəri dəyərlərə əsaslanan metodik vəsait hazırlamışıq. Məsələn, riyaziyyat dərsliyində bu məzmunda məsələ qoyulur: “Meşədə 10 inək var idi. Onlardan 7-ni oğurladılar. Neçəsi qaldı?”. Biz hesab edirik ki, məsələnin bu cür qoyuluşu kökündən səhvdir. Bizim proqramda bu məsələ belə qoyulur: “Babanın 10 inəyi vardı. Onlardan 7-ni nəvəsinə hədiyyə etdi. Neçəsi qaldı?”. Biz “oğurlandı” sözünü “hədiyyə etdi” sözü ilə əvəz etməklə fənnə dəyər vermiş olduq. Buna görə də müəllim hansı fənni tədris etməyindən asılı olmayaraq keçdiyi dərsə dəyər qatmalıdır. İstənilən fəndə, hətta futbolda belə, dəyər olmalıdır. Futbolu tədris edərkən biz uşaqlara təkcə qapıya top vurmağı deyil, həm də komanda halında oynamaq zərurəti kimi dəyər vermiş oluruq. Komanda halında oynamaq, paylaşmaq dəyərdir. Həyatda yaxşı nə varsa, paylaşmaq lazımdır. Siz hər şeydə yaxşını görməlisiniz. Sizi təhqir etsələr belə, bunu havanın vibrasiyası kimi qəbul edin. Bizim proqramda ali dəyər sevgidir. Uşaqlar məhz ümumbəşəri dəyərlərin vasitəsi ilə müxtəlif maneələri aşaraq sevgiyə gedən yolu tapmalıdır.

**Məktəb həyatında, tədris prosesində ümumbəşəri dəyərlərin şagirdlərə çatdırılmasında əsas rol müəllimə məxsusdur. Bu, birmənalı olaraq belədir. Əsl müəllim fədakarlıq, mərhəmət nümayiş etdirməlidir.**

**- Ümumbəşəri dəyərlər bizə, müəllimlərə, cəmiyyətə nə verir?**

- İlk növbədə lazımdır ki, cəmiyyətin hər bir üzvü mehriban, xoşbəxt olsun. Hər zaman xoşməramlı, gülümsər olsun və cəmiyyətə rifah gətirsin. Buna görə də müəllimlər ölkə qarşısında öz məsuliyyətlərini başa düşərək ümumbəşəri dəyərləri cəmiyyət üzvlərinə necə çatdırmalı olduqları barədə düşünməlidirlər. Biz dəyərləri təhsil məkanına gətirərək onu nəzərdə tuturuq ki, təhsilverənlər səmimi, mehriban, xeyirxah olsunlar. Buna görə də mən bu proqramın həyata keçirilməsinə çox vaxt ayırıram ki, müəllimlər onu hər yerdə yaysınlar. Lakin bir müddət sonra hiss etdim ki, bu vəzifənin öhdəsindən gəlmək o qədər də asan iş deyil. Çünki insanlara nümunə lazımdır. Yalnız nümunəyə baxarkən insanlar dəyişirlər. Buna görə də mən Tailandda bu məktəbi yaratmağa başladım. Məqsədimiz şagirdlərin ölkənin layiqli, gözəl vətəndaşları olmaları üçün onları ümumbəşəri dəyərlər ruhunda tərbiyə etmək idi. Buna görə də bizim şagirdlərin daxili aləmi ümumbəşəri dəyərlərlə tam doludur. Biz bu məqsədə nail olandan sonra məktəbə çox sayda insanlar axışmağa başladı. Onlara maraqlı idi bizim məktəbdə baş verənlər. Onlar soruşurdular ki, siz bütün bunlara necə nail ola bilmisiniz? Hər həftə 2 minə yaxın insan məktəbimizin fəlsəfəsini öyrənmək üçün təhsil ocağına baş çəkir. Dünyanın müxtəlif ölkələrindən müəllimlər gəlir. Biz hətta hökumətlə də qarşılıqlı əlaqədəyik, onlar bizim işlərə çox maraq göstərirlər. Buna görə də biz tədris proqramlarında ümumbəşəri dəyərləri nəzərə alan dəyişikliklər etməyi nəzərdə tuturuq.

Qeyd edim ki, ümumbəşəri dəyərləri dərslərinə inteqrasiya edən müəllimlər həyatlarının dəyişdiyini bildirirlər. Nədir bu dəyişiklik? Onlar deyirlər ki, daxili rahatlıq və tarazlıq əldə ediblər. Hər iki amil müəllimlik fəaliyyətində mühümdür.

**- Ancaq hər bir tədris müəssisəsinin əməl etdiyi tədris proqramları var. Ümumbəşəri dəyərlər vahid standartlarla necə ayaqlaşmalıdır?**

- Məlum olduğu kimi, dünyanın bir çox ölkələrində təhsil proqramlarını dəyişmirlər. Biz nə etməliyik? Bizim məqsədimiz ümumbəşəri dəyərlərin məktəblərdə tədris olunan bütün fənlərə inteqrasiya olunmasına nail olmaqdır. Bununla belə, tədris proqramlarını dəyişmək lazım deyil. Lakin hər bir müəllim bilməlidir ki, ümumbəşəri dəyərləri tədris etdiyi fənlərə necə inteqrasiya etməlidir. Mən bütün dünyanı gəzirəm, heç yerdə tədris proqramlarını dəyişməyə çağırmıram. Mən yalnız onlara öyrədirəm ki, əsl müəllim, alicənab müəllim olsunlar. Dəyərlərə sahib yeni nəsil kimi yetişsinlər. Biz mehribanlıq, sevgi və qarşılıqlı anlaşma şəraitində yaşamalıyıq. Onlar hər zaman yaxşı insanlar olmalı və həmişə həqiqəti deməlidirlər. Gələcək hədəflərə yol həqiqət, sevgi və xeyirxahlıqdan keçir. Mənim yaratdığım proqram bütün bunları nəzərdə tutur və öz işimdə bu dəyərləri nəzərdə tuturam. Qeyd edim ki, bizim məktəbdə tədris olunan bütün fənlər bəhs etdiyimiz ümumbəşəri dəyərlərə əsaslanır. Əlbəttə ki, biz ölkənin Təhsil Nazirliyinin hazırladığı, məktəblərə göndərdiyi standartları da nəzərə alırıq. Biz tədris etdiyimiz istənilən fənni redaktə edə bilərik.

**Bizim proqrama əsasən, ümumbəşəri dəyərlərin təhsilə inteqrasiyası 5 prinsipə - düzgün davranış, sülh, həqiqət, sevgi, qeyri-zorakılığa əsaslanır... Şagirdlərə informasiya dəyərlər şəklində verilməlidir.**

**Ümumbəşəri dəyərləri dərslərinə inteqrasiya edən müəllimlər həyatlarının dəyişdiyini bildirirlər. Nədir bu dəyişiklik? Onlar deyirlər ki, daxili rahatlıq və tarazlıq əldə ediblər. Hər iki amil müəllimlik fəaliyyətində mühümdür.**

**- Sizcə, internet dövründə ümumbəşəri dəyərlərin yeri hardadır?**

- İlk növbədə qeyd edim ki, ümumbəşəri dəyərlər istənilən tədris prosesinin əsaslarını təşkil etməlidir. Məsələn, bizim ölkədə uşaqlar kompüterdən çox fəal şəkildə istifadə edirlər. Lakin biz müəllimlər çalışırıq ki, kompüterdən istifadə zamanı ümumbəşəri dəyərlərin əsas prinsipləri qorunsun və cəmiyyətə xidmət etsin. Bütün texnologiyalarda çalışmaq lazımdır ki, ümumbəşəri dəyərlər öz əksini tapsın. Qabaqcıl texnologiyalardan kimlərinsə öz maraqları naminə istifadə olunmasına yol vermək olmaz. Bu və ya digər texnologiyalar cəmiyyətin inkişafına xidmət etməlidir. Buna görə də qloballaşma və internet dövründə əsas vəzifə ümumbəşəri dəyərlərin qorunub saxlanması və ona əməl olunmasıdır.

**- Siz əsl müəllimi necə görürsünüz?**

- İlk növbədə, əsl müəllim yetirmələri- istər şagird, istərsə də tələbələri üçün bir nümunə, örnək olmalıdır. Elə bir müəllim ki, yetirmələri həyatda ona oxşamağa çalışsınlar, ondan nümunə götürə bilsinlər. Yalnız bu halda təhsilalanlar müəllimlərinin arxasınca gedəcəklər. O zaman onlar dəyişəcək, hər şey müəllimdən asılıdır. Deməli, məktəb həyatında, tədris prosesində ümumbəşəri dəyərlərin şagirdlərə çatdırılmasında əsas rol müəllimə məxsusdur. Bu, birmənalı olaraq belədir. Əsl müəllim fədakarlıq, mərhəmət nümayiş etdirməlidir.

**- Necə bilirsiniz, ümumbəşəri dəyərlərə əsaslanan proqram məktəbin, cəmiyyətin problemlərini həll edə bilərmi?**

- Qarşımıza qoyduğumuz məqsəd elə budur. Əlbəttə ki, bu, müəyyən vaxt aparan prosesdir. Bunun üçün isə, ilk növbədə, bu gün siyasətçilər ölkə həyatının bütün sahələrində keyfiyyət dəyişikliklərinin aparılması barədə düşünməlidirlər. Əgər biz müəllimlər bunu ümumbəşəri dəyərlərə əsaslanaraq məktəb səviyyəsində ediriksə, şagirdlərimiz böyüyüb layiqli vətəndaşa çevrilirsə, biz burada qazanırıq. Onlardan kimsə böyüyəndə siyasətçi olacaq. Əlbəttə ki, bütün bunlar dəyişikliklərə gətirib çıxaracaq. Lakin bunlar müəyyən vaxt aparacaq. Mənim yaratdığım məktəb Tailandda 26 ildir ki, fəaliyyət göstərir. Məktəbin keçmiş şagirdləri artıq tələbələrdir. Qeyd edim ki, məzunlarımızın 100 faizi ali məktəbə daxil olurlar. Onların əksəriyyəti elmi dərəcə alıb. Müxtəlif yerlərdə elmlə məşğuldurlar. Tailandın indiki təhsil naziri də bizim məzundur. İndi məzunlarımız öz həyatlarında yaşadıqları dəyişiklikləri cəmiyyətin inkişafına həsr edirlər. Lakin bunu təkcə bizim məktəbdə deyil, bütün məktəblərdə etmək lazımdır. Əks halda, insanların heç də hamısı ideyaqabiliyyətli olmayacaqlar. Buna görə də bizim məktəb bütün ölkə üçün şagird hazırlayır. Hazırda ölkədə nəzərəçarpan dəyişikliklər hiss olunmaqdadır. Bu isə ümumbəşəri dəyərlərin qələbəsidir. Bir faktı da deyim. Məktəb ölkənin yeganə təhsil ocağıdır ki, burada xəstə uşaq yoxdur, xəstəliklərə tutulma riski də yoxdur. Tailandın Səhiyyə Nazirliyi artıq bu fenomeni öyrənməyə qərar verib. Səbəb isə aydındır: məktəbimizdə uşaqlar təbiətlə təmasda, tam sevgi və qarşılıqlı anlaşma şəraitində təhsil alır. Şagirdlərə verilən meyvə-tərəvəz məktəbin həyətində yetişdirilir.

**- Sizcə, istənilən şəxs müəllim ola bilərmi?**

- Diqqət yetirək, biz şagirdləri həyata hazırlayırıq. Onlar getdikcə böyüyür və gözəl müəllimlər olurlar. Çünki əgər dəyərlər uşaqlara kiçik yaşlarından aşılanırsa, bunlar onların şüuraltı yaddaşlarında əksini tapır. Sonra isə onlar başqaları üçün nümunə olurlar. Getdikcə bu insanlar cəmiyyət həyatının istənilən sahəsində fəaliyyət göstərir, hətta hökumətdə də təmsil olunurlar. Lakin bu cür insanları yetişdirmək üçün müəyyən vaxt lazımdır. Biz elə etməliyik ki, dünyada hamı dəyişsin. Uşaqları dəyişmək üçün yaxşı müəllimlər lazımdır. Deməli, yalnız insan həyatını, cəmiyyət həyatını dəyişə bilmək gücündə olanlar müəllim ola bilər. Buna görə də müəllim cəmiyyətdə dəyişiklik yarada bilən yeganə faktordur. Yalnız təhsil vasitəsi ilə dünyanı xilas etmək olar.

**- Təhsildə mənəviyyat faktoruna necə baxırsınız?**

- Əvvəla mənəviyyat dedikdə, bu söz altında nələri başa düşdüyümüzü bilməliyik. Deməli, biz uşaqları öyrədirik ki, onlar yaxşı insanlar olsunlar. Böyük dəyərlərə sahib olsunlar. Eyni zamanda akademik biliklər də qazansınlar. Məhz akademik biliklərin və ümumbəşəri dəyərlərin məcmusu cəmiyyətdə dəyişikliklərə yol aça bilər. Biz onların hər birinə şagirdlərinə ümumbəşəri dəyərləri aşılamağa çalışırıq. Bu nöqtədə mənəviyyat sözündən istifadə etməyə zərurət yoxdur, çünki ümumbəşəri dəyərlər var. Biz mənəviyyat sözü əvəzinə ümumbəşəri dəyərlər sözündən istifadə edə bilərik. Bizdə müxtəlif dinlərə məxsus uşaqlar təhsil alır. Mən 3 dəfə Səudiyyə Ərəbistanının təhsil nazirinin dəvəti ilə bu ölkədə səfərdə olmuşam. Qeyri-din daşıyıcısı olduğum üçün əvvəlcə mənə çıxış etməyə imkan vermirdilər. Lakin proqramımızla tanış olduqdan sonra mənə çıxış etmək üçün 15 dəqiqə vaxt verdilər. Lakin vaxt bitdikdən sonra çıxışımı davam etdirməyi xahiş etdilər. Beləcə, mən 15 dəqiqə əvəzinə 3 saatlıq çıxış etdim. Onlar məndən artıq ölkənin müəllimləri, professorları üçün mühazirələr oxumağımı xahiş edirlər. Yəni, onlar ümumbəşəri dəyərlərin hamı üçün hər zaman universal əhəmiyyət daşıdığını başa düşdülər.

**- Ölkəmizdə pedaqoji seminarların təşkilini necə qiymətləndirirsiniz?**

- Mən ilk dəfədir ki, Azərbaycandayam. Əlbəttə ki, bu cür seminar və təlimlər müəllimlər üçün mühüm əhəmiyyət daşıyır. Bu cür tədbirlər əhəmiyyətli təcrübə meydanıdır. Mən təlim və seminarlarımda müəllimlər üçün çox vacib olan dəyərləri təqdim edirəm. Ölkənizdə ilk dəfə olduğum üçün deyə bilərəm ki, növbəti gəlişim mənim üçün daha maraqlı olacaq. Növbəti səfərimdə azərbaycanlı müəllimlərin ümumbəşəri dəyərlərdən necə yararlandığının şahidi olacağam. Bütün bunlar, bir daha deyirəm, çox faydalıdır. Mən Avropa, Afrika, Asiya ölkələrində, ABŞ-da, Fransada, Rusiyada müəllim hazırlığı kursları keçirmişəm. 2000-ci ildən başlayaraq 5 dəfə Qazaxıstanda ölkənin birinci xanımının təşəbbüsü ilə seminarlar keçirirəm. Artıq 2017-ci ildə 100-ə yaxın qazaxıstanlı müəllimin bizim məktəbdə təcrübə keçməsi qərara alınıb. Məktəbimizdə digər ölkələrdən olan müəllimlər üçün 2,5 aylıq, 2 həftəlik pulsuz kurslar təşkil edirik. Artıq ümumbəşəri dəyərlərə dair təkliflərimi Qazaxıstanın Təhsil Nazirliyinə də təqdim etmişəm. Sonda azərbaycanlı müəllimlərə öz fəaliyyətlərində uğurlar arzulamaq istəyirəm.

# Yalnız ingilis dilində

## Danışıq klubları xarici dildə ünsiyyət komplekslərini aradan qaldıracaq

⇦ Əvvəli səh.1

**Niyazi RƏHİMOV**

**Təranə ƏLİYEVA,**
*20 nömrəli məktəb-liseyin ingilis dili müəllimi, "Danışıq klubu"nun koordinatoru*

Klubun açılışını məktəbin tarixində əlamətdar bir gün hesab edirəm. Bu layihənin çox səmərəli olacağını düşünürəm. Burada şagirdlər özlərini daha sərbəst, rahat hiss edəcəklər. Eyni zamanda bir-birləri ilə ünsiyyətdə olduqca nitq vərdişləri də artacaq. Belə olduğu təqdirdə şagirdlər ingilis dilində sərbəst ünsiyyət qura biləcəklər.

Şagirdlərin əksəriyyəti bu kluba üzv olmaq arzusundadır. Onların arzularını reallaşdırmaq məqsədilə ingilis dilini tədris edən müəllimlər könüllü şəkildə, növbəli olaraq klubda fəaliyyət göstərəcək. Sizin də gördüyünüz kimi, bu gün ilk dəfə klubda məşğələ reallaşdırdıq. Bu məşğələ zamanı bir daha əmin oldum ki, şagirdlərdə ingilis dilinə böyük maraq var. Çalışmalıyıq ki, klubda keçirilən məşğələlər daha çox əyləncə xarakterli, şagirdlərin istək və maraqlarına uyğun olsun. Bu gün uşaqların gözlərində gördüyümüz sevinc hissi biz müəllimlərə əlavə stimul verəcək. Nəzərə çatdırım ki, məktəbdə ingilis dilindən metodik birləşmənin rəhbəriyəm. İngilis dili müəllimləri ilə müzakirələr aparıb klubun fəaliyyətini daha da genişləndirməyi, məşğələlərin sayını artırmağı planlaşdırırıq.





### "Əlavə məşğələlərə getməyə ehtiyac olmayacaq"

**Abdulrəhim SADIQOV,**
*məktəb-liseyin V sinif şagirdi, klubun üzvü*

Klubun açılmağına çox sevindim. Artıq ingilis dilini dərindən öyrənmək üçün əlavə məşğələlərə getməyə ehtiyac olmayacaq. Bu fürsətdən maksimum yararlanacam. Bu gün klubda keçirilən məşğələ də çox əyləncəli keçdi. Turpun nağılını ingilis dilində səhnələşdirdik. Klubda müəllimimiz bizə Azərbaycan dilində danışmamağımızı, yalnız ingilis dilində ünsiyyətdə olmağımızı tövsiyə edir.



### "İngilis dilində sərbəst danışmaq mənim arzumdur"

**Həsən HƏSƏNLİ,**
*məktəb-liseyin V sinif şagirdi, klubun üzvü*

İngilis dili fənnini çox sevirəm. Ona görə də məktəbimizdə belə bir klubun açılacağından xəbər tutan kimi kluba üzv oldum. Valideynlərim də həmişə mənə ingilis dilinin çox vacib olduğunu deyir. Ümid edirəm ki, bu klubda çox şey öyrənəcəyik. İngilis dilində sərbəst danışmaq mənim arzumdur. Bu gün klubda həm ingilis dilində danışdıq, həm də özümüzə yeni dostlar tapdıq. Müəllimimizin ingilis dilində apardığı oyunlar çox xoşuma gəldi. Belə davam edərsə çox keçmədən ingilis dilini öyrənəcəyimi düşünürəm.



**Tamilla İSMAYILOVA,**
*məktəb-liseyin V sinif şagirdi, klubun üzvü*

### "Məşğələ zamanı həm öyrəndik, həm də əyləndik"

Məktəbimizdə belə bir klubun açılmağı hamı kimi məni də çox sevindirdi. İlk məşğələmiz də çox maraqlı keçdi. Məşğələ zamanı həm öyrəndik, həm də əyləndik. Məşğələ zamanı hiss etdim ki, ingilis dilini kitabdan oxumaqla danışmaq arasında çox fərq var. Düzdür, dərslərimizdə də ingilis dilində çox danışırıq. Lakin burada ancaq ingilis dilində danışıb, ünsiyyət qururduq. Ona görə də klubdakı məşğələdə ingilis dilində danışmağı daha tez öyrənəcəyimiz fikrindəyəm. Ən böyük arzularımdan biri Londonda yaşamaqdır. Buna görə də ingilis dilində sərbəst danışmağı öyrənməliyəm. Bundan başqa, ingilis dili həm də dünyanın bütün ölkələrində işlənir. Əgər bu dili bilsəm, istənilən ölkəyə rahat gedə bilərəm.

**Fotolar Rəşad RAMAZANOĞLUNUNDUR**

# Azərbaycan tarının atası Sadıqcanın irsinə işıq salındı

**Ağahüseyn ANATOLLUOĞLU,**
*AMK-nın baş elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Azərbaycan Milli Konservatoriyasında hər il musiqi mədəniyyəti xadimlərinin yubileylərini qeyd etmək artıq ənənəyə çevrilmişdir. Bununla bağlı elmi-praktik konfransların keçirilməsi həm sənət korifeylərimizi bir daha xatırladaraq onların yaradıcılıqlarına işıq salmaq, həm də böyüməkdə olan nəslə bu sənətkarlarımızı tanıtmaq, gənc musiqiçilərə öz yaradıcılıq yollarını müəyyənləşdirməkdə yardımçı olmaq baxımından çox əhəmiyyətlidir. Yaxın günlərdə keçirilmiş növbəti belə konfranslardan biri XIX əsr Azərbaycan musiqi mədəniyyəti tarixində böyük iz buraxmış, novator tarzən Mirzə Sadıq Əsəd oğlunun (Sadıqcan) anadan olmasının 170 illiyinə həsr olunmuşdur.

Mirzə Sadıq Əsəd oğlu (1846-1902) XIX əsr Azərbaycan musiqi mədəniyyətinin ən parlaq simalarından biridir. Onun milli musiqi alətlərimizin tacı olan tarla bağlı mükəmməl islahatları yaradıcılıq fəaliyyətinin əsas istiqamətini təşkil edib. Məhz bu səbəbdəndir ki, onun adı çox vaxt tarla yanaşı çəkilmiş, dilimizdə "Sadıqcanın tarı", "Sadıqcan - Azərbaycan tarının atası", "Sadıqcan - tarımızın böyük islahatçısı" kimi ifadələrin yaranmasına səbəb olmuşdur.

Konfransdan bir neçə gün əvvəl AMK-nın "Bakı" zalında Sadıqcana həsr olunmuş eyniadlı kitabın təqdimatı keçirilmiş və təşkilat komitəsi tərəfindən bütün kitabxanalara, toplantı iştirakçılarına və musiqi müəssisələrinə paylanmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və "İşıq" Sosial-İqtisadi İnkişafa Kömək İctimai Birliyi tərəfindən nəşr olunan kitabda Sadıqcana həsr edilən və müxtəlif vaxtlarda mətbuatda dərc olunmuş elmi-publisistik məqalələr, tarixi faktlar və mütəxəssis fikirləri toplanmış, o dövrə aid fotolar daxil edilmişdir. Kitab Azərbaycan və ingilis dillərində çap olunmuşdur.

"Azərbaycan tarının yaradıcısı ustad Sadıqcanın 170 illiyi ilə əlaqədar tanıtım tədbirlərinin keçirilməsi" layihəsinin məntiqi davamı kimi AMK-da baş tutmuş elmi konfransda müəssisənin professor və tələbə heyəti, musiqisevər qonaqlar, yubilyarın qohumları iştirak edirdilər.

Konfransı giriş sözü ilə AMK-nın elmi işlər üzrə prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova açıb, "Mirzə Sadıq Əsəd oğlu Azərbaycan musiqisinin novator sənətkarıdır" mövzusunda məruzə edərək Sadıqcan haqda dinləyicilərə ensiklopedik məlumat verib.

AMK-nın müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Fəxrəddin Baxşəliyev "Azərbaycan tarının pərdə sisteminə dair" mövzusunda çıxış edib. O, tarın temperasiyalı səs düzümündən qabaqkı pərdə sisteminə, bu pərdələrdən istifadə ilə tarın səslənməsinə, Ü.Hacıbəylinin milli lad sisteminə toxunaraq bunlara münasibətini bildirib.

Digər bir maraqlı mövzuda AMK-nın baş elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ağahüseyn Anatolluoğlu məruzə edib. "Azərbaycan tarının ölçü meyarları" haqda danışan natiq, kamil ölçü vahidlərinin insan təfəkkürünün məhsulu olan hər hansı bir əşya - o cümlədən tar üçün vacibliyini qeyd edib, onun inkişaf və təkamülünün məhz bu istiqamətdə mümkünlüyünü açıb göstərib. Mirzə Sadıq yaradıcılığına diqqət çəkərək, onun tar üzərindəki rekonstruktiv dəyişikliklərinin məhz bu kimi səbəblərdən qaynaqlandığını bildirən tədqiqatçı, tar üçün dəqiq ölçü vahidləri sistemi və onun tətbiqinin zəruriliyini qeyd edib.

Qeyd edək ki, Mirzə Sadığın milli musiqi mədəniyyətimizə gətirdiyi yeniliklər çoxşaxəlidir. Bu yeniliklər musiqinin ifaçılıq, alətşünaslıq, bəstəkarlıq və musiqişünaslıq kimi həm müxtəlif, həm də bilavasitə bir-birilə əlaqəli olan sahələrini əhatə edir. Bunlardan başqa, aydın və səlis nitqi, gözəl təşkilatçılıq bacarığı və digər sahələrdəki istedadı da onun şəxsiyyətini səciyyələndirən əsas cəhətlərdəndir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Bakı Slavyan Universiteti

İkinci ali təhsil almaq istəyən şəxslər üçün 2017-2018-ci tədris ilinə aşağıdakı ixtisaslar üzrə tələbə qəbulu

**ELAN EDİR**

1. Azərbaycan dili və ədəbiyyatı müəllimliyi;
2. Dil və ədəbiyyat müəllimliyi (rus dili və ədəbiyyatı üzrə);
3. İbtidai sinif müəllimliyi (Azərbaycan və rus bölmələri üzrə);
4. Xarici dili müəllimliyi (rus, ingilis, alman, fransız dilləri üzrə);
5. Təhsildə sosial-psixoloji xidmət (Azərbaycan və rus bölmələri üzrə);
6. Məktəbəqədər təlim və tərbiyə (Azərbaycan və rus bölmələri üzrə);
7. Beynəlxalq münasibətlər (Azərbaycan və rus bölmələri üzrə);
8. Regionşünaslıq: Azərbaycan, Türkiyə, Polşa, Yunanıstan, Bolqarıstan (Azərbaycan bölməsi üzrə), Rusiya (Azərbaycan və rus bölmələri üzrə).

**Tələb olunan sənədlər:**

* *Rektorun adına ərizə;*
* *Ali təhsil haqqında diplomun və diploma əlavənin notariusda təsdiq edilmiş surəti;*
* *Tərcümeyi-hal;*
* *Şəxsiyyət vəsiqəsinin surəti;*
* *Əmək kitabçasının surəti (işləyənlər üçün);*
* *Foto 4 ədəd 3x4 sm.*

Sənədlər BSU-nun Əlavə təhsil və hazırlıq şöbəsində qəbul edilir.

**Ünvan:** S.Rüstəm küçəsi, 25, BSU-nun əsas binası, I mərtəbə, 103 №-li otaq.
**Email:** elave@tedris-bsu.org
**Sayt:** www.bsu-uni.edu.az:
**Tel.:** (012) 599 08 70 (104);
(055) 285 27 32, 272 80 47;
(051) 221 07 23, 872 97 53; 883 12 21.

**REKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Bakı Slavyan Universiteti

Əlavə təhsil və hazırlıq şöbəsi 2017-2018-ci tədris ili üçün aşağıdakı ixtisaslar üzrə yenidənhazırlanma təhsili üzrə dinləyici qəbulu

**ELAN EDİR**

1. Azərbaycan dili və ədəbiyyatı müəllimliyi;
2. İbtidai sinif müəllimliyi (Azərbaycan və rus bölmələri üzrə);
3. Xarici dil müəllimliyi ( ingilis, rus dilləri üzrə, Azərbaycan və rus bölmələrinə );
4. Tərcümə (ingilis, rus dili üzrə);
5. Məktəbəqədər təlim və tərbiyə.

**Tələb olunan sənədlər:**

* Rektorun adına ərizə;
* Ali təhsil haqqında diplomun və diploma əlavənin notariusda təsdiq edilmiş surəti;
* Tərcümeyi-hal;
* Şəxsiyyət vəsiqəsinin surəti;
* Əmək kitabçasının surəti (işləyənlər üçün);
* Foto 4 ədəd 3x4 sm.

Sənədlər BSU-nun Əlavə təhsil və hazırlıq şöbəsində qəbul edilir.

**Ünvan:** S.Rüstəm küçəsi, 25, BSU-nun əsas binası, I mərtəbə, 103 №-li otaq.
**Email:** elave@tedris-bsu.org
**Sayt:** www.bsu-uni.edu.az:
**Tel.:** (012) 599 08 70 (104);
(055) 285 27 32, 272 80 47;
(051) 221 07 23, 872 97 53; 883 12 21.

**REKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Bakı Slavyan Universiteti

Əlavə təhsil və hazırlıq şöbəsi 2017-2018-ci tədris ilində Bakı şəhərinin orta ümumtəhsil məktəblərində çalışan və diaqnostik qiymətləndirmə zamanı zəif nəticə göstərmiş ibtidai sinif müəllimləri üçün ( rus bölməsi) könüllü əsaslarla ödənişli ixtisasartırma kurslarına dinləyici qəbulu

**ELAN EDİR**

**Tələb olunan sənədlər:**

* Rektorun adına ərizə;
* Diplomun surəti;
* Tərcümeyi-hal;
* Şəxsiyyət vəsiqəsinin surəti;
* Əmək kitabçasının surəti (işləyənlər üçün);
* Foto 4 ədəd 3x4 sm.

Sənədlər BSU-nun Əlavə təhsil və hazırlıq şöbəsində qəbul edilir.

**Ünvan:** S.Rüstəm küçəsi, 25, BSU-nun əsas binası, I mərtəbə, 103 №-li otaq.
**Email:** elave@tedris-bsu.org
**Sayt:** www.bsu-uni.edu.az:
**Tel.:** (012) 599 08 70 (104);
(055) 285 27 32, 272 80 47;
(051) 221 07 23, 872 97 53; 883 12 21.

**REKTORLUQ**

# Bilik Fondu Anlaşma Memorandumu imzalayıb

Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu ilə Azərbaycan Universiteti arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Bilik Fondunun icraçı direktoru Oktay Səmədov və Azərbaycan Universitetinin rektoru Səadət Əliyevanın imzaladıqları Anlaşma Memorandumuna görə, tərəflər hər kəsin fasiləsiz təhsilini, daim yeniləşən, müasir standartlara uyğun biliklərə və dünyagörüşünə yiyələnməsini, şəxsiyyət kimi inkişafını təmin etmək, gənclərin biliklərinin, bacarıqlarının, peşəkarlıq səviyyələrinin, dünyagörüşlərinin inkişafına dəstək göstərmək məqsədi ilə birgə tədbirlər həyata keçirəcək.

İmzalanma mərasimində çıxış edən Bilik Fondunun icraçı direktoru Oktay Səmədov bildirib ki, Azərbaycan Universitetinin müəllim, tələbə kontingenti, rəhbərlik etdiyi qurumun əməkdaşları, Fondun lektorlar qrupunun üzvləri ilə birgə layihələrə cəlb olunacaqlar.

Müxtəlif elm, təhsil ocaqları ilə imzalanan əməkdaşlıq sazişlərini xatırladan icraçı direktor bu çərçivədə görülən işlərin əhəmiyyətindən danışaraq, birgə fəaliyyətin effektiv olduğunu, görülən işlərin nəticələrinə müsbət təsir etdiyini söyləyib.

Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva rəhbərlik etdiyi ali təhsil ocağı ilə Bilik Fondunun bir neçə tədbirlər həyata keçirdiyini diqqətə çatdıraraq, qarşılıqlı əməkdaşlığın Memorandum imzalanması səviyyəsinə qədər yüksəlməsindən məmnun olduğunu deyib.

Rektor vurğulayıb ki, Bilik Fondu ölkə ictimaiyyətinin hərtərəfli inkişafı naminə universitetin elmi-texniki bazasına və insan kapitalının dəstəyinə tam arxalana bilər.

# Biologiyadan dərs nümunəsi

## METODİKA

**Leyli ƏLİYEVA,**
*İmişli şəhər A.Eminov adına 7 nömrəli tam orta məktəbin biologiya müəllimi, “Tərəqqi” medallı, “Ən yaxşı müəllim” müsabiqəsinin qalibi*

*Sinif:* VII
*Standart:* 1.1.2.,1.1.4

*Mövzu:* Buğumayaqlılar tipi.-Xərçəngkimilər sinfi

*Məqsəd:* Xərçəngkimilər, Hörümçəkkimilər, Cücülər sinfini buğumayaqlılar tipinin nümayəndəsi olmasını bilir.

Xərçəngkimilərin xarici və daxili quruluşunu təsvir edir.

Xərçəngkimilərin müxtəlifliyini tanıyır.

*Təlim nəticəsi:* Buğumayaqlıların müxtəlifliyi və xərçəngkimilərin quruluşu haqqında mülahizələrini şərh edir.

*İş forması:* Bütün siniflə iş, kiçik qrupla iş

*İş üsulları:* BİBÖ, beyin həmləsi, ifadəli oxu

*İnteqrasiya:* Coğrafiya 2.1.7, Azərbaycan dili 1.2.1, 1.2.2

*Resurslar:* Dərslik, İKT, iş vərəqləri, marker, qələm

*Motivasiya:*

Şagirdlərə şəkillər təqdim olunur və bu şəkillərdə hansı heyvanların təsvir olunduğu soruşulur. Onlar qurdları artıq tanıdıqlarından yönəldici suala uyğun bir az məlumat verə bilərlər. Digər siniflərin nümayəndələrini tanısalar da hansı tipə aid olduğunu bilmirlər. Elə bu səbəbdən təqdim olunan heyvan şəkillərindən ümumiləşdirən tipə aid mövzunu keçəcəklərini cavablandırırlar.



*Tədqiqat sualı:*

Buğumayaqlılar tipinin nümayəndələrinin həyat tərzi və quruluşu necədir?

Şagirdlərin tədqiqat aparmaları üçün təqdim olunan cədvəl üzrə cavablar səslənir.

| BİLİRƏM | İSTƏYİRƏM BİLƏM | ÖYRƏNDİM |
|---|---|---|
| | | |
| | | |
| | | |

Şagirdlər onlara təqdim olunan şəkillər üzrə qruplaşırlar (“xərçəng”, “hörümçək”, “cücü”). Bu təsvirləri onlar dərsi mənimsədikdən sonra “Öyrəndim” hissəsinə əlavə edərək cavablandıra bilərlər. Buğum-ayaqlılar tipi üç sinfə bölünür: xərçəngkimilər, hörümçəkkimilər, cücülər sinfi.

I qrup
İş vərəqi 1

Çay xərçənginin xarici quruluşunu təsvir və müxtəlifliyini şərh edin



II qrup
İş vərəqi 2

Xərçəngkimilər sinfinin həzm, sinir və cinsiyyət sistemlərinin xüsusiyyətlərini şərh edin.




III qrup
İş vərəqi 3

Xərçəngkimilərin qan-damar, tənəffüs və ifrazat sisteminin xüsusiyyətlərini izah edin.




*Məlumat mübadiləsi:*

Qruplar öz işlərini təqdim edirlər. Hər qrupa 2-3 dəqiqə vaxt verilir.

Məlumatın müzakirəsi və mübadiləsi aparılır. Səslənməyən məlumatlar söylənilir. BİBÖ cədvəlinə nəzər yetirilir. Dərs zamanı oyrənilən hissələr əlavə olunur.

*Nəticə və ümumiləşdirmə:*

Buğumayaqlılar tipi müxtəlif mühitdə yaşayır. Çay xərçəngi isə şirin sularda yaşayır.

Bədəni üç hissədən ibarətdir. Buğumayaqlılar tipinin həzm sistemi ağız, udlaq, qida borusu, mədə, bağırsaqlardan və həzm vəzilərindən ibarətdir.

Qan damar sistemi açıqdır, əsasən, ürək və arteriyadan ibarətdir.

Tənəffüs sistemi xərçəngkimilərdə qəlsəmələrlədir.

İftrazat sistemi bəzi nümayəndəsində malpiqi borusundan, bəzisində isə bir cüt yaşıl borudan ibarətdir.

Sinir sistemi həlqəvi qurdlardakı kimidir, udlaqətrafı sinir halqasından və qarın sinir zəncirindən təşkil olunmuşdur.

Duyğu orqanları - lamisə, qoxu və ya dad orqanları da var.

Əhəmiyyəti: Buğumayaqlılar tipinin həşəratlar sinfi tozlanmada yaxından iştirak edir.

1. Xərçənglərin xarici skeleti olduğuna görə qurudulmuş xərçənglər formasını itirmir;

2. Bu fakt onu göstərir ki, xərçəngkimilər müəyyən yaşa kimi böyüyür, sonra isə onların ölçüləri sabit olur.

*Yaradıcı tətbiqetmə:*

Dərsin bu mərhələsində şagirdlərə təqdim olunan tapşırıq əsasında qanın hərəkət ardıcıllığı təyin olunur

?⟶
Damarlar?⟶
Qəlsəmələr ?⟶
cavab: ovalşəkilli ürək- damarlar-bədən boşluğu-qəlsəmələr - ürək (xüsusi dəliklərlə).

*Ev tapşırığı:*

Yaşadığınız ərazidə buğumayaqlılar tipinin hansı növlərinə rast gəlmisiniz. Bu haqda məlumat yazın.

*Qiymətləndirmə:*

Qiymətləndirmə qruplar üzrə aşağıdakı cədvəl əsasında aparılır.

| | I qrup | II qrup | III qrup |
|---|---|---|---|
| Buğumayaqlılar tipini şərh edir | | | |
| Xərçəngkimilər sinfinin quruluş xüsusiyyətini təsvir edir | | | |
| Əməkdaşlıq | | | |
| Nizam-intizam | | | |
| Təqdimat | | | |

# Tariximizin qan yaddaşı şagirdlərin gözü ilə

**Vəfa RƏSULOVA,**
*Bakı şəhər 209 nömrəli tam orta məktəbin direktor müavini*

Əldə etdiyimiz tarixi uğurlarımızı qoruyub saxlamaq və daha da artırmaq üçün məktəbin - müəllimin ümdə vəzifəsi şagirdlərin milli - vətənpərvər ruhda yetişməsini təmin etməkdir. Onlara təlqin edilməlidir ki, erməni cəlladları ilə üzbəüz mübarizə şəraitindəyik və bu, bir an da olsun unudulmamalıdır. Məktəbəqədər yaşdan başlamış son sinfə qədər uşaqları milli dəyərlərə hörmət ruhunda böyütmək, adət-ənənələrimizi, tariximizi, zəngin ədəbi irsimizi gənc nəslə çatdırmaq hər bir müəllimin peşə borcudur. Bu məqsədlə şifahi xalq ədəbiyyatı nümunələrindən, zəngin və klassik irsimizdən geniş istifadə olunmalı, siniflərdə təlim-tərbiyə işi müxtəlif vasitələrlə, rəngarəng və maraqlı tədbirlərin köməyi ilə həyata keçirilməlidir. Şagirdlər keçmiş və bu günümüzdə baş verən hadisələrin bədii sənət və musiqi əsərlərində necə əks olunduğunu gördükdə onların tariximizə marağı artır, gözəllik haqqında təsəvvürləri təkmilləşir, bədii, estetik zövqü formalaşır.

Bakı şəhəri 209 nömrəli tam orta məktəbdə bu vəzifələrin reallaşdırılması üçün müxtəlif səpgili tədbirlər, fənn aylıqları keçirilir.

Bu baxımdan məktəbimizdə keçirilən tarix aylığının son günü özünün qeyri-adiliyi və maraqlı olması ilə yaddaqalan idi. Həmin gün tarix müəllimi, “Ən yaxşı müəllim” müsabiqəsinin qalibi Mehriban Poladova V “a” sinfində “Şuşa, Pənahabad qalası” mövzusunda “açıq dərs” keçdi. Dərsdə xeyli qonaq iştirak edirdi. Məktəbin direktor müavini Xatirə Cabarova, müəllimlərindən Şəmsiyyə Gülmalıyeva, Raminə Hüseynova, Almaz Hüseynova, Dilarə Abbasova, Aysel İbrahimova, Əlihəsən Məmmədov və digərləri də iştirakçılar sırasında idi. Uşaqlar milli paltarlar geyinmiş, sinif otağını qədim məişət əşyaları ilə, həmçinin xanlıqlar dövründə xanımların geyindiyi paltarlarda olan gəlinciklərlə bəzəmişdilər. Müəllim qonaqları salamladıqdan sonra 20 Yanvar, Xocalı faciələrində və torpaqlarımızın qorunması uğrunda mübarizədə şəhid olmuş bütün həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni ifa olundu. Dərs başlanan kimi müəllim sinfi 4 qrupa bölərək, onlara “Qarabağ”, “Şuşa”, “Bayat” və “Şahbulaq” adlarını verdi. Dərsin motivasiya mərhələsində müəllim Şuşa qalasının, Pənahəli xanın, Cıdır düzünün, Xarı bülbülün və Qarabağ xalçasının şəklini göstərərək şagirdlərə suallarla müraciət etdi: Şəkildə görünən bu yerlər onlara haranı xatırladır? Burda onlar nəyi görürlər? İnsanlar nə vaxtdan qalalar tikməyə başlayıblar? Bu qalalar hansı məqsədlə tikilirdi? Azərbaycanda qədim qalalar niyə bu qədər çoxdur və nə üçündür? və s.



Motivasiyadan sonra müəllim şagirdlərə iş vərəqələri payladı. Müstəqil iş üçün suallar düşündürücü və maraqlı məsələləri əhatə edirdi. Məsələn, Qarabağ xanlığının banisi kim olub? Xanlıq neçənci ildə yaranıb, yaranmasının tarixi əhəmiyyəti nədir? Rusların Qarabağda işğalçılıq planları nədən ibarət idi və ermənilər Qarabağda nə vaxtdan məskunlaşmışlar? Qarabağ əhalisinin məşğuliyyəti və mədəniyyəti nələrdən ibarət idi? və s. Şagirdlər sualları dolğun və əhatəli şəkildə cavablandırdılar.

5 dəqiqədən sonra şagirdlərin hazırladığı tədqiqatın təqdimatı keçirildi. Sonra təqdimat ətrafında müzakirələr aparıldı.

Uşaqlara müxtəlif suallar ünvanlandı: Bu qədər qalaların Qarabağda tikilməsinə ehtiyac vardımı? Bütün xanlıqlar birləşərək, niyə düşmənə qarşı birgə mübarizə aparmırdılar? Ermənilərin Azərbaycanda məskunlaşması kimlərin mənafeyinə daha çox uyğun gəlirdi?

Sonda müəllim ümumiləşdirmə apardı. Qiymətləndirmə aşağıdakı meyarlar əsasında baş tutdu: tədqiqat aparır, təqdim edir, yaradıcı işi yerinə yetirir, kollektivlə işləməyi bacarır. Sonra şagirdlərə ev tapşırığı verildi. Dərs “Qarabağ şikəstəsi” ilə yekunlaşdı.

Məktəbin direktoru Arizə Mahmudova çıxış edərək “açıq dərs”in maraqlı və yüksək səviyyədə keçdiyini qeyd etdi.

Sonra bütün iştirakçılar foyedə məktəblilərin əl işlərindən təşkil olunmuş sərgiyə tamaşa etdilər. Tarixin müxtəlif dövrlərinə aid samovarlar, misdən hazırlanmış sini, səhəng, suyu sərin saxlamaq üçün hazırlanan qablar, əl dəyirmanı və digər eksponatların fonunda xatirə şəkli çəkdirdilər.

# İnteraktiv metodlar dərsi fəallaşdırır

**Nuridə KƏRİMOVA,**
*İsmayıllı rayon Hacıhətəmli kənd tam orta məktəbinin ibtidai sinif müəllimi*

Təlim prosesində şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnmələri üçün passiv, aktiv (fəal) və interaktiv metodlardan istifadə olunur. İnteraktiv təlimlə aktiv təlimin bəzi ümumi cəhətləri olmasına baxmayaraq onlar bir-birindən fərqlənir. Belə ki, interaktiv təlimdə yalnız müəllimlə şagirdlər deyil, həm də şagirdlər öz aralarında söhbət və dialoq rejimində fəaliyyət göstərirlər. İnteraktiv metodlar biliklərin şagirdlərə hazır şəkildə verilməsini deyil, bu biliklərin daha çox onların özlərinin birlikdə axtarıb tapmalarını nəzərdə tutur. Bu prosesdə şagirdlərin fəallığı maksimum dərəcədə artır, onlarda müstəqil düşünmək, sərbəst rəy söyləmək, başqasının fikrinə münasibət bildirmək kimi xüsusiyyətlər formalaşır. Beləliklə, şagirdlərdə tənqidi təfəkkür inkişaf edir.

Cəmiyyət üçün hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirmək qarşımızda duran əsas vəzifədir. Bu vəzifəni layiqincə yerinə yetirmək üçün mən öz üzərimdə daim çalışır, hazırlığımı artırır, inkişafdan geri qalmamağa səy göstərirəm. Dərslərimi günün tələblərinə uyğun qurmağa çalışıram. Dərslərimdə şagirdlərə ilk növbədə sərbəst olmağa, sual verməyə, düşündüyünü deməyə şərait yaradıram. İstəyirəm ki, şagirdlərim dərsdə susmasınlar, mümkün qədər çox danışsınlar.

Azərbaycan dili (oxu) dərslərində əsərin ideyasını müəyyənləşdirmək üçün müzakirədən istifadə edirəm. Bu metod dinləmək, təqdim etmək, məntiqi sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin şifahi nitqini inkişaf etdirir. Mövzuya uyğun olaraq sinfə açıq sualla müraciət edirəm. Bu zaman şagirdlərin çoxu fəallıq göstərir, suallara cavab verməyə çalışır, fikirlərini çatdırmaq istəyirlər. Şagirdlər eyni cavabı verməmək üçün bir-birinə diqqətlə qulaq asırlar. Hətta bu zaman zəif hesab etdiyimiz şagirdlərin verdiyi cavab adamı heyran edir. Dərsboyu çalışıram ki, bütün şagirdlər fikirlərini sərbəst söyləməkdən çəkinməsinlər. Bunun üçün köməkçi suallardan istifadə edir, şagirdlərin fikrini əsas məsələyə yönəldirəm. Sinfin əla oxuyan şagirdlərinin nisbətən zəif oxuyan və öz fikirlərini sərbəst söyləyə bilməyən uşaqlara kömək etmələrini təşkil edirəm və bu yaxşı nəticə verir. Fəallığa alışan şagirdlər öz güclərinə inanır, müstəqil düşünür, axtarışlar aparır, hərtərəfli insan kimi formalaşırlar.

Azərbaycan dili (oxu) dərslərində eyni zamanda əqli hücum, debat, rollu oyun, Venn diaqramı”, “BİBÖ”, şaxələndirmə, söz assosiasiyası və s. metodlardan da geniş istfadə edirəm. Bu metodların hərəsinin öz üstün cəhətləri vardır. Çalışıram ki, onların bu xüsusiyyətini nəzərə alım və mövzuya uyğun olaraq bu metodlardan düzgün seçim edim. Öz təcrübəmdən bilirəm ki, bu metodlardan qarşılıqlı istifadə etmək yaxşı nəticə verir. Belə ki, dərsin müxtəlif mərhələlərində verilən “niyə?, nə üçün?, nə səbəbə?” kimi suallar şagirdləri daha dərindən düşünməyə sövq edir. Onlar hər hansı hadisəyə səthi deyil, dərindən nəzər salır, məntiqlə düşünür, cavablarını əsaslandırırlar, beləliklə, daha düzgün nəticə çıxarırlar. Bununla da şagirdlərdə düşünmə, nəticə çıxarmaq və məntiqi təfəkkür formalaşır.

Mübahisəli məqamlarda debatdan istifadə edirəm. Debat zamanı şagirdlər çox fəal olurlar, onlar öz fikirlərini sübut etmək üçün maraqlı dəlillər gətirir, axtarışlar aparırlar. Bu zaman mən sinfə ancaq nəzarət edir, heç bir rəy bildirmirəm. Beləliklə, şagirdlərdə başqasını dinləmək, onun fikrinə hörmətlə yanaşmaq və həmin fikrə münasibət bildirmək mədəniyyəti formalaşır. Onlar tədqiqatçı və yaradıcı kimi fəaliyyət göstərirlər. Bu zaman şagirdlər arasında qarşılıqlı əlaqə yaranır ki, bu da interaktiv təlimin əsas prinsiplərindən biridir.

Dərsdə şagirdlərin fəallığını artırmaq üçün rollu oyunların da böyük imkanları yaradır. Rollu oyun zamanı şagirdlərin gizli qalan istedadları üzə çıxır, nitqləri, ünsiyyət qurmaq bacarıqları daha da inkişaf edir. Şagirdlər əzbərçilikdən uzaq olur, fikirlərini sərbəst söyləyir, düşündüklərini həyata keçirməyi bacarırlar. Azərbaycan dili (oxu) dərsində maraq yaratmaq üçün fəndaxili və fənlərarası inteqrasiyadan da istifadə edir, mövzuları həyatla əlaqələndirməyə çalışıram. Şagirdlərə “Sən həmin obrazın yerində olsaydın nə edərdin” kimi suallarla müraciət edirəm. Bu vaxt şagirdlərdən səmimi cavab vermələrini xahiş edirəm. Sinifdə qızğın mübahisə gedir. “Səmimi” olmayan fikirləri şagirdlər özləri müəyyənləşdirib, etiraz edirlər. Belə münasibətdən sonra bəzən əsərə və ya obraza olan münasibət tamam dəyişir. Bununla da şagirdlər başa düşürlər ki, həyatda “pis adam” adlandırdığımız insanlarda da yaxşı xüsusiyyətlər olur. Obrazların belə dərindən təhlili şagirdlərin bir-birinə olan münasibətini də dəyişir. Təcrübəmə əsaslanıb deyə bilərəm ki, sinifdə uşaqlarla yola getməyən, onları incidən şagirdlərin müsbət xüsusiyyətlərini görən yoldaşlarının həmin şagirdə münasibətləri tamam dəyişir. Bu münasibətdən təsirlənən həmin şagirdin də yoldaşlarına və dərsə münasibəti dəyişmiş olur. Bir müəllim kimi həmişə çalışıram ki, şagirdlərimdə xoş hisslər formalaşdırım. Onlara həmişə deyirəm ki, gülümsəyin. Çünki şagirdlərin əhvali-ruhiyyəsi yaxşı olanda onların dərsə marağı da yüksək olur. Öyrənmək istəyən şagird isə təkcə dərsliklə kifayətlənmir, əlavə kitablar oxuyur, internetdən istifadə edir, daim öz üzərində çalışır. Bu sahədə bizə ən yaxşı kömək edən isə məktəbimizin kitabxanasıdır. Sinifimin bütün uşaqları kitabxanaya üzv yazılıb. Onlar oxuduqları kitabları öz aralarında müzakirə edirlər. Beləliklə, şagirdlərdə kitaba maraq oyanır, onlarda oxu mədəniyyəti formalaşır.

**REGİONLAR**

## Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi anılıb

Xaçmaz şəhərindəki akademik Zərifə Əliyeva adına 8 nömrəli məktəb-liseydə görkəmli alimin anım mərasimi keçirilib. Tədbirdə rayonun fəal qadınları, səhiyyə, təhsil işçiləri, eləcə də icra hakimiyyətinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə görkəmli oftalmoloq-alimin məktəbin həyətində ucaldılmış abidəsinin qarşısına gül dəstələri düzülüb və xatirəsi ehtiramla anılıb.

Təhsil şöbəsindən redaksiyamıza daxil olan məlumatda bildirilib ki, çıxış edənlər akademik Zərifə xanım Əliyevanın zəngin və mənalı ömür yolundan danışıblar. Qeyd edilib ki, görkəmli oftalmoloq təkcə respublikamızda deyil, həmçinin beynəlxalq aləmdə də tanınmış alim, ziyalı, ictimai xadim kimi dəyərləndirilir.

Akademik Zərifə xanım Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Zərifə xanım Əliyeva Azərbaycan Dövlət Tibb Universitetini bitirəndən sonra Moskva Həkimləri Təkmilləşdirmə İnstitutunda təhsil alıb. 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Həkimləri Təkmilləşdirmə İnstitutunda elmi işçi kimi əmək fəaliyyətinə başlayıb və bütün ömrünü oftalmologiyaya həsr edib. 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilib.

Rayonun fəal qadınları akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinin onlar üçün əsl nümunə olduğunu qeyd ediblər. Diqqətə çatdırılıb ki, görkəmli alim öz qayğıkeşliyi və səmimiyyəti ilə onu əhatə edən insanların rəğbətini, ehtiramını qazanmışdır. Onun inkişaf etdirdiyi elm sahəsinin davamçıları bu gün də alimin irsindən faydalanırlar.

## "Atmosfer təzyiqi və onun ölçülməsi" mövzusunda "açıq dərs"

Saatlı şəhər 2 nömrəli tam orta məktəbdə fizika müəllimi Ülviyyə Məmmədovanın VII "a" sinfində fizika fənnindən "Atmosfer təzyiqi və onun ölçülməsi" mövzusunda "açıq dərs"i olub. Dərsdə məktəb rəhbərliyi və fənn müəllimləri iştirak ediblər.

Öncə Ülviyyə Məmmədova atmosfer təzyiqinin varlığı və onu ölçən Toriçelli haqqında məlumat verib. Sonra şagirdlər 5 qrupa ayrılıb: "Eksperiment", "Təzyiq", "Nyuton", "Atom" və "Atmosfer". I qrup kağızın suda islanıb-islanmadığını nümayiş etdirib, II qrup iynənin və damcıladanın iş prinsipini izah edib, III və IV qruplar isə plastilinlə dar boğazlı qıfdan nə üçün su keçməməsinin təhlilini aparıb. Təqdimat zamanı 5-ci qrup quşlar üçün avtomat su qabı hazırlayıb. Layihə maraqla qarşılanıb.

Həmçinin şagirdlər öz müşahidələri əsasında təqdimat hazırlayıb və müzakirə ediblər.

Sonda "açıq dərs"in geniş təhlili keçirilib.

**Xalid NƏCİYEV,**
*Saatlı Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Şeirimizin Nərimanı" adlı ədəbi-bədii kompozisiya

Ağstafa şəhər 2 nömrəli tam orta məktəbdə tanınmış xalq şairi Nəriman Həsənzadənin anadan olmasının 86-cı ildönümünə həsr edilmiş "Şeirimizin Nərimanı" adlı ədəbi-bədii kompozisiya keçirilib.

Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi İlhamə Kərimova tərəfindən təşkil edilən bu tədbirdə Ağstafa Rayon Təhsil Şöbəsinin əməkdaşları, yazıçılar, tanınmış ziyalılar iştirak ediblər.

Tədbirdə 8-ci sinif şagirdləri Nəriman Həsənzadə yaradıcılığından bəhs edən səhnəciklər nümayiş etdirib və şeirlər söyləyiblər. Şairin şeirlərinə bəstələnən musiqi nümunələri şagirdlər tərəfindən ifa edilib.

Şairin qələm dostları Nəriman Həsənzadə ilə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüblər.

Sonda pedaqoji kollektiv Nəriman Həsənzadə ilə xatirə şəkli çəkdirib.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




## "Tarix gecəsi"ndə şagirdlər arasında viktorina keçirilib

Şabran rayon Şahnəzərli kənd tam orta məktəbində tarix müəllimi Ləman Şirəliyevanın təşkilatçılığı ilə "Tarix gecəsi" keçirilib.

Gecədə məktəbin müəllim və şagird kollektivi, rayon təhsil şöbəsinin əməkdaşları, həmçinin digər rayon məktəblərindən dəvət olunmuş qonaqlar iştirak ediblər.

Öncə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Sonra əsgər geyimli şagirdlərin müşayiəti ilə səhnəyə Azərbaycan bayrağı gətirilib və "Əsgər marşı" oxunub. Eyni zamanda şagirdlər tarixi şəxsiyyətlər barədə topladıqları maraqlı məlumatları təqdim ediblər.

Tədbirdə şagirdlərin ifasında "Mən fəxr edirəm ki, azərbaycanlıyam" və başqa vətənpərvər ruhlu şeirlər səsləndirilib. Sonra Qarabağ tarixi haqqında videoçarx göstərilib və IX-XI sinif şagirdləri arasında tarixə dair viktorina keçirilib.

Tədbir diskussiya şəklində başa çatıb.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Şagirdlərin mülki müdafiə sahəsində bilikləri artırılır

Abşeron rayon ümumtəhsil məktəblərində mülki müdafiə ilə bağlı maarifləndirici tədbirlər həyata keçirilir. Tədbirlərdə rayon təhsil şöbəsinin əməkdaşları, Sumqayıt Regional Fövqəladə Hallar və Mülki Müdafiə Şöbəsinin nümayəndələri, müəllim və şagirdlər iştirak edirlər.

Məqsəd müəllim və şagirdlərin fövqəladə hallarla bağlı davranış qaydaları və mülki müdafiə sahəsində biliklərinin artırılmasına, baş verə biləcək təbii fəlakət, yanğın, qəza hadisələri zamanı düzgün təxliyə tədbirlərinin görülməsinə və onların qarşısının alınmasına nail olmaqdır.

Tədbirlər zamanı mülki müdafiəyə məsul şəxslərin çıxışlarından sonra məktəblərdə süni partlayış və ya yanğın hadisələri təşkil olunur və həyəcan siqnalı verilir. Növbətçi müəllimlərin köməyi ilə şagirdlər məktəb binasından təxliyyə olunur və şərti xilasetmə əməliyyatları başlanılır.

Eyni zamanda məktəblərdə maarifləndirici "açıq dərs"lər keçirilir. Dərslərdə şagirdlər fövqəladə hallarla bağlı biliklərini, ilkin tibbi yardım bacarıqlarını nümayiş etdirirlər.

**Aysel TAHİROVA,**
*Abşeron Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "Müəllim yaradıcı olmalıdır"

*Lalə Məmmədova:* "İlk dərs günündə şagirdlərim məni sevinc hissi ilə qarşıladılar"



"Rayonumuzun gənc müəllimləri" rubrikasının qonağı Samux rayon Yuxarı Ağasıbəyli kənd tam orta məktəbinin musiqi müəllimi Lalə Məmmədovadır. O, 1993-cü ildə Gəncə şəhərində anadan olub. 2016-cı ildə Gəncə Dövlət Universitetinin musiqi müəllimliyi fakültəsini bitirib. Elə həmin il də Təhsil Nazirliyi tərəfindən keçirilən müəllimlərin işə qəbulu imtahanında iştirak edib. Nəticədə 40 bal toplayaraq Samux rayon Yuxarı Ağasıbəyli kənd tam orta məktəbinə musiqi müəllimi təyin edilib. Biz gənc müəllim Lalə Məmmədovanın fikir və təəssüratlarını öyrənmək üçün çalışdığı məktəbdə olduq:

*- Lalə xanım, necə oldu ki, müəllim olmağa qərar verdiniz?*

- Kiçik yaşlarımdan bu peşəni sevirəm. Cəmiyyətdə gələcək nəslin daha bilikli və dünyagörüşlü olmasına bacardığım qədər yardımçı olmaq istəyirəm.

*- Bu məktəb ilk iş yerinizdir. Şagirdlərlə ilk dərs gününüz necə keçib?*

- Bəli, məktəb ilk iş yerimdir. Buna baxmayaraq, ilk dərs günündə şagirdlərim məni sevinc hissi ilə və xoş əhvalla qarşıladılar.

*- Pedaqoji kollektivin sizə münasibəti necədir?*

- Zaman keçdikcə kollektivin mənə qarşı xoş, isti və mehriban münasibətini daha yaxından hiss edirəm. Çox sevincliyəm ki, belə mehriban, istiqanlı və yardımsevər kollektivdə çalışıram.

*- Siz tədris etdiyiniz fənnə qarşı şagirdlərdə necə maraq yaradırsınız?*

- Əlbəttə, müəllim yaradıcı olmalıdır. İlk gündən şagirdlərim arasında müxtəlif yarışlar təşkil edirəm. Tədris proqramına uyğun olaraq bəzi məşhur musiqiçilərin ifasında əsərlərə kompüter vasitəsi ilə qulaq asdırıram. Çalışıram ki, dərsdə bütün şagirdlər fəal iştirak etsinlər.

*- Sonda özünüz kimi gənc müəllimlərə nə tövsiyə edərdiniz?*

- Həmkarlarım unutmamalıdırlar ki, müəllimlik çox müqəddəs, dəyərli, dəyərli olduğu qədər də məsuliyyətli bir peşədir. Seçdikləri peşəni həmişə uca tutsunlar.

**Nurəddin BABAYEV,**
*Samux Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Qarabağ" tarix klubunun komandası Qobustanda



Azərbaycan xalqının milli sərvəti olan Qobustan Milli Tarix-Bədii Qoruğundakı nadir qayaüstü rəsmlərin geniş təbliğinin xüsusi əhəmiyyətini nəzərə alaraq "Qarabağ" tarix klubunun üzvü olan məktəblilərin bu abidəyə ekskursiyasını təşkil etdik. "Qarabağ" tarix klubu 1 noyabr 2015-ci il tarixdən məktəbimizin nəzdində fəaliyyət göstərir.

Ekskursiyaya qoruq ərazisində fəaliyyət göstərən Qobustan muzeyindən başladıq. Məktəblilər burada Qobustan Dövlət Tarix-Bədii Qoruğunun müasir innovativ texnologiyalarla təchiz olunmuş muzeyi ilə yaxından tanış olub, Azərbaycanın qədim mədəni irsi barədə geniş məlumatlar əldə etdilər. Bu qeyri-adi muzeyin həm memarlıq üslubu, həm eksponatları, həm də müasir texniki təchizatı ilə bir-birindən maraqlı 12 ekspozisiya zalı bizləri heyran etdi. Muzeydə qoruq ərazisindən tapılmış müxtəlif arxeoloji eksponatlarla tanışlıq da çox maraqlı keçdi. Sonra ekskursiya üzvləri qoruq ərazisindəki Böyükdaş zirvəsində yerləşən qədim musiqi aləti olan qavaldaş, "Anazağa", "Öküzlər" və "Ovçular"qədim insan sığınacaqları, qayaüstü təsvirlər və su çuxurları ilə tanış oldular.

Ekskursiya boyu bizi müşayiət edən muzey və qoruq bələdçilərinin Qobustanın qayaüstü rəsmlərlə yazılmış tarixi haqqında məlumatları məktəblilər üçün çox maraqlı oldu. Qobustanda yaşamış qədim insanların həyat tərzi, təsərrüfatı, məşğuliyyətləri, dini təsəvvürləri barədə məlumatlar diqqətlə dinlənildi. Azərbaycan ərazisində arxeoloji abidələr kompleksinin mühafizə edildiyi Qobustan Milli Tarix-Bədii Qoruğu ilə tanışlıq məktəblilərin böyük marağına səbəb oldu və onların xatirəsində xoş, silinməz izlər buraxdı.

Ekskursiyada məktəblilərlə yanaşı valideynlərdən də nümayəndələr iştirak edirdilər.

"Qarabağ" tarix klubunun yaradılmasını yüksək qiymətləndirən və klubun fəaliyyətini daim yaxından izləyən Laçın rayon B.Məmmədov adına Minkənd kənd tam orta məktəbinin direktoru İlqar Şahverdiyevə ekskursiyanın təşkil edilməsində göstərdiyi maddi köməkliyə görə öz təşəkkürümüzü bildirir, bu nəcib və xeyirxah əməlinə görə ona minnətdarlıq edirik.

**Aqil CABBAROV,**
*Laçın rayon M.Səfərov adına Qozlu kənd tam orta məktəbində fəaliyyət göstərən "Qarabağ" tarix klubunun rəhbəri*

## "Vətənin müdafiəsinə hazıram" devizi altında rayon birinciliyi

"Vətənin müdafiəsinə hazıram" devizi altında poliation çoxnövçülüyü üzrə Daşkəsən rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında rayon birinciliyi keçirilib. Yarışda ümumtəhsil məktəblərinin VIII-XI siniflərində oxuyan, həkim müayinəsindən keçmiş şagirdlər iştirak ediblər. Gərgin mübarizə şəraitində keçən yarışda iştirakçılar çoxnövçülüyə daxil olan qumbara atma, turnikdə dartınma və 100 metr məsafəyə qaçış idman növləri üzrə qüvvələrini sınayıblar.

Yarışda 8 komanda iştirak edib. Yarışın keçirilməsində məqsəd məktəblilər Vətənin müdafiəsinə hazırlığını inkişaf etdirmək, gənclərdə vətənpərvərlik ruhunun yüksəlməsinə nail olmaqdır.

Sonda I, II və III yeri tutan komandalar rayon gənclər və idman idarəsinin təsis etdiyi diplomla təltif olunacaqlar.

**Mikayıl MİKAYILLI,**
*Daşkəsən Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# "Qazandığım hər bir qələbə inamımı daha da artırır"

## *Məşədiəlifağa Haqverdiyev, dünya çempionu:* "Bütün rəqiblərimi məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxdım"

**Rəşad ZİYADOV**

Son illər ölkəmizdə idmana göstərilən dövlət qayğısının nəticəsidir ki, idmançılarımız iştirak etdikləri bir sıra beynəlxalq yarışlardan vətənə medallarla qayıdırlar. Respublikamızı beynəlxalq turnirlərdə layiqincə təmsil edən idmançılarımızdan biri də Məşədiəlifağa Haqverdiyevdir. Bu yaxınlarda Gürcüstanda keçirilən dünya çempionatından qalibiyyətlə qayıdan dünya çempionu ilə görüşüb, bu və ya digər suallarımıza cavab tapmağa çalışdıq.



Haqverdiyev Məşədiəlifağa Məftun oğlu 2004-cü il martın 8-də Biləsuvar rayonunun Ağəyri kəndində anadan olub. 2010-cu ildə Bakıdakı 18 nömrəli tam orta məktəbin birinci sinfinə gedib. Hazırda həmin məktəbin 7 "d" sinif şagirdidir. İdmanın kinq-boksinq və muay tay döyüş növləri üzrə iki dəfə dünya çempionatının və beynəlxalq turnirlərin qalibidir. Onun hələ 8-9 yaşlarından idmanın bir çox növlərinə böyük həvəsi olub. Lakin müntəzəm məşğul olmaq üçün məhz balaca çempionumuz kinq-boksinq və muay idman növünü seçib.

*- Məşədiəlifağa, idman sənin üçün nə deməkdir?*

- Hər şeydən əvvəl, əməkdir, zəhmətdir, işdir və bədənin sağlamlığıdır. Başlıca olan inamdır. İnam varsa, uğur da olar. Qazandığım hər bir qələbə mənim inamımı daha da artırır.

*- Necə oldu ki, səndə idmanın bu növünə həvəs yarandı, məşqlərə neçə yaşından başladın?*

- Uşaqlıq illərim Rusiya Federasiyasında keçib. Belə ki, 2005-ci ildən 2009-cu ilə qədər orada yaşamışıq. 2009-cu ilin sonlarında ailəmiz Bakıya qayıtdı. 2010-cu ildən idmanın kinq-boksinq və muay tay döyüş növləri ilə məşğul olmağa başladım. 2016-cı ilə kimi ölkədaxili yarışlarda iştirak etdim. Daha sonra məşqçi müəllimim, yığma komandanın üzvü Muxtar Allahyarovun məsləhəti ilə beynəlxalq yarışlara da qatıldım. İlk yarışım 2016-cı il avqustun 26-da Gürcüstanda oldu. Burada 10-a yaxın ölkənin iştirakı ilə keçirilən Qafqaz çempionatında iştirak etdim və bütün rəqiblərimi məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxdım. Həmin il dekabrın 4-də Bakıda muay tay üzrə 11-12 yaşlı idmançılar arasında keçirilən dünya çempionatında 40 kq çəki dərəcəsində final oyununda Rusiya təmsilçisi ilə qarşılaşdım. Rinqdə rəqibimə zərbə vurmağa imkan vermədim. Onu məğlub edib I yerə çıxdım. 2016-cı ilin dekabr ayında Gürcüstanda15-ə yaxın ölkənin idmançılarının iştirak etdiyi dünya çempionatı mənim həyatımda daha yaddaqalan oldu. Çünki bu dünya çempionatının finalında mən erməni ilə qarşılaşdım.

*- Erməni rəqibinlə finalda görüşəndə hansı hissləri keçirirdin? Məğlub olmaq qorxusu var idimi?*

- İlk dəfə idi ki, erməni idmançı ilə döyüşürdüm. Qarşıma məqsəd qoymuşdum ki, erməni ilə döyüşəsi olsam, mütləq qalib gəlim. Rəqibim mənə o qədər də güclü təsir bağışlamadı. Amma bir məsələni də qeyd edim ki, zəif idmançı finala çıxmır. İstər ermənininin özünə, istərsə də "erməni" sözünə elə bir nifrətim var ki, onu sözlə ifadə etməyə çətinlik çəkirəm. Erməni tarix boyu mənim xalqıma düşmən kəsilib. Bu düşmən misli-bərabəri olmayan faciə yaşadıb bizlərə. Ermənilər (kövrələrək) mənim əmimi də Qarabağ döyüşlərində şəhid ediblər. Mən bu mənfur düşmənin idmançısını məğlub etməyə bilməzdim. Erməni idmançıya göz açmağa belə imkan vermədim. Rəqibimi 6:0 hesabı ilə məğlub edərək dünya çempionu oldum və qara kəməri ondan aldım. Əgər, allah eləməmiş, mən erməniyə məğlub olsaydım, əmimin və şəhidlərimizin ruhu məni bağışlamazdı.

*- Şəhid əmin haqqında oxucularımıza nə deyə bilərsən?*

- Əmim Cavid Haqverdiyev 1975-ci ildə Biləsuvar rayonunun Ağəyri kəndində anadan olub. Məndən böyüklər onun haqqında danışaraq deyirdilər ki, əmim çox vətənpərvər olub. O, Qarabağ müharibələri başlayandan vətənin müdafiəsinə can atıb. 1992-ci ilin iyununda evdən qaçaraq könüllü döyüşlərə qatılıb və həmin il sentyabr ayının 22-də Laçın rayonunun Su dərəsi yüksəkliyi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

*- Maraqlıdır, gününü necə qurursan. Məşqlərə günün hansı saatları vaxt ayırırsan?*

- Hər gün tezdən, saat 6:30-da dururam. İdmanı edib, məktəbə gəlirəm. Dərslərim saat 14:00-da qurtarır. 3-ün yarısı evə çatıb dərslərimi oxuyuram. Axşama doğru saat 18:00-da məşqimə gedirəm. Məşqdən qayıdandan sonra axşamlar saat 20:30-dan 21:30-dək həyətdəki meydançada qaçıram.

*- İdmanda özünə örnək hesab etdiyin var?*

- Bəli, mən idman aləmində Zabit Səmədovu və Badr Harini çox bəyənirəm. Onların döyüş videolarına baxıram. Adlarını çəkdiyim döyüşçülərin idman aləmində böyük uğurları var. Çox güclü idmançılardır. Onlardan mən çox idman hərəkətləri öyrənirəm.

*- Məktəbə, dərslərinə xüsusi önəm verdiyini dedin. Maraqlıdır, gələcək karyeranı hansı sahədə qurmaq istəyirsən?*

- Mənim aləmimdə təhsilin yeri başqadır. Müəllimlərimi çox sevirəm. Sinif yoldaşlarımı da həmçinin. Biz əvvəl Nizami metro stansiyasının yaxınlığında yaşayırdıq. Ona görə də birinci sinfə 18 nömrəli tam orta məktəbdə getmişəm. Müəyyən vaxtdan sonra ailəmiz Sabunçu rayonuna köçdü. İndi mən məktəbə oradan gəlirəm. Məsafənin uzaq olmasına baxmayaraq, məktəbimizdən və sinif yoldaşlarımdan ayrılmamaq üçün gedib-gəlirəm. O ki qaldı gələcəkdə hansı sahədə karyerama, Polis Akademiyasına qəbul olmaq istəyirəm. Müstəntiq işləmək arzusundayam.

Müsahibə zamanı Məşədiəlifağanın məşqçi-müəllimi Muxtar Allahyarov və 18 nömrəli tam orta məktəbin direktoru Rəna Süleymanova da bizimlə idi. Fürsətdən istifadə edib onların da çempionumuz haqqında fikirlərini öyrəndik.

*Bakıdakı 18 nömrəli tam orta məktəbin direktoru Rəna Süleymanova:* "Məşədiəlifağa məktəbimizin 7 "d" sinif şagirdidir. Bu sinif xüsusi sinif sayılır. Çünki bu sinif alman dili təmayüllü sinifdir. Bunu deməkdə məqsədim odur ki, o, alman dilini də yaxşı bilir. Dərslərinə qarşı çox diqqətlidir. İntizamlı, səliqəli, barmaqla göstərilən nümunəvi şagirddir. Onun dünya çempionu olduğunu eşidəndə, həqiqətən də biz çox sevindik. Bu ilin fevral ayında Gürcüstandan qələbə ilə dönməsi və erməni idmançısını məğlub etməsini biləndə isə bütün məktəb onu ayaq üstə qarşıladı. Ölkəmizin adını belə yüksəklərə qaldıran idmançılarımızla fəxr edirik və onlara yeni-yeni tarixə düşən qələbələr arzu edirik.

*Məşqçi-müəllim Muxtar Allahyarov:* "25 ildir ki, idmandayam. On ildən artıqdır ki, məşqçi-müəllim işləyirəm. Haqqında danışdığımız bu balaca çempionumuz çalışqan, əziyyətdən qorxmayan, bacarıqlı və fiziki cəhətdən çox güclü bir idmançıdır. Onun zala ilk gəlişini indiki kimi xatırlayıram. Məşədiəlifağanın 8 yaşı var idi. Olduqca çəlimsiz və sıxıntılı halda zala gəldi. Valideynləri mənə sual verdilər ki, bu uşaqdan idmançı olar? Dedim ki, sizin sualınıza bir aydan sonra cavab verəcəm. Bir ay ərzində artıq mən müəyyənləşdirmişdim ki, bu uşaq gələcəyin ən güclü idmançılarından biri olacaq. Məşədiəlifağa elə bir idmançıdır ki, onun haqqında yarışa getməzdən əvvəl proqnoz vermək olar ki, qalib olacaq, ya yox. Mən belə yetirmələrimlə fəxr edirəm.

Fürsətdən istifadə edib bir şeyi xüsusilə qeyd etmək istərdim. Azərbaycanın istənilən sahədə olan inkişafına görə və ən önəmlisi, Azərbaycan idmanının bu qədər öndə olması, seçilməyimiz, birincilər sırasında olmağımız üçün biz hamımız Prezidentimizə borcluyuq. Onun qayğısı, diqqəti bizim üçün önəmli məqamdır. Bu gün birmənalı qaydada demək olar ki, cənab Prezident bütün idmançıların ən böyük dostu və himayədarıdır.

# "Şahin" hərbi-idman oyunlarının rayon mərhələsi başa çatıb

Bakı şəhəri üzrə ümumi təhsil müəssisələrinin şagirdlərinin iştirakı ilə keçirilən "Şahin" hərbi-idman oyunlarının rayon mərhələsi başa çatıb. Yarışda hər bir komandanın tərkibi 14 nəfər (10 oğlan, 4 qız) olmaqla VIII və X sinif şagirdləri iştirak edib. Komandalar yarışın 8 mərhələsi üzrə öz qüvvələrini sınayıb və hər bir komanda 5 ballıq sistem üzrə qiymətləndirilib.

Yarışın nəticələrinə görə, Nəsimi rayonu üzrə 23, Xəzər rayonu üzrə 117, Nizami rayonu üzrə 220, Suraxanı rayonu üzrə 280, Yasamal rayonu üzrə 31, Qaradağ rayonu üzrə 228, Səbail rayonu üzrə 49, Xətai rayonu üzrə 138, Nərimanov rayonu üzrə 291, Binəqədi rayonu üzrə 100, Sabunçu rayonu üzrə 74 nömrəli tam orta məktəblərin komandaları I yerə layiq görülüb.

Rayon mərhələsinin qalibi olan məktəblərin komandaları aprelin 29-da Cəmşid Naxçıvanski adına Hərbi Liseydə keçiriləcək Bakı şəhər birinciliyində iştirak etmək hüququ qazanıb.

Qeyd edək ki, "Şahin" hərbi-idman oyunları Təhsil, Gənclər və İdman, Müdafiə, Fövqəladə Hallar, Mədəniyyət və Turizm nazirlikləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Respublika Veteranlar Təşkilatının birgə qərarı ilə təsdiq edilmiş əsasnaməyə uyğun olaraq keçirilir.

Oyunların keçirilməsində əsas məqsəd yeniyetmə və gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi işinin gücləndirilməsi, məktəblilərin hərbi xidmətə hazırlıq səviyyəsinin yüksəldilməsindən ibarətdir.

# IV İslam Həmrəyliyi Oyunları məktəblilər arasında geniş təbliğ olunur

IV İslam Həmrəyliyi Oyunlarının məktəblilər arasında təbliğ edilməsi məqsədilə Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzi tərəfindən ölkəmizin bütün bölgələrini əhatə edən Respublika təsviri sənət müsabiqəsinə start verilib.

Müsabiqə 6-17 yaş arası məktəblilər olmaqla, 6-9, 10-13, 14-17 yaş kateqoriyaları üzrə təşkil edilib.

Müsabiqə 2 mərhələdə təşkil olunacaq. I mərhələ 24-27 aprel 2017-ci il tarixlərində zonalar üzrə təhsil şöbə və idarələrində keçiriləcək. Hər zona üzrə bütün yaş kateqoriyalarında ilk üç yeri tutan əsərlər növbəti mərhələyə vəsiqə qazanacaq.

Müsabiqənin I mərhələsinin qalibləri yerli təhsili idarəetmə qurumlarında yaradılmış münsiflər heyəti və mərkəzin əməkdaşlarının iştirakı ilə müəyyən edilərək II mərhələyə vəsiqə qazanacaqlar. Zonalar üzrə sərgilər təşkil ediləcək və hər yaş kateqoriyası üzrə qaliblər diplomlarla mükafatlandırılacaqlar.

II mərhələyə təqdim olunan rəsm əsərləri 8-10 may 2017-ci il tarixlərində Təsviri Sənət Qalereyasında qiymətləndiriləcək. Qiymətləndirmə Təhsil Nazirliyinin, Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzinin, "Təhsil" Respublika İdman Mərkəzinin və Azərbaycan Rəssamlar İttifaqının mütəxəssislərindən ibarət münsiflər heyəti tərəfindən aparılacaq.

Qaliblər diplom və hədiyyələrlə mükafatlandırılacaqlar.

# Azərbaycan Respublikasının Təhsil İnstitutu UNİCEF Azərbaycan ilə birgə vakant iş yerləri

## ELAN EDİR

Azərbaycan Respublikasının Təhsil İnstitutu UNİCEF Azərbaycan ilə birgə aşağıdakı layihələrin icrasına başlayır və vakant iş yerləri üzrə müsabiqə elan edir.

1. Ailələrin maarifləndirilməsi yolu ilə 3-4 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb edilməsi layihəsi
   - *Layihə koordinatoru*
   - *Mühasib*
   - *Ehtiyacların qiymətləndirilməsi üzrə məsləhətçi*
   - *Monitorinq və qiymətləndirilmə üzrə menecer*
2. Məktəbəqədər və ibtidai təhsil pillələri üzrə müəllimlərin ixtisasartırma proqramlarının hazırlanması layihəsi
   - *Layihə koordinatoru*
   - *Mühasib*
   - *Ehtiyacların qiymətləndirilməsi üzrə məsləhətçi*
   - *Keyfiyyət təminatı üzrə menecer*
3. Ümumtəhsil pilləsi üzrə kurikulumun təkmilləşdirilməsi layihəsi
   - *Layihə koordinatoru*
   - *Mühasib*
   - *Kurikulum üzrə mütəxəssis*
4. Məktəb idarəolunması üzrə proqramın hazırlanması və tətbiqi layihəsi
   - *Layihə koordinatoru*
   - *Mühasib*

Hər vakant yer üzrə verilən tələblərə uyğun namizədlər öz CV-lərini Azərbaycan dilində **nermine.aliyeva@edu.gov.az** email ünvanına göndərə bilərlər.

# İngilis dili müəllimlərinin nəzərinə!

Dünya IB Məktəbində 29 aprel 2017-ci il tarixində Xəzər Universiteti ilə birgə "Learning Together - Stronger Together" adlı Beynəlxalq Konfrans keçiriləcək.

Bu konfrans təhsil sahəsinin peşəkarlarını bir araya gətirərək, onlara müasir təhsil sisteminin problemlərini müzakirə etmək imkanı yaradacaq.

Konfransın başlıca spikeri qismində bir çox IB dərsliklərinin müəllifi Bred Filpot çıxış edəcək. O, həmçinin "Essay Writing" mövzusunda təlim də keçəcək.

Bundan başqa, professor Hamlet İsaxanlı da bu beynəlxalq konfransda öz zəngin təcrübəsini konfrans iştirakçıları ilə paylaşacaq.

Siz də bu beynəlxalq konfransda iştirak edib öz təcrübənizi daha da zənginləşdirmək istəyirsinizsə, tərəddüd etmədən bizə müraciət edin.

Əvvəlcədən təşəkkür edirik!

# "ABŞ-Azərbaycan ədəbi əlaqələri: Yeni nəsr" kitabının təqdimatı olub

Bakı Dövlət Universitetinin filologiya fakültəsində filologiya üzrə fəlsəfə doktoru, Bakı şəhəri 147 nömrəli Texniki Humanitar Liseyin direktoru Arif Əsədovun "ABŞ - Azərbaycan ədəbi əlaqələri: Yeni nəsr" adlı kitabının təqdimatı keçirilib.




Tədbiri Bakı Dövlət Universitetinin dünya ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə elmlər doktoru, professor Cəlil Nağıyev açaraq kitab haqqında fikirlərini söyləyib. Kitabın elmi redaktoru vurğulayıb ki, monoqrafiyada ABŞ - Azərbaycan ədəbi əlaqələrinin tarixi inkişaf prosesi araşdırılır, yeni nəsr hadisəsinin təşəkkül fərdliyi təhlil edilir.

Qeyd olunub ki, müəllif dünya ədəbiyyatı tarixində yeni nəsr nümunəsi kimi tanınmaqda olan realizə və modernist cərəyanlara aid nümunələrin ideya-məzmun xüsusiyyətlərini göstərməklə yanaşı, bu dövr ABŞ ədəbiyyatının özünəməxsus səciyyəvi cəhətlərini müəyyən edən parametrləri də araşdırmışdır. Tədqiqatçı araşdırdığı mövzu ilə əlaqədar milli ədəbiyyatşünaslığımızda mövcud olan ədəbi-nəzəri tədqiqatları nəzərdən keçirir, onlar haqqında öz fikirlərini bildirir.

Çıxış üçün söz alan BDU-nun filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Elçin Məmmədov Arif müəllimin istedadlı, zəhmətkeş bir alim kimi yüksək keyfiyyətlərindən, elmi, pedaqoji fəaliyyətindən söz açıb.

Sonra dosent Namiq Həsənov, 147 nömrəli Texniki Hümanitar Liseyin valideyn icmasının sədri, uzun illər pedaqoji fəaliyyətlə məşğul olmuş Novruz Quliyev çıxış ediblər.

Təqdimat mərasiminin sonunda kitabın müəllifi Arif Əsədov tədbir iştirakçılarına öz minnətdarlığını bildirib.

**N.İDRİSOĞLU,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Uğurlu tədqiqat işi

## İrəvanda və Naxçıvanda məscid məktəbləri və mədrəsələri alimin araşdırmasında

**İsmayıl ƏLİYEV,**
*pedaqogika üzrə elmlər doktoru, professor*

Bu günlərdə Naxçıvan Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayevin "XIX əsr və XX əsrin əvvəllərində İrəvanda və Naxçıvanda məscid məktəbləri və mədrəsələr" adlı kitabını oxudum. Araşdırılan problemin günümüzdə vacibliyi, müəllifin məsələ ilə bağlı ilk mənbələrə müracət etməsi, bütöv əsər üçün məntiqi tamlıq, bir az da publisistik ruhda verilmiş şərhin gözəlliyi mənə çox maraqlı göründü. Müəllif ilk mənbələrə- arxiv sənədlərinə və dövri nəşrlərə istinad edərək göstərir ki, məscid məktəbləri ayrı-ayrı tarixi mərhələlərdə xalqın və ölkənin həyatında çox əhəmiyyətli mövqeyə malik olmuş, milli-mənəvi düşüncənin formalaşmasında öz funksiyasını şərəflə yerinə yetirmişdir.

Tədqiqat işində müəllif bu tədris müəssisələrinin müxtəlif tarixi dövrlərdə daşıdığı funksiyanı üzə çıxarmağı bacarmış və bununla da tədqiqatın konsepsiyasını - əsas fikir, düşüncə qatını doğru-düzgün müəyyənləşdirə bilmişdir. Haqlı olaraq göstərilir ki, ilkin və orta əsrlərdə ölkədə savad təlimi və şəriətin əsaslarını yetişən nəslə öyrətmək, həmçinin zaman-zaman nəsillərin, böyük mütəfəkkirlərin ali mədrəsə təhsilinə, yaxud müstəqil şəkildə təhsillənmə yoluna işıq salmaq məhz bu məktəblər vasitəsi ilə mümkün olmuşdur. Digər tərəfdən, bəhs olunan əsrlərdə bu təhsil müəssisələri dövlət idarələrində kargüzarlığın, əhali arasında yazılı ünsiyyətin formalaşmasına, ümumən ölkədə savad təliminin yayılmasına xidmət etmişdir. Orta əsrlərdə Azərbaycanda gənc nəslin təhsil və tərbiyəsinin əsasları məscid yanındakı məktəblərdə qoyulmuşdur ki, həmin savad ocaqları Azərbaycanın bütün regionlarında, o cümlədən İrəvanda və Naxçıvanda yeganə tədris müəssisələri kimi fəaliyyət göstərmişdir.

Tədqiqat XIX əsr və XX əsrin əvvəllərində fəaliyyət göstərən məscid məktəblərinin öyrənilməsinə həsr olunmuşdur, Müəllif ayrıca bir dövr üzrə bu tədris müəssisələrinin tarixini öyrənərkən hansı məqsədləri, əsas qayəni izlədiyini dəqiq ifadə edə bilmişdir. XIX əsrin əvvəllərindən etibarən Rusiyanın müstəmləkə siyasətindən asılı olmayaraq Zaqafqaziyanın azərbaycanlılar yaşayan bütün bölgələrində, o cümlədən İrəvanda və Naxçıvanda məscid məktəblərinin öz fəaliyyətini davam etdirdiyi məlum həqiqətdir. Lakin bu tədris müəssisələrinə fərqli baxışlar, çox halda düzgün olmayan yanaşmalar olmuşdur. Müəllif bu təhsil ocaqlarına dövrün rəsmi və ictimai fikrinin münasibətlərini müəyyənləşdirərək yazır: " XIX əsr və XX əsrin əvvəllərində rus Qafqazşünaslığı və pedaqoji ədəbiyyatında müsəlman təhsil sisteminin tənqidi kifayət qədər geniş yayılmışdı. Əlbəttə, bu fikirlərin əsasında mübahisə doğurmayan cəhətlərlə yanaşı, əsası olmayan, kəskin və qərəzli fikir və qənaətlər də yer almışdı. Bu mənbələrdə xarakterinə görə daha mənfi, dözülməzlik göstərməyə səbəb olan yanaşma və münasibətlərdən biri bütün ruhani ziyalı və müəllimlərə eyni nəzərlərlə baxılması, eyni xarakteristikaların verilməsi idi. Halbuki, bu zümrə içərisində İslam dininin əsaslarını mükəmməl şəkildə öyrənib mənimsəmiş, dövrün açıqgözlü, xalqın təəssübünü çəkən ruhani ziyalılar da az deyildi. Onlar yetişən nəslin öz dini-milli dəyərləri əsasında formalaşmasına, zamanın tələblərini dərk edən, ona uyğunlaşan insanlar kimi yetişməsinə bütün qüvvə və bacarığını, zəka və istedadını əsirgəməmişlər". Müəllifin araşdırdığı məsələyə məhz belə bir münasibət əsərin uğurlarının təmin olunmasına zəmin yaratmışdır.

Müəllif qaldırdığı problemə, həll etmək istədiyi məsələyə bu günün prizmasından baxmağı bacarmış, konkret tarixi dövr kimi, həm də çox mürəkkəb şərait olaraq XIX əsrdə ənənəvi məktəblərin vəziyyətinə düzgün münasibət, həqiqi elmi yanaşma nümayiş etdirə bilmişdir. Tədqiqatçı elmi obyektivlik naminə məscid məktəblərinin dövrə, zamana görə zəif və nöqsanlı cəhətlərini də üzə çıxarır. Lakin bununla belə, xatırladaq ki, məscidlər uzun zaman əhali arasında əsasən dini səciyyəli olsa da çox mühüm maarifləndirmə silahı olmuşdur. Müəllifin müəyyən tarixi mərhələdə İrəvan və Naxçıvan bölgəsi üzrə məscidlərin və məktəblərin arealını müəyyənləşdirməyə göstərdiyi səylər sosial mənası ilə də diqqəti cəlb




edir. Tədqiqatdan yaranan qənaət belədir ki, bölgədəki məktəb və məscidlərin öyrənilməsi bu əraziyə siyasi təsirlərin öyrənilməsinə, həmçinin "erməni xülyalarının" əsassızlığı, bölgənin milli-etnik xüsusiyyətlər baxımından kimə mənsub olması məsələlərinə aydınlıq gətirən vasitələrdən biridir. Həqiqətən də Rusiyanın müstəmləkə işğalı nəticəsində bölgənin siyasi quruluşunun dəyişməsi, əlavə olaraq imperiya siyasəti fonunda "erməni kartı" kimi bədnam vasitədən istifadə edilməsi şəraitində məscidlərin və məktəblərin bölgədəki mövcudluğunun necə bir əhəmiyyətə və mahiyyətə malik olduğunu sübut etməyə ehtiyac qalmır.

Bölgənin dini təsisatları və onların nəzdindəki təhsil ocaqlarının ilk mənbələr əsasında dəqiq və elmi təsvirinin verilməsi əsərin mühüm məziyyətidir. Arxiv sənədlərində, hökumətin Qafqaz təhsili üzrə hesabatlarında, çoxcildlik tarixi-etnoqrafik nəşrlərdə, hərbi və ümumi statistik mənbələrdə, ensiklopedik-təqvim xarakterli məcmuələrdə, yol qeydləri və səyahətnamələrdə məscidlər və onların yanındakı məktəblər haqqında materiallar diqqətlə, elmi həqiqəti üzə çıxarmaq naminə öyrənilmişdir.

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Baş redaktor** n.heydarov@media.edu.az
Nurəddin Heydərov 538-21-66
**Baş redaktor müavini** s.ibrahimov@muallim.edu.az
Sarvan İbrahimov 538-21-55
**Məsul katib** e.abdulov@muallim.edu.az
Elman Əbdülov 510-68-73
**Elm və təhsil şöbəsi** y.aliyev@muallim.edu.az
Yusif Əliyev 538-51-41
**Beynəlxalq əlaqələr şöbəsi** o.mustafayev@muallim.edu.az
Oruc Mustafayev 538-67-41
**İnformasiya şöbəsi** n.rahimov@muallim.edu.az
Niyazi Rəhimov 538-66-05
**Gənclik və yaradıcılıq şöbəsi** s.kerimova@muallim.edu.az
Samirə Kərimova 539-19-74
**Məktublar şöbəsi** sh.cafarov@muallim.edu.az
Şakir Cəfərov 539-64-00
**Mühasibatlıq** 539-67-74
**Kompüter mərkəzi** 539-07-98
**Reklam və elanlar** 539-20-77 (tel./faks)
**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə
Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur
Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X
"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ12 IBAZ38060019443164986216
VÖEN: 1300397831
**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6200, **Sifariş** 1109
**Məsul növbətçi:** Ş.Cəfərov

# Etibarsız sayılır

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1992-ci ildə Seyidov Nofəl Rəsul oğluna verilmiş ЦВ-845999 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli Respublika xüsusi internat məktəbini** 2010-cu ildə bitirmiş Kərimov Turan Yaşar oğluna verilmiş 003339 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Məmmədov Təbriz Ataş oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**42 nömrəli Bakı Texniki Peşə Məktəbi** tərəfindən 1995-ci ildə Məmmədli Fərrux Nəcəf oğluna verilmiş 002672 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran Peşə Məktəbi** tərəfindən 2014-cü ildə Həsənov Hüseyn Eldar oğluna verilmiş A-046362 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Məktəbi** tərəfindən 1996-cı ildə Abbaszadə Samirə Bəşir qızına verilmiş AB-II-005169 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 175 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Əhmədov Əhməd Ağaverdi oğluna verilmiş B-689844 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayonu** Zəngişalı kənd tam orta məktəbini 1980-ci ildə bitirmiş Abbasova Nazlı Yəhya qızına verilmiş 398234 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Təhsil Nazirliyi** tərəfindən 2011-ci ildə Əhmədov Sənan Məhərrəm oğluna verilmiş 003234 nömrəli Təhsil şəhadətnaməsi və 002862 nömrəli iş şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır,

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2016-cı ildə Qəhrəmanov Hafiz Lütfiyar oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2009-cu ildə Qurbanov Seymur Zakir oğluna verilmiş MNB-010051 nömrəli magistr diplomuna əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2009-cu ildə Kərimova Səbinə Məmməd qızına verilmiş MNB-011200 nömrəli magistr diplomuna əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2015-ci ildə Rəsulzadə Rəsul Elman oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 20 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Novruzova Fəridə İlham qızına verilmiş B-464805 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 37 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Quluzadə Araz Zaur oğluna verilmiş B-587610 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Peşə Liseyini** 2010-cu ildə bitirmiş Abbaslı Şamil Həsən oğluna verilmiş BB-051618 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Pedaqoji Texnikumu** tərəfindən 2002-ci ildə Əsədova Salehə Əlövsət qızına verilmiş AB-II-078053 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayonu** Qovlar qəsəbə tam orta məktəbini 1984-cü ildə bitirmiş Quliyev Telman Hüseyn oğluna verilmiş 013856 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər Məktəb-Lisey Kompleksi** 2016-cı ildə bitirmiş Məmmədov Aqil Asif oğluna verilmiş A-508871 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 170 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əliyeva Yenigül Məhərrəm qızına verilmiş 043818 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 4 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Əminova Günel Arif qızına verilmiş A-391228 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayonu** şəhər 6 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Hüseynov Sərraf Azər oğluna verilmiş B-557578 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu** (indiki ADPU) tərəfindən 1980-ci ildə İsmayılov Cavid Qüdrət oğluna verilmiş EB-273242 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayonu** Topalhəsənli kənd tam orta məktəbinin IX sinfini 1994-cü ildə bitirmiş İsayev Orxan Mahir oğluna verilmiş A-077440 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayonu** Mollakənd kənd tam orta məktəbini 1991-ci ildə bitirmiş Atakişiyeva (Tağıyeva) Süsən Tağı qızına verilmiş 258541 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə Davidov Ramil Bəhruz oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayonu** Mollacəlilli kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Məhərrəmova (Sadıqova) Kəmalə Bəndər qızına verilmiş 16 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli tam orta məktəb-liseyi 2015-ci ildə bitirmiş Əliyev Arif Sənan oğluna verilmiş A-412533 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayonu** Qazma 2 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əliyeva Xəyalə Akif qızına verilmiş A-040401 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı şəhər** 2 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Rufullayeva Mətanət Məzahir qızına verilmiş A-521290 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 8 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Abbasova Gültəkin Allahverdi qızına verilmiş Ə-0583 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dillər İnstitutu** (Azərbaycan Dillər Universiteti) tərəfindən 1996-cı ildə İbrahimova (Məmmədova) İlhamə Məmmədtağı qızına verilmiş AB-I-002760 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** (ADNSU) tərəfindən 1995-ci ildə Babayeva Sədaqət İbrahim qızına verilmiş AB-I-005980 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu** (ADU) tərəfindən 1991-ci ildə Məmmədova Nazəndə Qnyaz qızına verilmiş УВ-I-116489 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 57 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Hüseynli Əfsanə İlyas qızına verilmiş B-174541 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayonu** Biləvər kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Rüstəmov Cahid Cabir oğluna verilmiş A-331642 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 186 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Zabbarova Elita Raşidovnaya verilmiş A-193738 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 127 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Adıgözəlov Teymur Vasif oğluna verilmiş A-407184 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2013-cü ildə Rüstəmova Vəfa Nuşrəvan qızına verilmiş MNB-028992 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2012-ci ildə Ağazadə Püstəxanım Rafiq qızına verilmiş B-253441 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2011-ci ildə Babakişiyev Samir Vidadi oğluna verilmiş B-206152 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 236 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Məmmədov Elnur Məmməd oğluna verilmiş A-517908 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayonu** Kiçik Əmili kənd tam orta məktəbini 2015-ci ildə bitirmiş Ağayev Bəkir Eldəniz oğluna verilmiş A-484510 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** Qaragüney kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Cavadova Fidurə Calal qızına verilmiş B-312719 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1985-ci ildə Musayeva (Ələkbərova) Ceyran Süleyman qızına verilmiş HB-963341 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** Kəbirli kənd 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Vəlişov Elyar Hakif oğluna verilmiş A-143030 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 261 nömrəli məktəb -liseyin IX sinfini 2011-ci ildə bitirmiş Səlimov Kamran Azər oğluna verilmiş A-049851 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 1998-ci ildə Bağırova Almaz Xeyrulla qızına verilmiş A-028793 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 8 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Əzizov Emil Mirdanət oğluna verilmiş A-664463 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dillər İnstitutu** tərəfindən 1999-cu ildə Əsgərov Kamal Niyazi oğluna verilmiş A-042837 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 3 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əliyev Xətai Yadigar oğluna verilmiş B-654693 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Şabanlı kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Tarıverdiyev Fikrət Fərhad oğluna verilmiş 007505 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Uzuntəpə kənd 1 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Yusubova Könül Adil qızına verilmiş 101292 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 5 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş İsmayılov İbadət Mehralı oğluna verilmiş A-948778 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lerik rayonu** Girdəsər kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Əkbərova Gülay Hafiz qızına verilmiş B-057691 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayonu** 12 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Hüseynova Günay Fərhad qızına verilmiş A-256374 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texnologiya Universiteti** tərəfindən 2016-cı ildə Şükürov Faiq İlham oğluna verilmiş A-096329 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Xocalı rayonu** Cəmilli kənd tam orta məktəbini 1996-cı ildə bitirmiş Əhmədova Bağdagül Elman qızına verilmiş A-087828 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli Baza Tibb Məktəbi tərəfindən** 1990-cı ildə Xıdırova Gülşirin İlamanovnaya verilmiş HT-I-576678 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

132-134 nömrəli təhsil kompleksinin pedaqoji kollektivi kompleksin rus dili müəllimi Nurlana İsmayılovaya anası

**YEGANƏ QARAXANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

132-134 nömrəli təhsil kompleksinin kollektivi veteran müəllim

**ƏŞRƏF MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## Myths and legends – Central African myth: Gihanga

by Freddie Gay

### Activity 1

Before you read, decide which word goes with which meaning.

| | | | |
|---|---|---|---|
| 1. community | 2. furthermore | 3. intelligence | 4. introduce |
| 5. pottery | 6. skilled | 7. spread | 8. uncertain |

**a.** a group of people who live near each other or share the same interests
**b.** also
**c.** the ability to learn, understand and think about things
**d.** being very good at a job
**e.** make more people know about something
**f.** not sure about something
**g.** show somebody something new
**h.** the making of pots

### Activity 2

The text below has five paragraphs. However, they are not in the correct order. Read the passage and write the correct order for the paragraphs below:

| | | | | |
|---|---|---|---|---|
| 1. | 2. | 3. | 4. | 5. |

**A**

Gihanga's intelligence helped him to become loved by people living in the region. He is believed to have discovered fire, pottery, new ways of farming and building, and new objects made from metal. All of these things were introduced to local people to improve their lives. Furthermore, he created the country Rwanda. He joined different communities together, made laws and spread religion.

**B**

Gihanga is thought to have spent his childhood in different locations in Central Africa. His father Kabeja is said to have been a rich and skilled man. He had learned how to use metal to make objects like shoes for horses. Gihanga must have learned a lot from his father as they say he was a very clever boy indeed.

**C**

But can we be sure that all this is true? The story of Gihanga has been passed on for hundreds of years. How much might the story have changed in this time? Can we even be sure Gihanga existed at all?

**D**

Rwanda is located near lots of big lakes and forests. A long time ago in this region lots of small communities existed but they all had very simple ways of living with little technology to help them. There was no country. No 'Rwanda' existed.

**E**

The early history of many African countries is uncertain. People did not write down events that happened. Instead people learned about their history through spoken stories told by older people. Here is the story of a great king – Gihanga.

### Activity 3

1. Choose the best title for the reading.

**a.** Gihanga – The king who wanted everything
**b.** Gihanga – The great king who created Rwanda?
**c.** Gihanga – Did he really exist?
**d.** Gihanga – The intelligent king

2. Explain why you think your choice is the best title. Why are the other choices not as suitable?



© Hannah Eaton/British Council

### Activity 4

Look at the sentences below.

1. *Many people think Gihanga spent his childhood in different locations in Central Africa.*
2. *People believe he discovered fire.*
3. *They say his father, Kebeja, was a rich and skilled man.*

Now look at the sentences that were actually used in the text. How are they similar/different?

**a.** *Gihanga is thought to have spent his childhood in different locations in Rwanda.*
**b.** *He is believed to have discovered fire.*
**c.** *His father, Kabeja, is said to have been a rich and skilled man.*

The sentences used in the text (a–c) have exactly the same meaning as 1–3 above. However, a passive form is used because the subject of the sentence does not need to be said. The past simple is also changed to the present perfect.

Change each sentence below into a passive form as in a–c above.

1. They say Gihanga was a clever boy.
.......................................................................
2. People understand the Mayans were an advanced society.
.......................................................................
3. People believe William Shakespeare wrote the poem.
.......................................................................
4. People think Rwanda was created in the 11th century.
.......................................................................
5. We know the continents of the Earth were joined together once.
.......................................................................

### Activity 5

Do you know a lot about the history of your country? How far into the past does it go?

### Answers

**Activity 1**
1. a; 2. b; 3. c; 4. g; 5. h; 6. d; 7. e; 8. f

**Activity 2**
1. E; 2. D; 3. B; 4. A; 5. C

**Activity 3**
1. b.
2. b. is the best option because it is about the topic of the whole text, not just part of the text like c. and d., or nothing to do with the text like a.

**Activity 4**
1. Gihanga is said to have been a clever boy.
2. The Mayans are understood to have been an advanced society.
3. William Shakespeare is believed to have written the poem.
4. Rwanda is thought to have been created in the 11th century.
5. The continents of the Earth are known to have been joined together once.

To find more English language activities visit www.britishcouncil.org/learnenglish

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017